Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Hüquq İnstitutu

Rəfiqə Əzimova

# KEÇİD DÖVRÜ CƏMİYYƏTİNİN SOSİAL STRATİFİKASİYASINDA ORTA SİNİF

Bakı – 2014

**Elmi redaktoru:** Fəlsəfə üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi, **Cəmil Əhmədli**

**Tərcümə edəni:** Fəlsəfə üzrə elmlər doktoru, professor **İzzət Əşrəf oğlu Rüstəmov**

**Resenzeti:** İqtisad elmləri üzrə fəlsəfə doktoru **M.Bağırzadə**

**Texniki redaktor:** Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Rəşad Hüseynağa oğlu Əsgərov**

**Ə-37. R.Əzimova:** Keçid dövrü cəmiyyətinin sosial stratifikasiyasında orta sinif.Bakı «AVROPA»-2014. 100 s

*Yeni siyasi-iqtisadi sistemə keçid cəmiyyətin sosial strukturunu köklü surətdə dəyişdirmiş, bununla da onun sinfi və sosial strukturuna təsir göstərmişdir. Ənənəvi olaraq sovet cəmiyyətindəki sabit, qarşılıqlı sinfi münasibətlər keçid dövrü şəraitində yeni keyfiyyət xarakteristikaları kəsb edir. Qarşılıqlı makrosinfi münasibətlər mikrostratifikasiyalı əlaqələr səviyyəsi ilə yerini dəyişir. Yeni stratifikasiyalı struktur çərçivəsində orta sinif tədricən, lakin ardıcıl şəkildə "vətəndaşlıq" qazanır. Orta sinif Azərbaycan şəraitində nəzəri səviyyədə bir anlayış və reallıq kimi nə ifadə edir? İslahat prosesləri gedişində orta sinfin təşəkkülü və qərarlaşması yollarında hansı problemlər meydana gəlir? Cəmiyyətin sosial stratifikasiyasında orta sinfin rolu və tutduğu yer nədən ibarətdir? Orta sinfin təşəkkülü problemləri ilə bağlı bu və bir sıra digər məsələlər bu monoqrafiyada nəzərdən keçirilir.*

*Kitab elmi işçilər, ali məktəb müəllimləri, doktorantlar və dissertantlar, həmçinin müasir sosiologiya məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

Ə $\frac{4702060106-19}{8032-2014}$ *Qrifli nəşr*

© *«AVROPA» Nəşriyyati-2014*

**Mündəricat**

**Tərcüməçidən bir neçə söz**........4-6

**Giriş əvəzi: Yeni siyasi-iqtisadi sistemə keçid şəraitində demokratik proseslər**........7-13

**I Fəsil: Keçid dövrü cəmiyyətində sinfi stratifikasiyalı strukturun dinamikası**

1. Keçid dövrünün ilkin tarixi........14-17
2. Bazar iqtisadiyyatına keçid dövrünün reallıqları və sovet tipli sinfi sistemin dağılması........17-22

**II Fəsil: Klassik və müasir nəzəriyyələrdə "stratifikasiya və orta sinif" anlayışları**

1. Antik və Şərq fəlsəfəsində bərabərsizlik məsələləri........23-27
2. "Stratifikasiya" və "orta sinif" anlayışları haqqında Qərb nəzəriyyələri........27-52
3. Postsovet cəmiyyətinin sosial stratifikasiyasında "orta sinif" anlayışı və onun real hüdudları........52-60

**III Fəsil: Azərbaycanda orta sinfin təşəkkülü problemləri**

1. Sosioloji tədqiqat hipotezi........61-65
2. Sosioloji sorğu və onun ümumiləşdirilməsinin nəticələri (rayon və şəhər sferasında keçirilmiş sorğuların müqayisəli təhlili)........65-94

**Nəticə**........95-97

**Ədəbiyyat**........98-99

## *Tərcüməçidən bir neçə söz*

Ümidvar olduğumu bildirirəm ki, görkəmli alim Rəfiqə Əzimovanın Azərbaycan dilində çapdan çıxacaq "Keçid dövrü cəmiyyətinin sosial stratifikasiyasında orta sinif" monoqrafiyası oxucular tərəfindən, xüsusilə, bəhs olunan problemlə, onun tədqiqi ilə maraqlanan elmi işçilər, filosoflar və sosioloqlar tərəfindən maraqla qarşılanacaq və ehtimal etmək olar ki, bütövlükdə müsbət əks səda doğuracaqdır. Bu kitab rus dilində "**СРЕДНИЙ КЛАСС В СОЦИАЛЬНОЙ СТРАТИФИКАЦИИ ОБЩЕСТВА ПЕРЕХОДНОГО ПЕРИОДА**" adı ilə 2006-cı ildə oxuculara təqdim olunmuşdu ("Elm" nəşriyyatı). Dəqiq məlumatımıza görə bəhs etdiyimiz bu tədqiqat oxucular tərəfindən rəğətlə qarşılanmış, oxuyanlarda ciddi elmi maraq doğurmuşdu, o cümlədən, Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının əməkdaşları Rəfiqə xanımın tədqiqat əsərini tələbə, magistrant və doktorantlara tövsiyə etmişlər. Kitabın oxucu marağına səbəb olan bir sıra üstün cəhətlərini nəzərə çatdırmaq istərdim.

Əvvəla, müasir dövrdə cəmiyyət həyatında baş verən köklü dəyişikliklər baxımından ictimai-siyasi münasibətlərin yeni keyfiyyət parametrləri və xüsusiyyətləri qəbul etməsi səbəbindən cəmiyyətin sosial strukturunda orta sinif problemi xüsusi aktuallıq kəsb edir. Müstəqil, suveren Azərbaycan cəmiyyətinin sosial strukturunda baş verən dəyişikliklərin elmi təhlili zərurəti də nəzərə alınarsa, "orta sinif" mövzusunun nə qədər ciddi maraq doğurduğu bir daha aydın olar.

İkincisi, kitab üzərində işləyərkən Rəfiqə Əzimova ciddi elmi axtarışlarla məşğul olmuş, "orta sinif" anlayışının düzgün dərkinə və araşdırılmasına yardımçı ola biləcək klassik və müasir nəzəri qaydalara, mülahizələrə müraciət edir. Platon və Aristotelin, Nəsirəddin Tusinin, Kontun, M.Veberin, K.Marksın, müasir filosof və sosioloqların əsərlərindən ən maraqlı, idraki əhəmiyyəti yüksək olan ideya və mülahizələri seçir və öz əsərində yerli-yerində istifadə edir. Gətirilən iqtibaslar, mülahizə və elmi konsepsiyalar cəmiyyətin sosial strukturu, sosial stratifikasiya və orta



sinif anlayışlarını təfərrüatı ilə düzgün və dolğun başa düşmək işinə lazımi kömək göstərir. K.Marksın və M.Veberin müəllif tərəfindən müqayisəli təhlili olduqca uğurludur. Siniflər haqqında baxışların Sovet və postsovet dönəmləri ilə əlaqədar müqayisəli təhlili ciddi elmi maraq doğurur. Rusiya alimlərinin əsərlərinə istinadları da uğurlu hesab etmək olar. Böyük sosioloq Pitirim Sorokinin elmi irsinə müraciətlər, onun əsərlərindən yerli-yerində istifadə olunması oxucu tərəfindən razılıqla qarşılanır. Əlbəttə, belə təsəvvür də yarana bilər ki, müəllif nəzəri tarixçəni bir qədər uzadır. Bəlkə, müəyyən dərəcədə də belədir. Lakin Rəfiqə Əzimova bu "ilkin nəzəri tarixçəni" əsərin məzmununa və strukturuna o qədər məharətlə, mən deyərdim ki, tarixilik və məntiqilik prinsipinə uyğun olaraq daxil edir ki, etiraza daha yer qalmır.

Üçüncüsü, müəllif "stratifikasiya", orta sinif anlayışları üzərində xüsusi dayanır, bu barədə Qərb nəzəriyyələrini araşdırıb tədqiqata cəlb edir. Daha sonra, kitabda postsovet cəmiyyətində "orta sinif" anlayışı və onun real hüdudları geniş təhlil olunur.

Dördüncüsü, əsərin maraqlı hissəsini müasir Azərbaycanda (Azərbaycan Respublikasında) orta sinfin təşəkkülü, həmçinin deyərdim, təkamülü probleminin şərhi təşkil edir. Monoqrafiyada müasir Azərbaycan cəmiyyətinin sosial strukturunun xarakteristikası verilir. Müəllif tədqiqatın hipotezini açıqlayır. Kitabın dəyərini xeyli artıran cəhətlərdən biri müəllifin respublikamızın kənd və rayonlarında, şəhərlərində, xüsusilə, Bakı şəhərində konkret sosioloji sorğu və onun nəticələrinin ümumiləşdirilməsidir. Sorğuların müqayisəli təhlili diqqəti xüsusi cəlb edir. Kitab həmçinin müasir Azərbaycan gerçəkliyinin sosial strukturunun layiqli fəlsəfi-sosioloji inikasıdır. Nəzərə alsaq ki, cəmiyyətimizin sosial strukturu haqqında çox az yazılıb, orta sinif problemi isə lap yenicə tədqiqata cəlb olunub, Rəfiqə Əzimovanın "Keçid dövrü cəmiyyətinin sosial stratifikasiyasında orta sinif" adlı monoqrafiyasının əhəmiyyəti bir o qədər də aydın olar. Orta sinif haqqında müəllif çox cəsarətlə öz mülahizələrini irəli sürür, oxucunu bir növ, qabaqcadan elmi diskussiyaya cəlb edir. Əlbəttə, mən bir tərcüməçi kimi, kitabda irəli sürülmüş elmi məsələlərin tam

təhlilini vermək fikrində deyiləm. Lakin bunu söyləmək mənəvi borcdur ki, hazırkı monoqrafiya "orta sinif" mövzusunda yazılan ilk sanballı tədqiqat əsəridir. Əsərdə orta sinfin formalaşması, inkişafı və perspektivləri ilə bağlı bir sıra məsələlər tədqiq və təhlil olunur.

Sonda bir mülahizəmizi də söyləməklə fikrimizi tamamlamaq istərdik. Məsələ burasındadır ki, monoqrafiya, əvvəldə söylədiyimiz kimi, 2006-cı ildə çapdan çıxıb. O vaxtdan neçə illər keçib, müasir cəmiyyətimizin varlığında, sosial strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verib, iqtisadi inkişaf sahəsində keçid dövrü, transformasiya başa çatıb. Şübhə etmirik ki, bu barədə müvafiq əsərlər, elmi məqalələr yazılıb, bir sıra nəzəri mülahizələr söylənilib. Arzu edərdik ki, Rəfiqə xanım Əzimova sonrakı illər kontekstində həmin mövzuda tədqiqatını davam etdirsin, bununla əlaqədar rəhbərlik etdiyi bölmənin əməkdaşlarını cəlb etməklə yeni bir tədqiqat əsəri ilə oxucunu sevindirsin.

***Uğurlar arzu edirəm!***

***İzzət Rüstəmov***
*Fəlsəfə üzrə elmlər doktoru, professor*
*17.04.2014*



## Giriş əvəzi: <u>Yeni siyasi-iqtisadi sistemə keçid dövrü şəraitində demokratik proseslər</u>

XX əsrin son on illiyində və XXI əsrin əvvəllərində baş verən sosial proseslərin müşahidə edilməsi güman etməyə əsas verir ki, cəmiyyətimizin transformasiyasının bütöv mənzərəsi və yeni iqtisadi-siyasi sistemə keçid hələ də təşəkkül mərhələsini yaşayır. Keçid dövrünün, demək olar ki, birinci mərhələsini (mürəkkəb və dramatik) yaşamışıq və bu gün Azərbaycanda keçid prosesinin ikinci mərhələsinin daha miqyaslı və daha mürəkkəb vəzifələri ortaya çıxır.

Real nəzərə çarpan iqtisadi artım meylləri müşahidə olunmağa başlamış və bunun da nəticəsi kimi dövlət quruculuğu ilə paralel olaraq vətəndaş cəmiyyəti strukturları da yaranmaqdadır. Dövlət həyatında və ictimai həyatda demokratikləşmə prosesi davam edir. Bu gün islahatların keçirildiyi sahələr cəmiyyətimiz üçün strateji cəhətdən ən yaxın gələcəkdə də əhəmiyyətli olaraq qalmaqdadır. Keçid dövrünün ikinci mərhələsi inkişaf prioritetlərinin həyati cəhətdən mühüm olan dəyişikliyini diktə edir. Burada biz hər şeydən əvvəl gələcək inkişafın hərəkətvericisi, lokomativi olaraq əlaqələndirici həlqənin rolunu nəzərdə tuturuq. Yuxarıda göstərilən sahələrdə islahatlara real zəmin və həyat qabiliyyəti verməyə qadir olan bu halqa şəxsiyyət və yaxud bu gün yeni dünya duyumlu və dünya qavrayışlı "insan kapitalı" kimi başa düşülən "insan amili"dir. İndiki halda sosial həyatda və bilavasitə vətəndaş cəmiyyətində aydın şəkildə ifadə olunan fərdi yaradıcılıq bacarığına malik şəxsiyyət nəzərdə tutulur.

Həyatımızın reallığında təşəkkül tapmış fərdi yaradıcılıq professional səviyyədə, eyni zamanda ictimai həyatda əvvəllər heç zaman indiki qədər aktual olmamışdır. Bu da

təsadüfi deyildir, belə ki, cəmiyyətin həyatında demokratikləşmə prosesləri labüd olaraq dövlət quruculuğu ilə yanaşı vətəndaş strukturlarının və vətəndaş cəmiyyətinin mülki strukturları və sisteminin yaradılmasını, fəaliyyət göstərməsini nəzərdə tutur. Bununla əlaqədar olaraq, ötəri şəkildə olsa da, Qərbdə vətəndaş cəmiyyətinin qaynaqlarını, köklərini və səbəblərini aydınlaşdırmaq istərdik. İctimai münasibətlərin modeli olaraq vətəndaş cəmiyyətinin ənənələrinin xüsusi maraq və fayda prinsipinin rəhbər tutulduğu yeni iqtisadi davranış tipinin formalaşdığı bir şəraitdə meydana gəlməsi xüsusilə nəzərdə tutulmalıdır. Özünütənzimləyən bazar formalaşmışdır ki, burada fərdi yaradıcılıq, fərdi seçim, seçki azadlığı ön plana keçmişdir. Azad iqtisadi və ictimai-siyasi fəaliyyəti həyata keçirmək tələbatı, öz növbəsində, şəxsiyyətin iqtisadi və ictimai-siyasi fəaliyyətini müdafiə etmək naminə fərdi hüquqlar paketini təmin etmək təlabatını irəli sürürdü.

Qərbi Avropada və Amerikada qərarlaşmış bazar iqtisadiyyatı real sosial proseslərin dövlət tənzimlənməsi çərçivəsində vətəndaş cəmiyyətini qanuniləşdirmişdir. Fransız politoloqu Jan-Lui Kartonna hesab edir ki, "vətəndaş cəmiyyəti dövlətin bilavasitə müdaxiləsi və köməyi olmadan mövcud cəmiyyəti təşkil edən kişi və qadınları birləşdirən çoxsaylı şəxsiyyətlərarası münasibətlərdən və sosial qüvvələrdən əmələ gəlir. Başqa sözlə, bu fərdlərin üzvləri arasında mövcud olan və dövlətlə paralel olaraq inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlərə malik olan cəmiyyətdir. Belə cəmiyyətdə assosiasiyalar, kütləvi hərəkatlar, partiyalar, maraqlara uyğun olaraq inkişaf edir. Beləliklə, vətəndaş cəmiyyəti bir sıra problemlərə baxılmasını və onların həllini özünüidarə nümayəndələrinin sərəncamına verir. Vətəndaş və dövlət sferalarında çalışan şəxslərin



vətəndaş və professional keyfiyyətlərinin mübadiləsi baş verir. Buna görə də vətəndaş cəmiyyətinin siyasiliyini və siyasi olanın vətəndaşlığını görmək çətin deyildir. Bununla belə, vətəndaş cəmiyyəti ayrı-ayrı fərdlərin, qrupların özünü reallaşdırması, xüsusi maraq və tələblərin həyata keçirilməsi üçün şərait yaradılmasını təmin etməli olan müstəqil və asılı olmayan ictimai institutların və münasibətlərin sistemidir. Fərd və qruplar mülkiyyət əldə etdikcə, o cümlədən, öz işçi qüvvəsinə, mülkiyyətə (yaradıcılıq və intellektual) sahib olduqca, xüsusi və şəxsi maraqlarını daha dərindən anlamağa başlayırlar. Onlar nəinki iqtisadi, eyni zamanda ictimai-siyasi və hətta mədəni fəaliyyətə şüurlu surətdə girişməyə başlayırlar. Fərdlər yalnız bu yolla vətəndaş cəmiyyətinin subyektlərinə çevrilirlər və burada öz xüsusi maraqlarını güdürlər.

Lakin inkişaf etmiş ölkələrdə demokratiya standartları zəruri davranış qaydaları kimi qəbul olunursa, keçid dövrü cəmiyyətində vətəndaş cəmiyyətinin təşəkkülü bir sıra ziddiyyətli proseslərlə müşayiət olunur. Buna görə də vətəndaş cəmiyyətinin təşəkkülü prosesi ağrılı və ziddiyyətli baş verir. Bu ziddiyyətin mahiyyətini biz hər şeydən əvvəl hazırkı şəraitdə cəmiyyət və şəxsiyyət arasında yaranmış qarşılıqlı iddialarda görürük. Bu ziddiyyətin ağrılığı ondadır ki, şəxsiyyət hələ hazırda irəli sürülən vəzifələri tam şəkildə qavamağa hazır deyildir çünki, o, cəmiyyətin özündən, onun fəaliyyət imkanlarından asılıdır, cəmiyyət isə, öz növbəsində, iqtisadi təməlin köklü surətdə dəyişikliyə uğradığı bir şəraitdə öz üzvlərinin zəruri firavanlığını təmin etmək iqtidarında deyildir. Başqa sözlə, bütövlükdə cəmiyyət və onun ayrı-ayrı fərdləri istər ictimai işlərdə və istərsə də dövlət işlərində demokratik standartları "mənimsəmək" pilləsindədirlər. Burada yeni sosial - siyasi və iqtisadi münasibətlərə uyğunlaşma

vərdişləri, demək olar ki, hələ başlanğıc mərhələsindədir, cəmiyyətin özü isə açıq cəmiyyətin strukturunu, ona məxsus bütün elementləri ilə - bazar iqtisadiyyatı, demokratik respublika və vətəndaş cəmiyyəti - birlikdə yenicə qurulmaqdadır.

C.St.Millin qeyd etdiyi kimi, ictimai fəaliyyətin istənilən sferasında "insanların nəinki nə etdikləri, eyni zamanda onların hansı təbəqəyə mənsub olmaları nəzərə alınmalıdır. Bu mənada ictimai fəaliyyətə məsuliyyətlə yanaşan fərdlərin rolu olduqca böyükdür. Əhalinin vətəndaş və siyasi mədəniyyətinin müəyyən səviyyəsi tələb olunur, çünki bunsuz vətəndaş cəmiyyətinin dəyərlərini qəbul etmək və bu dəyərləri ictimai həyat praktikasına daxil etmək zərurətini başa düşmək mümkün deyildir. Məhz keçid mərhələsində istər hakimiyyət "mərtəbələri"ndə və istərsə də vətəndaş strukturlarında azad fəaliyyət subyektlərinin çatışmaması vəziyyəti ağırlaşdırır, yəni bir tərəfdən, dövlət sınaq və səhvlər metodu ilə yeni siyasi-iqtisadi sistemi qaydaya salır, digər tərəfdən isə, şəxsiyyət varlığında mövcud olan qeyri - müəyyənlik və tənhalıq hissi insanda hakim dairələrə qarşı aqressivlik hissi doğurar.

Son vaxtlarda ziddiyyətli, gərgin, bəzən isə faciələrlə dolu və bütün postsovet məkanında mövcud olan situasiya istər Avropa və istərsə də amerikan sosioloqlarının diqqətli baxışlarından yayınmır. Xüsusilə, amerikan sosioloqu İmmanuel Vallerstayn özünün "Tanış dünyanın sonu. XXI əsrin sosiologiyası" monoqrafiyasında heç də əsassız olmayaraq, inkişaf etməkdə olan ölkələrdə, həmçinin keçid dövrü ölkələrində demokratikləşmənin spesifikası ilə bağlı olan situasiyanın ekstremal olduğunu nəzərə çatdırır. İ.Vallerstayn yazır: "Demokratikləşmə böyük nizamsızlığı azaltmır, əksinə, onu yalnız gücləndirir. Bu, ona görə baş verir ki, insanların əksəriyyəti tərəfindən demokratiya hər şeydən əvvəl, üç əsas



nemətin: münasib gəlirin (iş, sonra isə pensiyanın), təhsil ala bilmənin və adekvat tibbi xidmətin alınması üçün bərabər hüquqların tələb olunması kimi başa düşülür. Demokratikləşmə genişləndikcə insanlar eyni zamanda bu nemətləri əldə etməklə yanaşı, həmçinin mümkün olan qədər öz səviyyələrinin müntəzəm surətdə yüksəldilməsi üzərində işləməlidirlər. Lakin onların bu cür tələblərə cavab verəcək şəkildə təmin edilməsi hətta Rusiya, Çin, Hindistan kimi ölkələr üçün də son dərəcə məsrəflidir: hər bir kəsin bu nemətlərdən daha çox bəhrələnməsinin yeganə yolu dünya resursları bölgüsünün bu gün biz sahib olduğumuzdan daha radikal şəkildə fərqlənən yeni sisteminin yaradılmasındadır.[1]

Şəxsiyyətin bazar iqtisadiyyatı və demokratik quruluş standartlarını mənimsəməsi yollarında meydana gələn ekstremal situasiyalar gözlənilməz və eynimənalı olmayan xarakter daşıyır. Buradan da belə bir nəticə irəli gəlir ki, konkret olaraq Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü spesifik səciyyə daşıyır və insan amili, şəxsiyyətin daxili potensialı və yaxud sosial fəallıq, yetkinlik və məsuliyyət nümayiş etdirməyin lazım olduğu situasiyalarda bu potensialın kifayət qədər olmaması ilə müşayiət olunur.

Vətəndaş birliyi demokratik cəmiyyət institutu kimi yalnız ictimai həyatın artıq baş vermiş demokratikləşməsi halında səmərəli fəaliyyət göstərib, müsbət nəticələr (lobbiçilik və hakimiyyət strukturlarının bütün səviyyələrində hüquq və imkanların müdafiə edilməsi) verə bilər. Baş tutmuş demokratiya – elə bir situasiyadır ki, həmin halda insan hüquqları və onlardan maksimum səviyyədə istifadə edilməsi müasir cəmiyyətin fəaliyyət göstərməsinin zəruri şərtidir, digər tərəfdən isə, bu demokratiya belə bir anlamdan ibarətdir

[1] Валлерстайн И. Конец знакомого мира. Социология XXI века. М., 2003, с. 28.

ki, insan hüquqlarının təməlində insanın cəmiyyət qarşısında məsuliyyəti durur.[2] Yalnız bu halda vətəndaş cəmiyyəti ictimai strukturlar vasitəsilə şəxsiyyət, qrup və hakimiyyət arasında qarşılıqlı münasibətləri tənzimləyən əlaqələndirici halqa, spesifik mexanizm kimi də çıxış edir.

Sual meydana gəlir ki, bu qarşılıqlı əlaqə mexanizmi hansı yollarla həyata keçirilə bilər? Bizim ölkəmizdəki sosial və siyasi proseslər üzərində aparılan müşahidələr göstərir ki, belə bir əlaqələndirici mexanizm yerli özünüidarə səviyyəsində formalaşa bilər və "formalaşmalıdır". Vətəndaş cəmiyyəti və onun təşəkkül tapması yerlərdə demokratik prinsiplərin və demokratik münasibətlərin bərqərar olması ilə sıx surətdə bağlıdır. Aşağıdan demokratiya - vətəndaş strukturlarında özünün aktivliyinin bütün səviyyələrində fərdi yaradıcılığın formalaşmasının əsasıdır.

Vətəndaş cəmiyyəti quruculuğunda yeni demokratik münasibətlərin tətbiq edilməsində müvəffəqiyyət bu mürəkkəb və məsuliyyətli işdə iştirak edənlərin yetkinlik səviyyəsindən asılıdır. Bu halda vətəndaş fəaliyyəti subyektinin sosial və siyasi yetkinliyinin keyfiyyətləri; vətəndaş fəaliyyəti subyektinin şəxsiyyət keyfiyyətləri; onun liderlik qabiliyyətləri; tolerantlıq qabiliyyətləri nəzərdə tutulur. Vətəndaş strukturlarında çalışan fərdlər cəmiyyətə ölkədə sabitləşməyə və dövlət strukturları ilə vətəndaş strukturları arasında qarşılıqlı anlaşmanın yaradılmasına yönəldilmiş sülhməramlı ideyalar gətirməlidir. Deməli, konstruktivizm - lokal (yerli) və qlobal səviyyədə vətəndaş strukturunun iş keyfiyyətini və iş üslubunu müəyyən edən yanaşmadır.

[2] Азимова Рафига. Личность в процессе демократизации общества. Баку: Элм, 2001, с.9; См.также: Аббасов Абульгасан. Демократия: наличная и должная. Баку: Адильоглы, 2005; Мамедзаде Ильгам. Гражданское общество и национальная идеология. Баку: Мцяллим, 1995.



Yuxarıda göstərilən bütün bu keyfiyyətlər o zaman təzahür edə bilər ki, vətəndaş fəaliyyətinə qoşulmuş fərd azad şəxsiyyət, daha dəqiq deyilsə, azad fəaliyyət subyekti olmuş olsun.

Keçid dövrü cəmiyyətində azad fəaliyyət subyekti çox vaxt təşəkkül tapmış real situasiyaya qarşı özünü müxalif kimi göstərəcəkdir, lakin müxaliflik yalnız bu halda bəraətləndirilə bilər ki, müxalif şəxs konstruktiv - əməli mülahizələrdən və düzgün təşkil olunmuş taktiki fəaliyyətdən çıxış etmiş olsun. Düzgün qurulmuş taktiki fəaliyyət isə bütün hallarda özünü hakimiyyət orqanlarına sivilizasiyalı qaydada təsir etməyə qadir olan və məqsədyönlü şəkildə yaradılmış qruplar vasitəsilə ifadə edə bilər. Bu qrupların konkret olaraq təsnifatını verib, ümumiləşdirmək olar: həmkarlar təşkilatı, sahibkarlar və işverənlər ittifaqları, fermer ittifaqları, ekoloji və qadın təşkilatları, professional ittifaqlar (hüquqşünaslar, həkimlər, politoloqlar, arxitektorlar, müəllimlər ittifaqları); tədqiqat mərkəzləri, fondları, dini, ideoloji təşkilatlar; etnik təzyiq qrupları; əkinçilik təşkilatları.

## I Fəsil: Keçid dövrü (mərhələsi) cəmiyyətində sinfi stratifikasiya strukturunun dinamikası

### 1.1. Keçid dövrünün ilkin tarixi

Yeni iqtisadi sistemə keçidin tarixi mərhələsində sosial mobilliyin spesifik xüsusiyyətlərinin nəzərdən keçirilməsi, bizim fikrimizcə, sosialist münasibətləri sisteminə müəyyən tarixi ekskurs etməyi nəzərdə tutur. Bu, onunla izah olunur ki, kollektiv və dövlət mülkiyyətindən bazar münasibətlərinə keçilməsi iqtisadi, sosial-siyasi kənaraçıxmaların bütöv bir "toru"nu yaradır və son nəticədə, cəmiyyətin sosial siniflərinin inkişaf dinamikasında və strukturunda ciddi transformasiyaya gətirib çıxarır. Düşünürük ki, cəmiyyətin yeni sinfi strafikasiya strukturunun hərəkəti və formalaşmasının bu özünəməxsusluğunu izləmək yalnız sovet sosial-iqtisadi sisteminin təbiətinin bazar iqtisadi sistemini meydana çıxaran və labüd edən vəzifələrlə müqayisəli təhlilini vermək ("nə mövcud idi və nə mövcud olmalıdır") fonunda mümkündür.

Keçid dövrünün ilkin tarixi kimi sosialist münasibətlərinin və sosialist istehsalının təhlili belə deməyə əsas verir ki, həmin münasibətlərin inkişaf özünəməxsusluğu gec və ya tez köklü dəyişikliklərə və xüsusilə, yeni iqtisadi sistemə gətirməli idi. Məlumdur ki, sosial institutların bütün üstqurum sistemi sosialist iqtisadiyyatının törəməsi olaraq yaradılmışdır.

Biz həmçinin bilirik ki, sosialist cəmiyyətinin sosial strukturunun bütün təbəqələrinin sosial müdafiəsinin əxlaqi-mənəvi əsaslarının proletar əxlaqından əmək əxlaqına qədər konkret inkişaf mərhələləri olmuşdur. Məlumdur ki, proletar əxlaqı fərdiçiliyin və pərakəndəliyin əksinə olaraq sosialist kollektivizm ideyasından törəmişdir. Bu gün həmin sistemi, bir növ, kənardan öyrənərkən cəmiyyətin əxlaqi enerjisinə



fəal şəkildə təsir göstərən ideolojiləşdirmə və siyasi mifologiya yaradıcılığı prosesi gözümüz qarşısında daha aydın şəkildə canlanır. "Miflər" bizim humanitar təhsilimizdə, təfəkkürümüzdə, ətraf aləmin dərk edilməsində və mənlik şüurumuzda real şəkildə "fəaliyyətdə olmuşdur". Əgər Sovet dövləti öz mövcudluğunun birinci on ilində maarifdə (savadsızlığın ləğvində), iqtisadi, sosial-siyasi və ictimai həyatda misilsiz uğurlar qazanmışdırsa, bunda mif yaradıcılığı siyasətinin xidməti az olmamışdır. Daha kamil cəmiyyətin yaradılmasına dərin inam bəslənilməsi gənc Sovet respublikasına feodal təsərrüfat tərzindən sənayecə inkişaf etmiş ölkəyə sıçrayışla keçməsinə imkan vermişdir. Bir çox beynəlxalq politoloqlar beynəlxalq blokada fonunda bunu "sovet möcüzəsi" kimi qəbul etmişdilər. İki on il ərzində sovet iqtisadiyyatında Qərb ölkələrinin çoxunu təəccübə gətirmiş sıçrayış həyata keçirilmişdi. Bütün bunların arxasında xeyli dərəcədə sosialist əxlaqının qurbanvermə və asketik istiqaməti durmuşdur. İqtisadiyyatda baş vermiş keyfiyyət *sıçrayışı qısa tarixi bir* müddətdə texniki cəhətdən təchiz olunmuş və yaxşı silahlandırılmış ordu yaratmağa imkan vermişdir ki, bu da İkinci Dünya müharibəsindən qalib çıxmağa səbəb olmuşdur. Bu müharibədə inam da qiymətli rol oynamışdır. Lakin real həyatın mifoloji dərkinin gücü özündə gizli təzyiq elementlərini də daşımışdır. Şəxsiyyətə pərəstiş də özünün ən ifrat təzahürləri ilə labüd surətdə sosial rol oynamışdır. Hər şeyi təkcə bir, hər şeyi əhatə edən şəxsiyyət üzərində "qurmaq" göstərişi yerli səviyyəli rəhbərlərin siyasi və iqtisadi fəaliyyətində çoxlu sayda təhrif olunmuş modifikasiyalar yaratmışdır.

Artıq XX əsrin 70-ci illərdə sosializmin iqtisadi sisteminin çatışmazlıqları özünü getdikcə daha tez-tez büruzə verməyə başlamışdı. Bu da öz növbəsində istehsalçının əmək

haqqı sistemində öz təzahürünü tapmışdı. Istehsalçının əməyinin dəyərinin qiymətləndirilməsi iqtisadi həyatda böyük rol oynamamışdır. Əmək stimullarının qiymətdən düşməsi baş vermişdi. Şəxsi maraq və bununla bağlı olan məsuliyyət hissi müəyyən ekstremal (gözlənilməz) hadisələr istisna təşkil etməklə nəzərə alınmırdı. Bu keyfiyyətlərin (şəxsi marağın, məsuliyyətin) çatışmaması cəmiyyətin iqtisadi həyatında partlayış vəziyyəti hazırlayırdı. Istehsalçının həyatına lazımi qiymət verilməməsi gələcəkdə sosialist əmək formasının əxlaqi cəhətdən qiymətdən düşməsinə səbəb olmuşdur. Sosialist sisteminin əxlaqi əsaslarında öz əksini tapmış sosial faktlar bu sistemin sosial reallıqlarından getdikcə uzaqlaşmaqda idi. Beləliklə, bütün üstqurum strukturlarının həddindən artıq ideojiləşdirilməsi sovet adamının mahiyyətinin və varlığının sinfi prizmada başa düşülməsini ifrat doqmatizmə gətirib çıxarmışdır. Başqa sözlə, sovet sosializminin iqtisadiyyatının özünə mənfi təsir göstərməsi nəticəsində "peşə məsuliyyəti", "əxlaqi borc", "xeyir və şər" normaları barədə ikili standartların formalaşması fəallaşdı.

Bununla belə insanların və cəmiyyətin hər bir üzvünün sosial müdafiəsi mexanizmi fəaliyyət göstərməkdə davam edirdi. Sosial müdafiə qanununun mənası nədən ibarətdir? Sovet dövləti əmək, təhsil hüququnu, uşaq sağlamlığının və uşaq təhsilinin müdafiəsi hüququnu müdafiə edir və ona zəmanət verirdi. Cəmiyyət üzvlərinin müdafiəsi sahəsində keçmiş təcrübə (əmək, təhsil hüququ, siyasi həyatda bərabər hüquqlar) bu sahədə nəzərə çarpacaq hüquqları əks etdirirdi. Sosializm sisteminin ən ifrat opponentləri də bunu inkar etməmişlər və indi də etmirlər. Təhsil, səhiyyə və mənzil sahəsində sosial müdafiə sovet adamı tərəfindən olması təbii sosial borc kimi başa düşülürdü. Bununla belə, gündəlik praktik həyatda elə bir vəziyyət yaranırdı ki, burada sosial



müdafiə məsələləri ilə məşğul olanların hesabatlılığı və məsuliyyəti mexanizmi tədricən heçə endirilirdi. Əks əlaqə mexanizmi yaddan çıxmışdı. Insan özü də bunu sezmədən ələbaxımlıq psixologiyasına mübtəla olmuşdu. Şəxsi səy göstərmədən, öz şəxsi statusunu aktivləşdirmək və yüksəltmək arzusunda olmadan cəmiyyətdən tələb olunan nemətləri əldə etmək vərdişləri yaranırdı. İkili standartlar meydana gəlirdi: bir tərəfdən, fərdin sosial dəyərləndirilməsini yaratmaq, digər tərəfdən, sosial müdafiə qanunlarından istifadə edərək tüfeyli həyat tərzi yaşamaqla, mahiyyəti etibarı ilə, ələbaxanlıq vərdişi yaradırdı. Çox hallarda hüquqa zidd davranışlara və cinayətlərə gətirib çıxaran məsuliyyətsizlik, konformizm, gizli ədəbsizlik. İdarəetmə sferalarında üfüqi xətt üzrə qarşılqlı əlaqə olduqca formallaşdırılmışdı.

## 1.2. Bazar iqtisadiyyatına keçid dövrünün reallıqları və sovet tipli sinfi sistemin sinifsizləşməsinin başlanğıcı

"Bəşər cəmiyyətinin tarixi" bütün dövrlərdə tarixi çərçivədən və zaman hüdudlarından, həmçinin siyasi və iqtisadi sistemlərdən və strukturlardan asılı olmayaraq keçid mərhələləri ilə müşayiət olunmuşdur. Bu cür mərhələlər özündə müəyyən sosioloji və əxlaqi-psixoloji çatışmazlıqları da daşıyırdı. Hər bir cəmiyyət üçün keçid mərhələsi, hər şeydən əvvəl, bir sivilizasiya - mədəniyyət səviyyəsindən keyfiyyətcə digər bir səviyyəyə keçiddən ibarət tarixi zaman kimi özünü göstərir.

Bütün zamanlarda cəmiyyət üçün fundamental əhəmiyyət kəsb edən keçidlər bu və ya digər şəkildə cəmiyyətin iqtisadi və mənəvi irəliləyişlərini əks etdirmişlər, elə irəliləyişləri ki, onların baş verdiyi şəraitdə kəmiyyət və keyfiyyət, maddi və mənəvi "ehtiyatlar" cəmiyyəti təmin etməmiş və həmin cəmiyyət müxtəlif yollarla, inqilabi və yaxud şüurlu olaraq

istiqamətləndirilən təkamül üsulu ilə ictimai və siyasi həyatda keyfiyyətcə yeni əsasların (iqtisadi, siyasi və sosial əsasların) yaradılmasına keçidi həyata keçirmişdir. Bu tarixi zaman kəsiklərinin vəzifəsi keyfiyyətcə yeni cəmiyyət sisteminin "bütün atributlarını" hazırlamaqdan ibarət idi. İctimai inkişaf tarixi göstərdi ki, primitiv - ictimai quruluşdan başlayaraq müasir cəmiyyətlərə qədər bəşəriyyət yeni inkişaf hüdudlarına çıxmaqla bağlı olan sosial fəlakətlər yaşamışdır. Keçid proseslərinin daha ziddiyyətli və faciəli tərəfləri öncə cəmiyyətin iqtisadi strukturunda (yuxarıdan aşağıya doğru) baş verən köklü dəyişikliklərdə özünü göstərir. Çaşqınlıq vəziyyəti axtarış təşəbbüsünü iflic edir, şəxsi perspektivə marağı söndürür.

Sosial zədə şəxsi rahatsızlıq yaradaraq bu sahmansızlıq vəziyyətini həyat tərzinə çevirir. L.M.Batkin Avropada gec orta əsrlərdən erkən kapitalizmə keçid dövrünü ayrıca bir şəxsin şüurunun anatomiyasını təhlil edərək, yazır: "Mənlik şüuru əvvəllər korporativ və silki statusla, ümumi dini məsuliyyətlə və keçici mövcudluğun bəraətləndirilməsi ilə bağlı olan fərd birdən-birə özünü onunla vəhdət təşkil etməyən düşmən sosial kosmosun dairəsində hiss etdi".[3]

Qərbdə və Amerikada kapitalist sistemi, özlüyündə, erkən kapitalizmdən yetkin və sonrakı kapitalizmə ən azı üç keçid yaşamışdır. Və hər bir keçid kapitalist sisteminin daxilində təkmilləşmə və daha rasional idarəetmə vasitələrinə keçid məcburiyyəti yaratmış iri sosial-iqtisadi böhranlardan xəbər verirdi.

Postsovet cəmiyyətində yeni siyasi-iqtisadi sistemə keçid keçmişdə Qərb ölkələrinin yaşamış olduqları keçid mərhələlərinin bir çox səciyyəvi cəhətlərini özündə daşıyır. Keçmiş

[3] Баткин Л.М. На пути к понятию личности. См.сб.: Культура возрождения и общество. М., 1986, с.86.



sovet cəmiyyətinin ayrılmaz hissəsi olmuş Azərbaycanın nümunəsində demək olar ki, son on ildə elə bir sosial vəziyyət yaranmışdır ki, köhnə iqtisadiyyat heçə enmiş, bazar iqtisadiyyatı isə özünün təşəkkül mərhələsini yaşayır. Obyektiv olaraq keçid dövrünün gətirmiş olduğu sosial xaos elə bir idarəolunmaz həyat ritmi yaradır ki, bu halda aktiv sosial fəaliyyətdən uzaqlaşma yüksələn xəttlə hərəkət edir.

Şəxsiyyətin, qrupun və sinfin həyatında onların sosial statusunun ciddi surətdə aşılanması baş verir. Keçid mərhələsi insanı Konstitusiya ilə nəzərdə tutulmuş və yaxın keçmişdə istifadə etmiş olduğu sosial hüquqlardan (əmək hüququ və digər güzəştlər hüququ) uzaqlaşdırır. Şəxsiyyətin motivlərində və davranış səylərində antihüquqi və asosial səylərdən tutmuş yaradıcılıq axtarışlarına qədər müxtəlif meyllər müşahidə olunur, çünki seçim imkanı və məkan genişlənmişdir. Lakin azad seçim amili keçid dövründə bazar sisteminin həlledici atributlarından biri olaraq daha çox asosial və hüquqazidd davranışları qızışdırmaq kimi gizli gücə də malikdir. Obyektiv olaraq təşəkkül tapmış tarixi situasiya (yaranmış normalar və ənənələr məhv edilmiş, yeni iqtisadi və siyasi norma və prinsiplər isə zərurət kimi təqdim olunur) "çaşqınlıq şüuru"nu formalaşdırır ki, o da (müvəqqəti çərçivələr üzrə) yeni tarixi situasiyanı başa düşmək və qəbul etməkdə çətinliklər yaradır. Sosiologiya elminin banisi, fransız mütəfəkkiri O.Kont keçid dövrünün ziddiyyətlərini və dramatizmini nəzərdən keçirərək bu tarixi anın sosioloji qanunauyğunluğunu müəyyən etmişdir. O, yazırdı: "Keçid dövrü cəmiyyətində yenidənqurma üçün nəzərdə tutlmuş islahat proseslərinin həyata keçirilməsi labüddür".[4] Başqa sözlə, zəruri olan və arzu olunan haqqında yeni ideyadan yeni

[4] Конт О. Дух позитивной философии. Санкт-Петербург, 1910., с.43.

normalar və qaydalarının institusional şəkildə reallaşmasına doğru gedən yol zaman çərçivəsi etibarı ilə kifayət qədər *müəyyənləşdirilməmişdir. Belə bir situasiyada* ümumi inkişaf və yeniləşmə prosesində ölçü vahidləri kimi ictimai və dövlət sferalarının spektrləri özünün adaptasiya potensialı etibarı ilə eynimənalı deyildir. İqtisadi və siyasi-hüquqi münasibətlərin yeni sisteminin diktə etdiyi norma və qaydalar yeni reallığın dərk edilməsi üçün kifayətli edir. Anlama çox vaxt saxta anlayışla əvəz olunur ki, bu da zəif fərdi fəaliyyətə gətirib çıxarır. Hələ erkən kapitalizm dövründə F.Engels dərindən yoxlanılmış belə bir sosioloji nəticəyə gəlmişdi. Müasir siyasi iqtisadın qanunlarından biri bundan ibarətdir ki, yetkin kapitalizmə məxsusluq nə qədər çox olarsa, kapitalizmin erkən *mərhələlərini səciyyələndirən kiçik* fırıldaqçılıq və kələkbazlıq metodlarına o qədər az əl atılar. O, Hamburqa və ya Berlinə düşən kimi, ona öz vətənində yaxşıca xidmət göstərən və orada geniş təcrübədən keçən xırda hiyləgərliklərin köhnəlmiş və yersiz olduğu aşkara çıxır... Eləcə bu qaydada Berlin və ya Hamburqdan olan hər hansı bir komisyonçu, yəhudi və ya xaçpərəst (xristian) bir neçə aylığına Mançester birjasına düşdükdə aşkara çıxarır ki, pambıq parça ipliyini və ya parçasını ucuz qiymətə satın almaq üçün o öz ölkəsində böyük müdriklik hesab olunan olduqca miskin bicliklərdən və kələklərdən imtina etməlidir. Bu fırıldaqlar artıq iri bazarda özünü doğrultmur, çünki bu bazarda vaxt pul hesab olunur və harada kı, kommersiya səmimiliyinin məlum səviyyəsi yalnız vaxtı və əməyi qorumaq üçün labüddür".[5]

Cəmiyyət üçün keçid dövrü ictimai və dövlət həyatının aparıcı sferalarında qərarlaşmış ənənələrin, qanunauyğunluqların və vərdişlərin "parçalanması"dır. Bu zaman intensiv

[5] Маркс К., Энгельс Ф. Соч., т 22, с.272-273.



olaraq yeni dövlət quruluşunun elementləri yaranır, əxlaqi və dini təsəvvürlərin, əxlaqi norma və adətlərin yenidən nəzərdən keçirilməsi, yenidən mənalandırılması prosesləri fəallaşır. Şəxsiyyətin, qrupun, təbəqənin və sinfin sosial statusu müəyyən dərəcədə qiymətdən düşür və oriyentasiyasının yenidən dəyişməsinə məruz qalır. Keçid dövrü sosioloji fenomen – cəmiyyət tərəfindən yaşanan elə bir tarixi mərhələdir ki, bu zaman ictimai və fərdi şüurun dünyaqavranışının və dünyagörüşünün çökməsi getdikcə güclənir və onların qarşılıqlı münasibətləri praktikası tamamilə dəyişir. Şəxsiyyətin dünya anlamının (mikro və makro mühitin) yeniləşməsi, bütövlükdə, cəmiyyətin keyfiyyətcə yeniləşməsinin taleyüklü şərtinə çevrilir.

XX əsrin sonuncu on illərində və XXI əsrin əvvəllərində Azərbaycanda baş vermiş sosial proseslərin müşahidə edilməsi göstərir ki, cəmiyyətin transformasiyası – yeni iqtisadi-siyasi sistemə keçilməsi hələ ki, təşəkkül mərhələsindədir. Burada da aparılmış təhlillər və verilmiş proqnozlar ümumiyyətlə o qədər də ciddi sayıla bilməz. Bizim reallığımıza uyğun proqnozları isə iqtisadiyyat, siyasət və sosiologiyadakı ekspertlər yalnız nisbi dəqiqliklə söyləyə bilərlər. Həm də ki, ayrıca götürülmüş hər bir sosial sferada problemlərin həlli vaxtı və vasitələri, şübhəsiz ki, sosial obyektin spesifikası ilə müəyyən olunacaqdır.

Bugün belə obyektlərə, ilk növbədə, aşağıdakıları aid edirlər:

1. Çoxukladlı iqtisadiyyat və onun reallaşdırılması yolları (əməyin sosiologiyasında orta sinfin rolu);
2. Dövlət quruculuğu və vətəndaş cəmiyyəti atributlarının formalaşması (siyasi şüur və siyasi fəaliyyət);

3. İctimai həyatın demokratikləşməsi və azad şəxsiyyətin formalaşması (təhsil sosiologiyası, səhiyyənin sosiologiyası);

Beləliklə, müasir mərhələdə baş verən proseslərə çoxsıralı vəzifələr dairəsidaxildir. Bütün bu vəzifələr bir-biri ilə qarşılıqlı surətdə bağlıdır. Lakin yuxarıda göstərilən sahələrdə islahatlar üçün real zəmin yaratmağa və onlara həyati güc verməyə qadir olan əlaqələndirici vasitə şəxsiyyətdir və ya yeni dünya duyumunun və dünyaqavrayışının daşıyıcısı olan azad fəaliyyət subyektinin bugün "insan kapitalı" kimi başa düşülən "insan amilidir".

Fikrimizcə, məsələnin bu cür qoyuluşu, öz novbəsində, son dərəcədə aktual olan sosial-psixoloji və fəlsəfi planda bir sıra problemləri irəli sürür. Başqa sözlə, cəmiyyət şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı əxlaqi-hüquqi əlaqə mexanizmini yaratmaq sahəsində çoxsəviyyəli vəzifələri həll etməzsə, irəliyə doğru o qədər də uğurla hərəkət edə bilməz. Bu mürəkkəb tarixi situasiyada anlamaq və hiss etmək lazımdır ki, bilavasitə nə insanın özündən, nə də ki, cəmiyyətdən asılıdır. Düşünürük ki, şəxsiyyət və cəmiyyət arasında qarşılıqlı sosial şərtlənmənin və qarşılıqlı məsuliyyətin yalnız bu cür səviyyəsində bütün cəmiyyət üçün insan resurslarının ən az itkisi ilə keçid "mərhələ"sini yaşamaq mümkündür.

Keçid dövrünü olduqca spesifik sosioloji fenomen kimi nəzərdən keçirməklə belə xülasə etmək olar ki, keçid dövrü bilavasitə və birinci növbədə iqtisadi və siyasi sistemlə bağlıdır. Burada meydana çıxan problemlər bütün digər həyat sferalarına dalğalarla yayılır. İstehsal üzərində kollektiv mülkiyyət sistemi dağılmışdır, bununla da sinfi münasibətlərin "bərabərlik" və "bərabərsizlik", yəni cəmiyyətin stratifikasyon strukturu haqqında buradan irəli gələn təsəvvürlərin qərarlaşmış strukturunu heçə endirmişdir.



# II Fəsil. Klassik və müasir nəzəriyyələrdə "stratifikasiya" və "orta sinif" anlayışları

## 2.1. Antik və Şərq fəlsəfəsində bərabərsizlik məsələləri

Bəşər cəmiyyətində sosial bərabərsizlik və sosial təbəqələr haqqında ideyalar artıq antik mütəfəkkirlərin əsərlərində və xüsusilə də Platonda öz əksini tapmışdır. Platonun "Dövlət" əsərində cəmiyyətin strukturunun kifayət qədər dəqiq anlayışı verilmişdir. İdeal dövlət modelini qurarkən Platon cəmiyyət üzvlərinin bərabərsizliyi və qütbləşməsi problemini mürəkkəb problemlərdən biri hesab etmişdir. Sərvət və yoxsulluq "dövlətə nə qədər nəzərə çarpmadan daxil olmuş olsa da", daha çox ondan çəkinmək lazımdır... Sərvət və yoxsulluq. Birisi cah-calala, tənbəlliyə, yeniliklərə gətirir, digəri isə, yeniliklərdən başqa alçaqlığa və cinayətlərə, yaramazlıqlara gətirib çıxarır. Orada, onlarda nə qədər də olsa, bir-birinə düşmən olan iki dövlət – biri yoxsulların dövləti, o birisi varlıların dövləti yer tutmuş olsa da, onların hər birində hər halda çoxlu sayda dövlət mövcud olur...".[6] Daha sonra Platon sanki ədalətsizlik səltənətindən çıxış yollarını göstərərək, sosial stratifikasiya sferasında idarəetmənin real "alətlərini" təklif edir. Platon yazır: "Bizim dövlətimiz inkişaf etdikcə və rifaha çatdıqca hamıya təbii qabiliyyətlərinə uyğun olaraq ümumi inkişafda, rifahda öz payını əldə etmək imkanı vermək lazımdır".[7]

Aristotel "Siyasət" əsərində dövlət quruluşunun tipləri və formalarını kifayət qədər dəqiq şəkildə (demokratiya, oliqarxiya, tiraniya) tədqiq edərkən belə bir sualla qarşılaşır: "Dövlət quruluşunun hansı növü ən yaxşıdır? Dövlətin böyük

---

[6] Платон. Государство. М., 1998. Собр.соч., т. 3, с. 171.
[7] Yenə orada, s. 169.

hissəsi üçün və insanların əksəriyyəti üçün adi insanın fəzilətlərini ötüb keçən fəzilətdən (səxavətdən) asılı olmadan, təbii istedadın və şəraitin xoşbəxt dövranının tələb olunduğu tərbiyədən asılı olmadan, ən arzu olunan quruluşdan asılı olmadan, lakin yalnız əksəriyyətin müyəssər ola biləcəyi yaşayış şəraitinə dövlətin böyük hissəsi üçün münasib ola biləcək dövlət quruluşuna tətbiqən həyat ən yaxşı şəkildə necə təşkil oluna bilər?..."

Öz fikrini davam etdirərək Aristotel yazırdı: "Hər bir dövlətdə üç hissə mövcuddur: ən varlılar, son dərəcə yoxsullar və üçüncüsü, onların hər ikisinin ortasında olanlar. Bir halda ki, hamının qəbul etdiyi fikrə görə mötədillik və orta ən yaxşıdır, onda görünür ki, orta firavanlıq bütün nemətlərdən ən yaxşısıdır. Bu orta bolluq mövcud olduqda zəkanın dəlillərinə tabe olmaq ən asanı deyilmi? Əksinə, həddindən artıq gözəl, həddindən artıq güclü, həddindən artıq məşhur, tanınmış insana həddindən artıq yoxsul, həddindən artıq zəif, özünün ictimai vəziyyətinə görə həddindən artıq alçaldılmış insana bu dəlillərə əməl etmək çətindir. Birinci tipdən olan insanlar, başlıca olaraq, vicdansızlara və böyük yaramazlara çevrilirlər. Ikinci tip insanlar çox vaxt canilərə və xırda yaramazlara çevrilirlər. Cinayətlərdən bir qismi həyasızlığa görə, digərləri isə əclaflıq nəticəsində baş verir. Üstəlik də hər iki tip insanlar hakimiyyətdən yayınmırlar, lakin həvəslə ona səy göstərirlər, axı bunların hər ikisi dövlətə ziyan gətirir. Daha sonra, birinci tip insanlar daha artıq əminamanlığa, gücə, sərvətə, dostluq əlaqələrinə və buna oxşar şeylərə malik olduqlarından tabe olmağı arzu etmir və ümumiyyətlə tabe olmağı bacarmırlar. Bu isə artıq evdə, uşaq yaşlarından müşahidə olunur: dəbdəbə içərisində yaşayan ərköyünlər hətta məktəbdə də tabe olmaq vərdişi nümayiş etdirə bilmirlər. İkinci tip insanların davranışı son



həddə təmin olunmadıqları səbəbindən fövqəladə dərəcədə alçaldılmış vəziyyətdədir"...

Daha sonra Aristotel belə bir nəticəyə gəlir ki, "... orta səviyyəli insanlardan ibarət olan dövlət ən yaxşı dövlət quruluşuna malik olacaqdır. Ən yaxşı dövlət vədi odur ki, o, ortababların vasitəsilə yerinə yetirilir və o dövlətlər yaxşı quruluşa malikdirlər ki, orada ortababalar böyük miqdarda təmsil olunurlar, harada ki, onlar ən yaxşı halda hər iki ifratçılıqdan güclüdürlər. Dövlət üçün ən böyük əminamanlıq odurmu ki, onun vətəndaşları orta səviyyədə, lakin kifayət qədər mülkiyyətə malik olsunlar? Bəzilərinin həddindən artıq çox şeyə malik olduqları, başqalarının heç nəyə sahib olmadıqları hallarda ya ifrat demokratiya, ya da sırf oliqarxiya meydana gəlir".[8]

Sosioloji problemlərlə və xüsusilə də, cəmiyyətdəki bərabərsizlik və ədalətsizlik problemləri ilə bağlı olan düşüncələr (fikirlər) bir çox peripatetik filosofların əsərlərində özünün geniş əksini tapmışdır. Məsələn, Siracəddin Urməvi (1188-1283) belə hesab edirdi ki, cəmiyyətin təbəqələri arasındakı asılılığı insan orqanizminin hissələrinin bir-birindən asılılığı ilə müqayisə etmək olar. S.Urməvi həmçinin belə hesab edirdi ki, cəmiyyətin yuxarıda duran və aşağıda yerləşən təbəqələri də elə insan orqanizmi kimi vahid bir tamın hissələrini təşkil edir.[9]

N.Tusidə (1201-1274) biz cəmiyyətin strukturunun daha dəqiq xarakteristikasına rast gəlirik. Bütün cəmiyyəti o, dörd kateqoriyaya (təbəqəyə) bölür. Birinci kateqoriya qələm sahibləridir (ziyalılardır); ikinci kateqoriya hərbiçilərdən və ya ordudan ibarətdir; üçüncü kateqoriyanı tacirlər və sənətkarlar, dördüncü kateqoriyanı əkinçilər və maldarlar təşkil

[8] Аристотель. Политика. М., 2002, с. 153.
[9] Мамедов З. Сираджатин Урмави. Баку: Элм, 1990.

edirlər. Sadalanan bu kateqoriyalardan hər biri cəmiyyətdə öz sığınacağına malikdir.[10] Faktiki olaraq N.Tusi öz cəmiyyətinin sosial strukturunu dəqiq "təsvir edir", həmçinin öz cəmiyyətinin həyatında hər bir sosial təbəqənin vəzifəsini (təyinatını) müəyyən edir. Birinci yerə N.Tusi mənəvi (əxlaqi) əminamanlığı qorumağa borclu olan qələm sahibi olan ziyalıları çıxarır; ordu – dövlətin sərhədlərinin və torpaqlarının qoruyucusudur, tacirlər və sənətkarlar istehsalçılardır və cəmiyyətin əlaqələrinin (daxili və xarici əlaqələrinin) yaradıcılarıdır. Və nəhayət, dördüncü kateqoriya - əkinçilər və maldarlar kateqoriyası elə bir kateqoriyadır ki, onun səyləri bütövlükdə cəmiyyətin maddi əminamanlığına (rifahına) yönəldilmişdir.[11]

Orta əsrlərin Şərq mütəfəkkirləri içərisində cəmiyyətin sosioloji problemlərini qabaqcadan görə bilmiş və müasir dövrün Avropa filosofları arasında layiqincə tanınmışlardan biri İbn Xəldundur (1332-1406). S.M.Batsiyeva yazır: " Müqəddimə"də idrak nəzəriyyəsi müstəqil tədqiqat obyektidir, çünki o İbn Xəldunun sosioloji təlimi üçün çox mühüm əhəmiyyət kəsb edən suala cavab verir: insan zəkası təbii aləmin qanunlarını və bəşər cəmiyyətinin həyatının qanunlarını dərk edə bilərmi?".[12] İbn Xəldunun "Müqəddimə" əsəri bu gün müasiri olduğu cəmiyyətin funksionallaşdırılması haqqında bitgin bir əsər kimi qəbul olunur. Öz zamanəsinin iştirakçısı və şahidi olan İbn Xəldun öz istedadı sayəsində feodal cəmiyyətinin sosial sinfi strukturunda özünə yer

[10] Ейвазов Ф. Дащи алим вя философ. Бакы., 1981; Мяммядова А. Нясиряддин Тусинин дцнйаэюрцшц. Бакы: Елм, 2000.

[11] Н.Туси. Яхлаги - Насири. Бакы, 1989.

[12] Бациева С. Историко-социологический трактат Ибн-Халдуна «Мукаддима». М., 1965, с.206.



tutmuş qarşılıqlı insan münasibətlərinin çoxsaylı çalarlarını analitik şəkildə əks etdirə bilmişdir.

## 2.2. "Stratifikasiya" və "Orta sinif" anlayışları haqqında Qərb nəzəriyyələri

Təbəqələr, siniflər və onlarla bağlı olan bərabərsizlik problemi Qərb sosiologiyasında xüsusi yer tutmuşdur və hazırda da tutmaqdadır. Sosioloji fikir tarixi sosial stratifikasiyanın mahiyyətinin başa düşülməsi ilə bağlı və bir-birilərinə tamamilə zidd olan nəzəri ümumiləşdirmələr və tövsiyələrlə olduqca zəngindir. "Stratifikasiya", "orta sinif" analyışları daha ardıcıl şəkildə "Münaqişə nəzəriyyəsi" və "Veber nəzəriyyəsi" kimi klassik sosioloji nəzəriyyələrdə nəzərdən keçirilmişdir. Bu nəzəriyyələrdən hər biri müasiri olduğu cəmiyyətin stratifikasiya mənzərəsini anlayış bazası vasitəsilə ümumiləşdirmək səyindən ibarətdir. Bununla da bağlı olaraq burada nəzərə almaq lazımdır ki, həmin nəzəriyyələrin analyış aparatı bu və ya digər dərəcədə həmin nəzəriyyələrin müəlliflərinin özlərinin subyektiv dünyagörüşü meyllərinin çalarlarını özündə daşıyır. Yuxarıda göstərilmiş nəzəriyyələrin hazırkı monaqrafiyada verilmiş qısa icmalı bizcə burada irəli sürülmüş məsələnin nəzərdən keçirilməsi zamanı müəyyən şəkildə baza metodu ola bilər.

Münaqişə nəzəriyyəsi "Münaqişə nəzəriyyəsi"nin təməl əsasları XIX əsrin ikinci yarısında irəli sürülmüşdür. Bu əsaslarda Avropada erkən kapitalizm dövrünün ziddiyyətləri öz əksini tapmışdır. Burjuaziyaya nəyin hesabına olursa olsun, iqtisadi və ideoloji cəbhədə möhkəmlənmək lazım idi. Zavod və fabriklərdə insan əməyinin istismar edilməsi (16 saatlıq iş günü) antibəşər həddinə çatmışdı. Məhz bu cür yaşam şəraiti və onun əsasında yaranmış bərabərsizlik

kapitalist istehsalının mahiyyəti təhlil obyektinə çevrilmişdi, bu əsasda da edilmiş ümumiləşdirmələr və kapitalist sisteminin müəyyənləşdirilmiş qanunları sonralar tarixi materializm fənninin əsasını təşkil etmişdir. Karl Marksın kapitalist sisteminin "sinir sütunu"nu əks etdirmiş "Kapital" əsəri bu gün də XIX əsrin ikinci yarısında kapitalist istehsal üsulunun və bazar iqtisadiyyatının mahiyyətinin dərin analitik ümumiləşdirilməsi olaraq qalmaqda davam edir. K.Marks kapitalist istehsalının sosial "anatomiyası"nı təhlil edərək onun təbiətini müəyyənləşdirmişdir; burada məhsulun dəyəri = texniki avadanlığın və xammalın dəyəri + fəhlələrin əmək haqqı + sahibkarın gəliri (izafi dəyər). Beləliklə, K.Marks belə bir məntiqi nəticəyə gəlir ki, istehsalın genişləndirilməsi labüd olaraq sahibkar tərəfindən mənimsənilən izafi dəyərin artmasına gətirib çıxarır. Bu isə öz növbəsində daim proletar sinfi ilə mülkiyyətə nəzarət edənlər sinfi arasında antaqonist bərabərsizliyi doğuracaqdır. O, belə bir nəticəyə gəlir ki, mülkiyyətə münasibətdə bərabərsizliyin doğurduğu antaqonizm labüd olaraq ədalət uğrunda mübarizəyə və inqilablara gətirib çıxarır.

ABŞ-ın aparıcı sosioloqlarından biri olan Neyl Smelzer hesab edir ki, XX əsrdə "Sosial bərabərsizlik problemi üzrə bir çox ideyalar marksist stratifikasiya və sinifi nəzəriyyədən götürülmüşdür".[13] İngilis sosioloqları K. Marksın münaqişə nəzəriyyəsini təhlil edərək yazırlar ki, "Marks kapitalizm cəmiyyətinin görkəmli nəzəriyyəçisi olmuşdur. "Kapital"da ... Marks kapitalizmin iqtisadi mexanizmlərini təfərrüatı ilə nəzərdən keçirir, əmək dəyər nəzəriyyəsini, kapital yığımı nəzəriyyəsini inkişaf etdirərək, kapitalizmin əsaslarının daxildən parçalanması imkanlarını da təhlil edir. "Kapital"da

[13] Смелзер Н. Социология. М., 1998, с.280.



yalnız bu yaxınlarda böyük əhəmiyyət kəsb etmiş əmtəə fetishismi görüntü və reallıq kimi problemlər də şərh olunur".[14] Bizim müasirimiz olan fransız sosioloqu A.Mendra sinfin istehsal prosesində öz mövqeyini dərk etmiş sosial makro qrup kimi Marksın verdiyi tərəfi olduqca mühüm və qiymətli tərif hesab edir. A.Mendranın hesab etdiyi kimi, bu tərifin əhəmiyyətliliyi ondan ibarətdir ki, o, bir sinfin digər siniflərə münasibətlərinin mahiyyətini ifadə edir. A.Mendra yazır: "K.Marksın XIX əsr ingilis kapitalizminə verdiyi təhlil şübhəsiz ki, sosioloji təhlilin zirvəsidir.[15]

Bununla belə, XX əsrin ikinci yarısının müəllifləri münaqişə nəzəriyyəsinin roluna və tutduğu yerə qiymət verməklə yanaşı hesab edirlər ki, bu nəzəriyyə postindustrial cəmiyyətdə kapitalist istehsalının dinamikasını əks etdirə bilməz. N.Smelzer K.Marksa görə münaqişə nəzəriyyəsini təhlil edərək baş tutmamış Ümumdünya proletar inqilabının səbəbini aydınlaşdırmağa çalışır. O, hesab edir ki, "proletariatın daxilində xeyli təbəqələşmə baş vermişdir".[16] A.Mendra hesab edir ki, "Marksa görə siniflər nəzəriyyəsinin geniş, əhatəli arxitektur binası bu gün dağılır, belə ki, sinfi mübarizə və fərdlərin iki mərkəzi siniflər üzrə bölgüsü bu gün kifayət qədər bəsit görünür... Marks konkret epoxada konkret cəmiyyətin çox gözəl təhlilini vermişdir: Marksın etirafı XIX əsrin sonlarındakı Fransa və İngiltərəyə olduqca uyğun gəlirdi... İctimai sinfin marksist anlamı bir növ ideal tip olmuşdur ki, o da viktorian kapitalizminin fəaliyyətini iki makro qrupun münaqişəsinə gətirib çıxarmışdır və bu sxem

[14] Аберкромби Н., Хилл С., Тернер Б. Социологический словарь М., 1999, с.157-159.

[15] Мендра А. Основы социологии. М., 2000, с. 9.

[16] Смелзер Н. Социология. М., 1998, с.288.

qrup və status iyerarxiyası sisteminə uyğun olaraq digər təhlil verilməsi imkanını istisna etmir".[17]

Neomarksist G.Zimmel (1858-1918) sinfiliyin və bərabərsizliyin əsaslı prinsiplərini qəbul edərək, cəmiyyətin stratifikasiya strukturu ilə əlaqədar öz anlamını irəli sürmüşdür. G.Zimmelin sosioloji "platforması" onun "Həyat fəlsəfəsi"nin əsasında qurulmuşdur. Bu yanaşmaya uyğun olaraq əgər XVIII-XIX əsrlər "şəxsi Mən" anlayışını və "cəmiyyət" anlayışını irəli sürmüş və ondan istifadə etmişdirsə, bir çox sosial fəlakətlər və böhranlarla dolu olan (haşiyələnmiş) yeni – XX yüzilliyə keçilməsi ilə "həyat" anlayışı ortaya atılır. G.Zimmel hesab edirdi ki, "Həyat fəlsəfəsi" tarixi şəraitlə çox sıx surətdə bağlıdır. O yazırdı: "XX əsrin astanasında həyat anlayışı bütün gerçəkliyin, bütün qiymətlərin – metafizik, psixoloji və bədii qiymətlərin çıxış nöqtəsi kimi mərkəzi yerə çıxdı".[18]

G.Zimmel dünyagörüşü baxımından "həyat fəlsəfəsi" anlayışından çıxış edərək, əsas müddəaları irəli sürür. Bu müddəaları o, "Müasir mədəniyyətin münaqişəsi" əsərində şərh etmişdir. Müəllif cəmiyyətin fəaliyyətinin əsaslarının və onun spesifik xüsusiyyətlərinin, bu cəmiyyətdə formalaşan qarşılıqlı münasibətlərin sosioloji modelini qurur. Lakin K.Marksın aparıcı makro qrupların münaqişəsinin əks olunduğu "sosial münaqişənin "dixotomik modeli"ndən fərqli olaraq G.Zimmel "Həyat fəlsəfəsi"ndə bir məsələdə müttəfiq olanların digər məsələdə rəqib olduqları kəsişən münaqişələr nəzəriyyəsini irəli sürür. G.Zimmelin fikrinə görə, münaqişələrin bu cür tipi daha təhlükəli münaqişələrin qarşısını alır".[19]

---

[17] Мендра А. Основы социологии. М., 2000, с. 9.
[18] Современная буржуазная философия. М., 1972, с. 131-132.
[19] Аберкромби Н. и др. См: Социологический словарь. М.,1999, с. 138.



G.Zimmelin "kəsişən münaqişələr"i barədə sosioloji baxışlar ictimai həyatın stratifikasyon sferasında baş vermiş mühüm dəyişikliklərin təsiri altında formalaşmışdır. "Sosial diferensiasiya" əsərində G.Zimmel yazır: "Mədəniyyətin ən böyük sosial-etik nailiyyətlərindən biri bundan ibarətdir ki, sosial qrupun (məsələn, mərkəzi hakimiyyətin tinsalında) fərdin davranışlarını ən xırdalıqlarına qədər tənzimlədiyi əvvəlki zamanların ən sıx birliyi qrupun ən vacib maraqlarına qədər öz reqlamentlərini getdikcə daha çox məhdudlaşdırır; buna uyğun olaraq fərdi azadlıq özünün təzahürünün getdikcə daha yeni sahələrini qazanmaqla tədricən inkişaf edir. ...Şəxsiyyətin bir bütöv kimi reqlamentdən azad olduğu dərəcədə öz mövcudluğunun ayrı-ayrı tərəfləri üçün sosial ünsiyyət axtarır və özünün fərdiyyətçilik özbaşınalığını könüllü surətdə məhdudlaşdırır.[20] G.Zimmel kifayət qədər aydın şəkildə başa düşürdü ki, Qərb bazarında diferensiasiya templərinin həddindən artıq sürətli olması "yeni qüdrətli sosial dairənin", burjuaziyanın bunca möhkəm qorxduğu fəhlə sinfinin "himayəsinin yaradılması" prosesini dayandırdı.[21] G.Zimmel öz əsərində qeyd edir ki, cari yüzilliyin əvvəlində ingilis irticası ittifaqların öz aralarında hər cür yazılı əlaqələrini, həmçinin istehsalın müxtəlif sahələrinə mənsub olan üzvlərin hər cür birliklərini ləğv etmişdi.

İstehsal sferasında diferensiasiya və dar ixtisaslaşma çoxsaylı və rəngarəng qrupların, qrupdaxili və qruparası münasibətlərin meydana gəlməsinə imkan yaratmışdı. Elə bir obyektiv vəziyyət yaranır ki, bu zaman "şəxs öz ixtisas məsuliyyəti dairəsindən əlavə hansısa bir ziyalı (alim) cəmiyyətində, hər hansı bir aksioner kompaniyasının təftiş komissiyasında iştirak edir, şəhər idarəsi üzrə fəxri vəzifə

---

[20] Зиммель Г. Социальная дифференциация. М.,1898, с. 168-169.
[21] Yenə ordada s. 172.

tutur... Bir qrupda iştirak digər qrupda iştirakla nə qədər az əlaqəli olarsa, necə deyərlər, ümumi qrupların kəsişmə nöqtəsində qərar tutmuş şəxsiyyət qarşımızda bir o qədər aydın şəkildə çıxış edir".[22] G.Zimmel belə nəticəyə gəlir ki, "eyni bir şəxsiyyət eyni vaxtda mənsub olduğu müxtəlif sosial dairələrdə iştirak edə bilər və nisbətən müxtəlif mövqelər tuta bilər".[23] Beləliklə, Zimmeldə "sinfilik" və sinfi münaqişələr qrup münaqişələri formasını alır.

Marksist irsini yaradıcı surətdə dərk etmək cəhdi bir sira yeni ideya və cərəyanların yaranmasına (məsələn, D.Lukaç və A.Qramşe, M.Xorkmayer, T.Adorno, Q. Markuze, E.Fromm (Frankfurt məktəbi); J.P.Sartr, M.Merlo-Ponti kimi (ekzistensial marksizm) neomarksist meylli sosioloqların tam bir nəslini və sonralar isə "yeni fəhlə sinfi" ideyasını irəli sürmüş S.Malle, "əməyin deqredasiyası" səbəblərini nəzərdən keçirmiş X.Braverman, fəhlə sinfi ilə xüdafisləşmək vaxtının çatdığını söyləyən A.Harri və sinfi mədəni və sosial irs kimi nəzərdən keçirən və sinfi özlüyündə əşya deyil, hadisə hesab edən E.P.Tompson kimi) təkan vermişdir.

Qeyd etmək lazımdır ki, neomarksistlər içərisində E.O.Raytı bu cərəyanın ən parlaq nümayəndələrindən biri hesab etmək olar. Rayt yeni sinfi sxemlər irəli sürür və mikro səviyyədə sinfi struktur konsepsiyasını yaradır. Analitik marksizmin nümayəndəsi olaraq Rayt hesab edir ki, postindustrial cəmiyyətdə sosial stratifikasiyanın spesifikliyi (özünəməxsusluğu) daha artıq dərəcədə mikro səviyyədə sinfi struktur konsepsiyası vasitəsilə əks oluna bilər və bu əsasda

[22] Зиммель Г. Социальная дифференциация. М.,1898, с.164

[23] Yenə orada, s.164.



o, sinfi münasibətlərin on iki sinifdən ibarət olan sxemini işləyib hazırlayır.[24]

Münaqişə nəzəriyyəsi Qərb və amerikan sosiologiyasının aparıcı sosioloqlarının diqqətini cəlb edir. Məsələn, müasir dövrün aparıcı sosioloqlarından biri olan İmmanuel Vallerstayn yazır: "Sosial dəyişiklik problemlərini hər hansı konkret tarixi bir sistemə tətbiqən nəzərdən keçirərkən üç müstəqil mövzunun mövcud olduğunu nəzərə almaq vacibdir: birincisi, sistemin genezisi. Necə baş vermişdir ki, tarixi sistem, məsələn, dünya kapitalist iqtisadiyyatı müəyyən vaxtda və müəyyən yerdə başqa şəkildə deyil, məhz bu şəkildə meydana gəlmişdir?

İkincisi, sistem strukturu məsələləri. Sistemin hazırkı tipi hansı qaydalar üzrə mövcuddur? Bu qaydalara əməl olunmasını hansı institutlar təmin edir? Sistemin ümumi meylləri hansılardır?

Üçüncüsü, sistemlərin son mərhələsi". Müəllif hesab edir: "Başlıca olaraq sosial dəyişikliyin təhlili ikinci sual üzərində, yəni siklik ritmlər kimi yaranan, müşahidə olunan və ölçülə bilən tarixi sistemlərin fəaliyyəti üzərində cəmlənmişdir. Enmələr və yüksəlişlər sosial proseslərin inkişaf fazalarıdır, iki fazanın sərhədində döngəni təsvir edən əyri isə cəmiyyətin yaşadığı dəyişiklik zolağıdır".[25]

Vallerstayn belə sual irəli sürür: tarixi sistem hansı qaydalarla hərəkət edir, onun institutlarının təbiəti nədən ibarətdir, onun əsas münaqişələri hansılardır.

[24] Радаев В.В. Классы после классиков. См. монографию: Социальная стратификация. М., 2003

[25] Валлерстайн И. Социальное изменение: Вечно? Ничто, никогда не изменяется? В журн: «Социсс», 1997, №10 - 11.

Bu məqalənin müəllifinin əsas ideyası ondan ibarətdir ki, bu və ya digər tarixi sistemin fəaliyyəti prosesində meydana gələn münaqişələr son nəticədə həmin sistemin "sıradan çıxması"na gətirib çıxarır. Yəni "sistem öz qaydaları əsasında fəaliyyətini dayandırır, gec-tez bu baş verir və o zaman sabit meyllər (tendensiyalar) sistemin üçüncü mərhələsini, son mərhələsini, yox olma mərhələsini hazırlayır".

Lakin münaqişələr nəzəriyyəsi İ.Vallerstayna görə müasir dünyada Priqojin modeli ilə irəli sürülmüş, qeyri-komulyativ, radikal determinə olunmamış transformasiyaları ifadə edən ideya ilə örtülür". İ.Vallerstayn hesab edir ki, "dünya universiumunun determinasiya proseslərinin nizamlanmasının konseptual izahı son onilliklər ərzində təbiətşünaslıq elmləri sahəsində idrakın ən maraqlı nailiyyətidir və modern üçün səciyyəvi olan hakim dünyagörüşünün əsaslı surətdə yenidən nəzərdən keçirilməsi deməkdir. Bu konseptual izah da həmçinin, bizcə, insan yaradıcılığı daxil olmaqla Kainatda yaradıcı başlanğıc ideyasının ən uğurlu bərpasıdır".[26]

Amerikan sosioloqu N.Smelzerin sosioloji versiyası da dünya proseslərinin yeni inkişaf yollarının axtarışlarına yönəldilmişdir. N.Smelzer yazır: " İqtisadiyyatın beynəlmilləşməsi buna gətirib çıxarır ki, bir dövlət onun inkişafını səmərəli şəkildə idarə etməyə qadir deyildir. Heç bir ölkə öz taleyini idarə edə bilməz, belə ki, dünyanın digər hissələrində baş verməkdə olan iqtisadi hadisələr iqtisadiyyata çox dərin təsir göstərir. Ümumdünya iqtisadi inkişafının məntiqi bu gün mövcud olan idarəetmə ilə müqayisədə dünya proseslərinin idarə edilməsinin daha mükəmməl formasının yaradılmasını tələb edir".[27]

---

[26] Валлерстайн И. Конец знакомого мира. Социология XXIв. М., 2003.
[27] Смелзер Н. Социология. М., 1998, с.58



Beləliklə, əsas "münaqişə nəzəriyyələri"nin icmalı ehtimal etməyə əsas verir ki, öz inkişaf dinamikasında götürülmüş qarşılıqlı sinfi münasibətlər erkən kapitalizmdən "yetkin industrializmə" keçdikcə dəyişikliyə uğramışdır. Məlumdur ki, erkən kapitalizmdə qarşıdurma makro qrupun qarşıdurmasından ibarət olub, bu sistem üçün təhlükəli olan uzun sürən böhranla birlikdə antaqonizm yaratmışdı. "Yetkin industrializm isə makro istehsalçılar sinfinin ayrı-ayrı sferalara və təbəqələrə yenidən bölüşdürülməsi üçün iqtisadi ilkin şərait yaratmışdı. Ortabablar sinfinin – fəhlə sinfi ilə kapitalistlər sinfi arasında əlaqələndirici həlqə olan "orta sinfin" yaradılmasının intensiv prosesi başlamışdı. Burada söhbət XX əsrin sosial stratifikasiyasına əsaslı dəyişikliklər etmiş sinifdən gedir.

Funksionalizm nəzəriyyəsi. Funksionalizm nəzəriyyəsinin nümayəndələri belə hesab edirlər ki, hər bir stratifikasiya qrupu digər sosial sferalardan fərqlənməklə təxminən bərabər həyat şanslarına və həyat üslublarına malikdir. Bütövlükdə, stratifikasiya məsələlərində funksionalistlər cəmiyyətin stratlarını üç sosial stratifikasiyaya bölürlər: kasta stratı, silki stratı, sinfi strat.

Amerikan sosiologiyasında üstünlük əsasən cəmiyyətin stratifikasiyon strukturuna verilir. Burada isə özünün klassik anlamında sinfi bölgü aradan qalxır; hesab olunur ki, bu bölgü daha çox digər industrial cəmiyyətlər üçün səciyyəvidir.

Amerikan sosioloqları K.Devis, U.Mur tərəfindən irəli sürülmüş funksional stratifikasiya ictimai mövqelər ideyasından çıxış edir. İctimai mövqelər ideyasının mahiyyəti isə bundan ibarətdir ki, stratifikasiya bölgüsü və bərabərsizlik müasir cəmiyyətin tələbləri ilə və cəmiyyət üçün "funksional əhəmiyyətli" olan fəaliyyət sahələrinin xüsusiyyətləri ilə

meydana gəlmişdir. Xüsusilə, K.Devis və U.Mur hesab edirlər ki, "bütün cəmiyyətlərdə digərləri ilə müqayisədə obyektiv olaraq böyük funksional əhəmiyyəti olan və xüsusi kvalifikasiya tələb edən mövqelər mövcuddur. Lakin, bu mühüm kvalifikasiyanın müəyyən çatışmamazlığı mövcuddur, belə ki, istedad nadir hadisədir, təlim isə çox vaxt və resurs tələb edir. Deməli, müvafiq mükafatlandırma sistemi lazımdır ki, bacarıqlı insanlar üçün öz potensialını inkişaf etdirməyə stimul yaradılsın. Bu mükafatlandırma maddi stimulların və yüksək sosial statusun və yaxud hörmətin (nüfuzun) birləşdirilməsindən ibarətdir".[28]

Bütövlükdə, funksional stratifikasiya məsələləri üzrə diskussiyalarda bu nəzəriyyənin əsas müddəalarının tənqidində bir ümumi meyli fərqləndirmək olar. Bu meyl belə ideyaya müncər oluna bilər ki, ictimai fəaliyyətin bu və ya digər sferalarının funksional əhəmiyyətini dəqiq surətdə dəyişdirmək mümkün deyildir, deməli, bu nəzəriyyə qapalı dairədir. Həmçinin qeyd olunur ki, bu nəzəriyyəyə münaqişələr və hakimiyyət daxil edilməmişdir və stratifikasiya çərçivəsində bunlar nəzərə alınmırlar, həmçinin mülkiyyətin dərəcəsi nəzərə alınmır, bərabərsizlik isə fərdlərin nailiyyətlərini əks etdirən şərt kimi izah olunur. Funksionalizm nəzəriyyəsi sosial-sinfi reallıqları kənara atır, buna görə də bu cür qətiliyin müasir inkişaf etmiş cəmiyyətdə möhkəm əsası yoxdur. Təsadüfi deyildir ki, Avropa sosioloqları qeyd edirlər ki, son on ildə ABŞ-da sinfi təhlil marksist sosiologiyasının təsiri altındadır.[29]

T.Parsons funksional mövqelərdən özünün stratifikasiya nəzəriyyəsini təklif edir. O, hesab edir ki, industrial cəmiyyətdə askriptiv meyarlar əldə oluna bilən dəyərlərlə əvəz

[28] См.: Абберкромби Н.и др. Социологический словарь. М.,1999, с. 323.
[29] Абберкромби Н.и др. Социологический словарь. М.,1999, с. 324.



olunmalıdır, professional bölgü isə xidmətlərin etiraf olunması sistemi vasitəsilə həyata keçirilməlidir. Peşə statusu maddi mükafatlandırılmaların iyerarxiyasına bərabərləşdirilir: yüksək mükafatlandırılmalar funksional əhəmiyyətli işin yerinə yetirilməsi üçün insanların stimullaşdırılmasında zəruridir.[30]

Cəmiyyətin sosial stratifikasiyası və sinfi strukturu barədə M.Veberin baxışları mahiyyəti etibarı ilə K.Marksın siniflər nəzəriyyəsindən çıxış edir. M.Veber də bu nəzəriyyənin bəzi məqamlarını etiraf etməklə o, da K.Marks kimi sinifə tərif verərkən iqtisadi situasiyanı əsas götürür. Lakin bununla belə, M.Veber müasir kapitalizmin spesifik xüsusiyyətlərindən alınan öz qənaətlərini da daxil edir. Müasir kapitalizm cəmiyyətində marksist siniflər nəzəriyyəsinin yaradıcı surətdə davam etdirilməsi olan Veber əsaslarının mahiyyəti nədən ibarətdir?

Hər şeydən əvvəl, burada xüsusi qeyd etmək lazımdır ki, o, siniflərə və cəmiyyətin sosial strukturuna verdiyi şərhində başqa bir metodoloji təlimdən çıxış etmişdir. Onun nəzəriyyəsinin anlayış bazası, demək olar ki, üç əsas tərif üzərində qərar tutub: "anlama sosiologiyası", "məqsədli rasionallıq" və "sosial hərəkət". M.Veber yazır: "İnsan davranışı o halda və o zaman hərəkət adlanır ki, hərəkət edən fərdlər subyektiv mənanı onunla əlaqələndirirlər".[31] Bu insan davranışının "subyektiv mənası"nın məntiqi davamı kimi M.Veber "anlama" sosiologiyası metodunu irəli sürür. M.Veber yazır: "Anlama bütün hallarda bu göstərilənlərin interpretasiyalı dərk olunmasıdır (başa düşülməsidir): a) ayrıca halda (hadisələrin tarixi təhlili zamanı) real surətdə ehtimal olunanın; b) kütləvi hadisələr sosioloji cəhətdən

[30] Yenə orada.
[31] Вебер М. Исследования по методологии науки. М.,1980, ч. 2, с. 102.

nəzərdən keçirilərkən orta və təxmini mənasında götürülmüş ehtimal olunanın; v) elmi cəhətdən konstruksiya edilmiş xalis tipdə (ideal tipdə) mənanın və yaxud məna əlaqəsinin və ya nə isə tez-tez təkrar olunan hadisənin. Məsələn, xalis nəzəri iqtisadi təlim tərəfindən işlənib hazırlanmış anlayışlar və "qanunlar" bu cür ideal tipik konstruksiyalardır. Bu ideal tipik konstruksiyalar göstərir ki, müəyyən insan davranışı ciddi rasional məqsədli xarakter daşıyarsa, yanılmalardan və affektlərdən – həyəcanlardan azad olarsa və əgər bu davranış tamamilə eynimənalı məqsədə (iqtisadiyyata) istiqamətləndirilibsə, o necə olmalı idi".[32] Lakin M.Veber aydın şəkildə başa düşürdü ki, rasional məqsədli davranışın ideal-tipik konstruksiyası yalnız tipik model səviyyəsinə yüksəldilmiş ümumiləşdirmədir. Təsadüfi deyil ki, M.Veber "Stratifikasiyanın əsas anlayışları" əsərində praktik olaraq fəaliyyət göstərən (funksional) stratanı müəyyən edir. O, yazır: "Stratların mühüm yer tutduğu istənilən cəmiyyətə əhəmiyyətli dərəcədə şərti konvensional davranış qaydaları nəzarət edir. Bu davranış qaydaları iqtisadi cəhətdən irrasional (qeyd bizimdir – Ə.R) istehlak şərtləri ilə yaradılır və inhisarçı mənimsəmə və fərdlərin iqtisadi bacarıqlarının azad yerdəyişməsinin məhdudlaşdırılması sayəsində azad ticarətin inkişafına mane olur".[33]

Beləliklə, Veberin siniflərə verdiyi interpretasiyanın mahiyyəti yuxarıda göstərilmiş metodoloji konstruksiyanın zəminində öz ifadəsini tapır. Fransız sosioloqu A.Mendra qeyd edir ki, M.Veber birinci və əsas yerə sinfi situasiyanı qoyur və onu müstəsna olaraq iqtisadi mənada müəyyənləşdirir. Başqa sözlə, fərdin sinfi situasiyası (qeyd bizimdir – Ə.R) elə iqtisadi mənada müstəsna şansdır. Fərd üçün iqtisadi situasiya müvəffəqiyyət qazanılmasında qeyri-bərabər imkanlar yaradan əsas (çıxış) və fərdi iqtisadi situasiyadır (kapitalın mənşəyi, ölçüsü-miqdarı, regionun xüsusiyyətləri).[34]

M.Veberə görə sinif ümumi məqsədlər üçün istifadə olunan bazis, ilkin şərtlərdir. Lakin eyni zamanda da M.Veber sinfin vəziyyətini bazarın mövcudluğu ilə bağlayır. O rəqabət mübarizəsində xüsusi vəziyyət kimi müəyyənləşdirilir. Sinfin vəziyyəti bazara münasibətdə olan vəziyyətdir. M.Veberə görə iqtisadi sistem təkamülə uğradıqca sinfi toqquşmalar heçə enəcəkdir. Bu sinfi toqquşmalar ona görə mövcuddur ki, bazarda sinfi diferensiasiya mövcuddur. Bugün rəqabət mübarizəsi əməyin dəyərinin (əmək haqqı) müəyyən edilməsi ilə bağlıdır.

Bu tərifə əsaslansaq, hansı sinifləri fərqləndirmək olar? Burada M.Veber sinfi professional statusla əlaqələndirməyə getdikcə daha çox meyllənir. Belə ki, mexanikləşdirmənin artmasına uyğun şəkildə fəhlələrin müəyyən sinfə mənsubluğu müəyyənləşir və fəhlə qrupu getdikcə daha artıq dərəcədə həmcinsləşir. Xırda burjuaziya da (ticarətçilər, sənətkarlar, şəhərlilər) müəyyən sinfi təmsil edir. Bu sinif isə, bazara münasibətdə, ümumi iqtisadi situasiyaya daxil olur. Mülkiyyəti olmayan ziyalılar da bir sinfdə birləşirlər.

M.Veber siniflərin mahiyyətini təhlil edərək, statusun roluna xüsusi yer ayırır. Status anlayışı burada nüfuzların iyerarxiyasında müəyyən yer tutmağı bildirir. Buraya isə həyat tərzi (istehlak üsulu, mənzilin təşkili, xarici görünüş, nikah, tərbiyənin forması) daxildir. M.Veber belə hesab edir ki, bu gün "status qrupları" moda qanunvericiləri sırasına irəli çəkilərək, digər qruplara təsir göstərirlər. Sosial qruplar

---

[32] Yenə orada, səh.392

[33] Вебер М.Основные понятия стратификации. В журн. Социологические Исследования, 1994, № 5, с.183

[34] Мендра А. Социология. М., 2000, с.248.

arasında əlaqə, faktik olaraq, status qrupları əlaqələrinə çevrilərək, bir-birindən gəlirlərinin səviyyəsinə görə fərqlənirlər.

M.Veber üç müxtəlif təsnifat irəli sürür: 1) iqtisadi təsnifat; 2) sosial təsnifat; 3) siyasi təsnifat. Bu sosial bölgüdə M.Veber hakimiyyətin mahiyyətinin başa düşülməsinə xüsusi yer ayırır. Hakimiyyət dedikdə, biz insanın və yaxud insanlar qrupunun birgə fəaliyyətdə öz iradəsini reallaşdırmaq şansını başa düşürük. Hakimiyyətə sahib olmaq, hətta müqavimət mövcud olduğu şəraitdə, öz iradəsini yeritmək imkanına malik olmaq deməkdir. Hakimiyyət iqtisadi mənbələrə malikdir və iqtisadi hakimiyyət isə siyasi nəticələr doğura bilər. Lakin, M.Veberə görə, iqtisadiyyat hakimiyyətin yeganə mənbəyi deyildir: Üstəlik də iqtisadi hakimiyyətin özü hakimiyyətin digər sferalarından irəli gələ bilər. Lakin həmişə hakimiyyətə sahib olmaq vəziyyətin nüfuzluluğuna doğru aparır.

M.Veber bununla da göstərir ki, marksist anlamında sinfi münasibətlər sosial həyat səhnəsindən düşürlər və çoxlu sayda müxtəlif yarımqrupların hərəkətlərinə, münasibətlərinə qoşulurlar. M.Veber deyir: "Üç hadisəni 1) insanların iqtisadi imkanlarını; 2) bu insanların yaşadıqları həyat tərzini; 3) cəmiyyətin siyasi quruluşunda onların yerini – etiraf etmək lazımdır.

Beləliklə, M.Veber də status qrupları nikah imkanlarını, peşəkar mənsəb imkanlarını müəyyən edir. Bu mənsəb çərçivəsində isə fərd lazımi bacarıqlara malik olmalıdır, eyni zamanda bu qrupa mənsub olmaq üzrə başlıca əlamətlərin daşıyıcısı olmalıdır.[35]

[35] СМ.: Аберкромби Н. и др. Социологически словарь. М., 1999.



XIX əsrin sonlarından və XX əsrin əvvəllərindən başlayaraq stratifikasiyanın əsaslı təhlil edilməsi və cəmiyyətin bütün təfərrüatı ilə öyrənilməsi faktik olaraq M.Veberə imkan verdi ki, yeniləşməkdə olan kapitalizmin sosial stratifikasiyası modelini "yaratsın". Əgər K.Marksın təhlili cəmiyyətin makro sisteminin öyrənilməsinə və bu sistemin inkişaf dinamikasına yönəldilmişdisə, M.Veberin təhlili, göründüyü kimi, daha çox ayrıca fərdə istiqamətlənmişdir. Burada da M.Veber sosial stratifikasiyanı fərdlər, qruplar arasında və qruplararası əlaqələr arasındakı münasibətlərin mikrososioloji səviyyəsində təhlil etməyə çalışır.

Yeniveberçilər R.Darendorf, D.Lokvud və E.Giddens, eləcə də, M.Veberin özü, Marks tərəfindən irəli sürülmüş cəmiyyətin sinfi strukturu ideyasının davamçıları olmuşlar. Bununla belə, onlardan hər biri bu sinfi strukturun cəmiyyətin sosial stratifikasiyasında əhəmiyyətini və yerini özünəməxsus şəkildə görür. Məsələn, alman sosioloqu R.Darendorfun fikrinə görə, münaqişənin yaranması kapitalın deyil, hakimiyyət və nüfuz bölgüsü prosesləri ilə bağlıdır və məhz ağalıq və tabelik münasibətləri antaqonist maraqların meydana gəlməsinə səbəb olur. Belə ki, münaqişələrin həll olunmasını R. Darendorf münaqişələrin institutlaşdırılmasında, danışıq stolu arxasında nüfuzun dinc yolla bölüşdürülməsində görür: Onun "İndustrial cəmiyyətdə sinif və sinfi münaqişə" (1967) və b. əsərləri Qərbin sosioloji dairələrində yeniveberçi istiqamətli əsərlər kimi tanınır.[36]

M.Veberin ardıcılları sırasına həmçinin Britaniya sosioloqları D.Lokvudu (1929) və E.Giddensi (1938) aid edirlər.

[36] См.: Аберкромби Н. и др. Социологический словарь.; Радаев В.В. Классы после классиков. См.:моног. Социальная стратификация. М., 2003, гл. 5.

D.Lokvud cəmiyyətin sinfi sisteminin təhlilinə daha dərindən yanaşır. O, belə hesab edir ki, cəmiyyətdə hər bir sosial qrup üç əlamətinə görə müəyyən olunur: bazar, əmək və status əlamətləri. Birinci iki əlamət qrupun sinfi, üçüncü əlamət isə stratifikasiya mövqeyini müəyyən edir.[37]

D.Lokvud klerkləri (kantor işçiləri) və fiziki əmək işçiləri kimi qrupların sosial uzaqlaşdırılması məsələsini son dərəcə dəqiq şəkildə nəzərdən keçirir. O, hesab edir ki, fəhlə sinfi ilə müqayisədə klerklərdə bir qədər başqa mənsəb oriyentasiyaları (meylləri) vardır.[38]

Yeniveberçilər içərisində bu gün E.Giddens xüsusi yer tutur. E.Giddens müasir dövrün ən məhsuldar sosioloqlarından biri olub "hakimiyyət, dialektika, nəzarət və cəmiyyətin sinfi strukturlaşması" məsələlərinə xüsusi yer verir, burada sosial hərəkətə (fəaliyyətə) dəqiq xarakteristika verməyə çalışır. Sonuncunun mənası isə reflektiv (qeyri-şüuri) bilikdir, bu da dünyada öz vəziyyətini dəyişmək, "institusional məhdudiyyətlərə qarşı çıxmaq üçün" zəruridir. E.Giddens yazır: "Sosial sistemlərin struktur komponentlərini insan fəaliyyətinə münasibətdə eyni vaxtda həm stimullar, həm də məhdudlaşdırıcılar kimi nəzərdən keçirmək lazımdır və fəaliyyət və struktur arasında ənənəvi dualizm strukturun biliyə əsaslanan sosial praktiklərin istər vasitəçisi və istərsə də nəticəsi kimi çıxış etdiyi xassə, xüsusiyyət kimi yenidən izah olunmalıdır".[39] E.Giddensin fikrinə görə, sinfi münasibətlər dolayısı ilə strukturlaşa bilər, nə zaman ki, bazar imkanları üçün şərait məhdudlaşdırılmış olsun; bilavasitə strukturlaşmanın isə üç əsası var: müəssisə daxilində əmək bölgüsü, professional rolların – müəssisə daxilində qeyri-

[37] Yenə orada.
[38] Yenə orada, s. 303.
[39] Yenə orada,s. 303.



bərabər bölünən nüfuzun bölgüsü və "bölgü qrupları" deyilənin mövcud olması".[40] Sinfin ölçülməsinə gəldikdə isə burada E.Giddens birmənalı şəkildə etiraf edir ki, "məşğuliyyət növü insanın sosial vəziyyətini, həyatda onun perspektivlərini və onun maddi rifahının səviyyəsini şərtləndirən ən həlledici amillərdən biridir".[41]

Bəşər cəmiyyətinin stratifikasyon təşkilinin labüdlüyünü P.Sorokin üç səbəblə izah edir. Bu səbəblərə aiddir:

1) Birgə mövcudluğun xarakteri. Birgə mövcudluğun əsas şərti olaraq "qrup üzvlərinin davranışının və həmin üzvlər arasındakı münasibətlərin tənzimlənməsi" institutu çıxış edir. Tənzimlənmə idarə edən və idarə olunan ... üzvlərin diferensiasiyası deməkdir. Necə adlanırsa adlansın, nəzarət edən mərkəz olmadan heç bir daimi təşkilat və heç bir birgə mövcudluq mümkün deyildir. Belə bir nəzarətedici mərkəz yaranan kimi sosial stratifikasiya meydana gəlir... Əhəmiyyətli olan budur ki, bu nəzarətedici hakimiyyət hakim dairənindir və yerdə qalan hər şey bu hakimiyyətdən asılıdır. Bu nəzarətedici hakimiyyətin yarandığı vaxtdan da sosial bərabərsizlik meydana gəlir. Toxumdan yaranan kimi buradan da sosial stratifikasiyanın digər formaları yaranır".[42] Sosial stratifikasiya sosial təşkilatın daimi xüsusiyyətidir. Bu mənada "oliqarxiya istənilən cəmiyyətin, istənilən qrupun və partiyanın fatal və labüd xarakteristikasıdır".[43] Lakin, müəllifin hesab etdiyi kimi, birgə mövcudluq prosesində daxili fərqlər sosial stratifikasiyanı ictimai həyatın istər üfüqi və istərsə də şaquli xəttləri üzrə dərinləşdirir və

[40] Yenə orada.
[41] Гидденс Э. Социология. М., 2005, с. 256.
[42] Сорокин П. Социальная мобильность. М., 2005, с. 305.
[43] Yenə orada.

ağırlaşdırır. "Əgər müxtəlif məziyyətlərə və qabiliyyətlərə malik fərdlər mövcuddursa, onların bərabərsizliyi faktı stratifikasiyada özünü büruzə verir. Onları necə istəyirsiniz paylaşdırın, onlar üçün istənilən şəraiti yaradın – istənilən qrupda, qoy lap bu yazısı olmayan ibtidai tayfa, cinayətkarlar dəstəsi, xristian icması, kommunist fraksiyası olsun, lap demokratik cəmiyyət və yaxud "levellərin" sektası olsun, onun üzvlərinin bərabərsizliyi bu və ya başqa formada özünü göstərmiş və həmişə göstərəcəkdir".

2) Daha sonra P.Sorokin bu ideyanı davam etdirərək qeyd edir ki, "heç bir sosial yenidənqurmaya qədərki fərdlər daxilən bir-biriləri ilə bərabərləşməyiblərsə, bu stratifikasiya faktını ləğv edə bilməz. Bunun üçün isə xromosomları bərabərləşdirmək lazımdır; bu isə yalnız Qadir Varlıq tərəfindən yerinə yetirilə biləcək vəzifədir".[44]

3) P.Sorokinə görə, üçüncü amil isə özünün rəngarəng və eynimənalı olmayan "spontan-təbii" tərzdə sosial stratifikasiyanı yaradan təzahürlərilə birlikdə götürülmüş ətraf mühitdir. Bu şərtlərə P.Sorokin hər şeydən əvvəl bunları aid edir: həyat şəraitini - əlverişli əlverişsiz. Misal olaraq, qızıl ehtiyatları ilə zəngin olan satın alınmış torpaq sahəsi və yaxud adlı-sanlı və yaxud yoxsul ailədə doğulmuş fərd. P.Sorokin yazır: "Müxtəlif həyat şəraiti birbaşa və ya dolayısı ilə fərdin daxili və xarici cizgilərinin dəyişməsilə nəticələnə bilər... Həyat başqa bir mühit şəraitində bir-birinə əks olan cizgilərin inkişafına səbəb ola bilər. Bunu istər coğrafi və istərsə də sosial mühit haqqında demək olar. Nəticədə də, vaxt

[44] Yenə orada.



keçdikcən daxilən identik olan fərdlər əhəmiyyətli dərəcədə dəyişə bilərlər. Qazanılmış əlamətlər əsasında bu fərdlər bir-birlərindən fərqlənməyə başlayırlar; bu fərq daxili ziddiyyətlər misalında olduğu kimi, həyat uğrunda, nəzarət uğrunda, həyati tələbatın təmin edilməsi uğrunda, hökmranlıq və nüfuz uğrunda mübarizədə bərabərsizlik yaradır. Bütün bunlar, bir qayda olaraq, stratifikasiyanın bu və ya digər formasının yaranmasına aparır".[45]

Pitirim Sorokin şaquli stratifikasiyanın, onun sözləri ilə desək, "şaquli sirkulyasiya"nın aparıcı amillərini çox dəqiqliyi ilə nəzərdən keçirir. İlkin amillər sırasına o, aid edir: 1) demoqrafik amillər. Bu amillərdə yuxarı təbəqələrin ya yox olub aradan çıxmalarına, ya da bütün əhalinin tərkibində onların nisbi ixtisarına gətirib çıxarır; 2) valideynlərin və uşaqların fərqi; 3) mühitin, xüsusilə antropososial mühitin dəyişməsi; 4) fərdlərin sosial təbəqələr üzrə düzgün olmayan sosial bölgüsü.[46]

Mübaliğəsiz demək olar ki, burada amil mənzərəsi o dərəcədə universaldır ki, bütün yerdə qalan və o qədər də az olmayan amillər müşayiətedici və yaxud P.Sorokinin irəli sürdüyü amillərdən törəmə amillər kimi görünür. Faktik olaraq mövcud sosial sirkulyasiya (dövran) demək olar "nəinki şaquli dövranın" dinamikasını işıqlandırmağa, həmçinin hazırkı sferada keyfiyyət xarakterli təkamülü izləməyə imkan verən sosial rentgenologiyadır.

Məsələn, P.Sorokin şaquli dövran üzrə demoqrafik amilləri nəzərdən keçirərkən hər şeydən əvvəl "sonsuzluq doğuran yuxarı siniflərdə doğumun aşağı düşməsinə və ölüm səviyyəsinin yüksəlməsinə səbəb olan qüvvələri" nəzərdə

[45] Сорокин П. Социальная мобильность. М., 2005, с. 308.
[46] Yenə orada, səh.313.

tutur.[47] Belə bir nəticəyə müəllif Avropaya və ABŞ-a aid böyük miqdarda statistik materialı öyrəndikdən sonra gəlmişdir. XX əsrin əvvəllərində Prusiyada, Beslauda, Bavariyada, Fransada, İngiltərə, Şotlandiya və ABŞ-da statistik məlumatların təhlili P.Sorokinə aşağıdakı nəticələrə gəlməyə imkan verdi: "məlumatlar göstərir ki, aşağıda göstərilən hallarda doğum səviyyəsi aşağı düşür, sonsuzluq dərəcəsi isə yüksəlir:

1) Eyni bir peşə çərçivəsində aşağı təbəqələrdən yuxarı təbəqələrə keçərkən; 2) ixtisassız fiziki əməklə məşğul olan təbəqələrdən daha intellektual və daha yaxşı əmək haqqı olan peşə nümayəndələrinə keçərkən; 3) iqtisadi cəhətdən yoxsul olan təbəqələrdən daha varlı təbəqələrə keçərkən; 4) aşağı sosial siniflərdən yuxarı siniflərə keçərkən.[48] Amerika Birləşmiş Ştatlarında P.Sorokin 1923-cü ilə dair statistik məlumatlardan istifadə edir və doğum və ölüm problemini artıq valideynlər, mühacirlər və ağ amerikan qızları arasında apardığı müqayisəli təhlil vasitəsilə nəzərdən keçirir.

P.Sorokinin gəldiyi nəticə bundan ibarətdir ki, valideynləri artıq Amerikada anadan olmuşlarla müqayisədə əsasən daha aşağı sosial vəziyyətə malik olan mühacirlərdə ABŞ-ın yuxarı sosial təbəqə nümayəndələrinə nisbətən doğumun səviyyəsi yüksəkdir. Müxtəlif təbəqələrə gəldikdə isə eyni bir peşə fəaliyyəti çərçivəsində yuxarı təbəqələrin nümayəndələrində doğum səviyyəsi ən aşağıdır.[49] Yuxarı təbəqələrdə doğumun aşağı səviyyədə olması amilinə P.Sorokin az

[47] Сорокин П. Социальная мобильность. М-2005, с. 313.
[48] Yenə orada, səh.314-315.
[49] Сорокин П.Социальная мобильность. М., 2005, с. 319.



əhəmiyyətli olmayan daha bir meyli əlavə edir. Yüzillərlə davam etmiş zorakılıq tendensiyasını buna aid edir.[50]

P.Sorokin şaquli dövranda demoqrafik amillərin ən mühüm aspektlərini ümumiləşdirərək bu nəticəyə gəlir ki, "daha aşağı doğum səviyyəsi, daha yüksək sonsuzluq faizi və zorakı ölüm səviyyəsi sosial piramidanın zirvəsində kifayət qədər universal xarakter daşıyır ki, onları sosial dövranın mühüm amilləri kimi nəzərdən keçirmək mümkün olsun". Bu ümumiləşdirmədən P.Sorokinin gəldiyi məntiqi nəticə bundan ibarətdir ki, zorakı ölümlə yanaşı aşağı doğum səviyyəsi elə bir vəziyyətin yaranmasına gətirib çıxarır ki, burada əhali artımı ilə və ölkənin əldə etdiyi ərazilərlə şərtlənən yenidən yaradılan yüksək postlar yalnız yuxarı siniflərin nümayəndələri tərəfindən tutula bilməz. Sosial piramidanın zirvəsində bir növ "sosial vakuum" əmələ gəlir və aşağı təbəqələrdən çıxanların yuxarıya doğru "dırmaşmalarına" zərurət yaranır.[51]

P.Sorokinin fikrinə görə, sosial dövrana və bu dövran prosesində meydana gələn meyllərə valideynlərin və uşaqların bir-birinə oxşamaması amili də əhəmiyyətli təsir göstərir. Müəllif irəli sürdüyü hipotezi xüsusi elmi ədəbiyyata, həmçinin postindustrial epoxasında XX əsr ABŞ-ı üçün səciyyəvi olan sosial dövran hərəkatının xarakteri üzərində apardığı öz xüsusi müşahidələrindən əldə etdiyi materiallara istinadlar etmək yolu ilə sübut etməyə çalışır. Məsələn, monoqrafiyada Fransis Haltonun əsərlərindən bir sıra ideyalar, xüsusilə də, onun "Zorakı dahilik" kitabından götürülmüş ideyalar təhlil olunur. Həmin kitabında F.Halton istedadlı valideynlərin istedadlı uşaqları haqqında və qüsurlu valideynlərin qüsurlu uşaqları haqqında açıq və birmənalı şərhi ilə yanaşı, hər halda, istisna etmir və qəbul edir ki, "Çox

[50] Yenə orada.
[51] Yenə orada, səh.324.

vaxt müşahidə edildiyi kimi, məşhurluq zirvəsinə çatmış insanlar özlərindən sonra layiqli varislər qoyub gedə bilmirlər".[52] Monoqrafiyada həmçinin doktor A.Marronun belə bir fikri gətirilir: "Doğrudur, elə uşaqlara təsadüf etmək olar ki, onlar valideynlərindən irsi olaraq qəbul etdikləri keyfiyyətlərin sayəsində tanınmış insanlar olmuşlar, lakin, əksinə, digər uşaqlar bu cür ümidləri doğrultmamışlar. Hippokratın tamamilə küt uşaqları acı anlaşılmazlıq doğurur; belə bir vəziyyət təəccübə səbəb olur ki, nə vaxtsa içərisindən Sokrat və Aristotelin çıxmış olduqları xalq heç bir elm qığılcımı yaratmamışdır; B.Karlın, böyük Pyotrun və T. Napoleonun oğulları korazehin olmuşlar".

P.Sorokin özü çox böyük tarixi materialı öyrənərək, həmçinin bu nəticəyə gəlir ki, "məşhur ailələrdən çıxmış uğursuz adamların əksəriyyəti bu həqiqəti təsdiq edən zəngin material verirlər. Digər tərəfdən, yüzlərlə tarixi hallar göstərmək olar ki, tamamilə adi valideynlərin uşaqları görkəmli və dahi insanlara çevrilmişlər. Məsələn, Şekspir, Bethoven, Şubert, Faradey, Paster, Linkoln və müstəqil olaraq müvəffəqiyyət qazanmışların böyük hissəsi nəyəsə nail olub yüksəlmişlər – bütün onlar bu cür amillər üçün nümunələrdir".[53]

P.Sorokin qismən oxşarlığın, çox vaxt isə valideynlərlə uşaqlar arasındakı oxşarsızlığın səbəblərini aydınlaşdırmağa çalışır və bu nəticəyə gəlir ki, "çox ehtimal ki, istər irsiyyətlə və istərsə də mühitlə bağlıdır. İrsiyyət amilinə gəldikdə isə hər iki valideynin genlərinin uğurlu və ya uğursuz birləşməsi sayəsində öz təsirini göstərir. Genlər o qədər çoxsaylıdır ki, eyni valideynlərdən olan uşaqlarda genlərin birləşmələri (kombinasiyaları) nadir hallarda eyni olurlar. Deməli, valideynlərə xas olan hansı xüsusiyyətlər (cəhətlər) onların

[52] Сорокин П. Социальная мобильность. М., 2005, с. 328.

[53] Yenə orada, səh.328.



gələcək nəsilləri tərəfindən itirilə bilər və əksinə"[54]. Öz hipotezini təsdiq etmək üçün P.Sorokin yenidən F.Haltonun ideyasına istinad edir. F.Halton yazırdı: "Yüksək zehni bacarıqlar bir araya sığmayan tərkib hissələrinin və təbii harmoniya halında olanların uğurlu birləşməsinin nəticəsidir. Bu tərkib hissələri arasında neqativ (mənfi) korrelyasiya əlaqəsi mövcuddur, ona görə də onlar heç də həmişə irsi olaraq ötürülmür... onlar arasındakı əlaqə çox asanlıqla pozulur və dahi əvəzinə lunatik və yaxud psixi xəstə doğulur".[55] Bu ideyaları təhlil edərkən P.Sorokin belə güman edir: "Ola bilsin elə bununla belə bir fakt izah olunur ki, zəif ağıllıların və ruhi xəstələrin faizi adi insanlara nisbətən istedadlı insanların nəsilləri içərisində yüksək olur. Digər tərəfdən, tərkib hissələrinin uğurlu birləşməsi bununla nəticələnə bilər ki, adi valideynlərdə uşaq istedadlı olsun".[56] P.Sorokinin bir neçə il müddətində, təxminən 1925-1930-cu illərdə amerikan həyat tərzi şəraitində apardığı müşahidələr ona aşağıdakı ümumiləşdirmələrə gəlməyə əsas vermişdir: "Monarxları və hökmdarları öyrənməyim göstərdi ki, bir sülalənin monarxlarının həyat müddəti, bir qayda olaraq, sonrakı nəsillərdə qısalır... İkincisi, amerikan milyarderlərinin tədqiqi göstərdi ki, hər şeyə müstəqil şəkildə nail olmuş "sənaye kapitanlarının" varislərinin üçüncü və sonrakı nəsillərinin nümayəndələri çox vaxt getdikcə mövcud tipdən daha çox fərqlənməyə başlayırlar. Pul toplamaq əvəzinə onlar bu pulu uğurla xərcləyirlər; karyera qazanmaq əvəzinə onlar dolce farniente (şirin, meyxoşedici, heç bir şeylə məşğul olmamaq-İtal.) vəziyyətində həyat keçirirlər və zövq, ləzzət dalınca düşürlər... Mən əminən ki, bu cür "cırlaşma" ümumi bir

[54] Сорокин П. Социальная мобильность. М., 2005, с. 329.

[55] Yenə orada, səh.329.

[56] Сорокин П. Социальная мобильность. М., 2005, с. 330-331.

hadisə deyil və bir sıra hallarda irsiyyət amilləri ilə şərtlənmiş olur".[57] Daha sonra, valideynlərin və uşaqların bir-birinə oxşamaması problemi ətrafında düşünərkən P.Sorokin belə hesab edir ki, obyektiv şəkildə təşəkkül tapmış bu cür situasiya daimi şaquli sirkulyasiya prosesi üçün zəmin yaradır. "Onlar arasında oxşarsızlıq nə qədər çox olarsa, fərdlərin sosial nərdivan boyunca könüllü və ya məcburi şəkildə yuxarıya və ya aşağıya doğru yerdəyişməsi o qədər daha çox zərurətə çevrilir... Bu yerdəyişmə üç əsas üsulla həyata keçirilir: birincisi, fərdlərin sosial testləşdirmə və seçim mexanizminin köməyilə həyata keçirilən önləyici yerdəyişməsi yolu ilə; ikincisi, fərdlərin anadan olduqları sosial təbəqədən yerdəyişməsinin cəzavermə üsulu mövcuddur; üçüncüsü, fərdlər öz mənşələri ucbatından, tutduqları vəziyyət onlara layiq olmayanda, narahatlıq hissi keçirməyə başlayırlar və öz vəziyyətlərini "təbii meylin" onlara diktə etdiyi üsul vasitəsilə dəyişməyə çalışırlar".[58]

P.Sorokinin fərqləndirdiyi ən əhəmiyyətli amil antroposial əhatədir. Burada isə istedad və müəyyən qabiliyyət bir mühitdə özünü parlaq şəkildə göstərir, digər şəraitdə isə nəzərə çarpmadan qala bilir. P.Sorokin yazır: "Strateq istedadına malik olan insan müharibə vaxtı sürətlə yuxarı qalxa bilər və dinclik dövründə heç yerindən tərpənməyə də bilər. Kristal təmizlik və asketizm orta əsrlərdə sosial yüksəlişə səbəb olmuşdur və elə həmin keyfiyyətlər mövcud olan indiki şəraitdə insanı puç edə bilər".[59] Bunun davamı olaraq müəllif bu münasibətlə gətirmiş olduğu bir sıra parlaq misallardan sonra öz fikrini aşağıdakı qaydada ümumiləşdirir: "İnsan varlıqlarının yaşadıqları mühit həmişə dəyişdiyinə

---

[57] Yenə orada, səh.328-329.

[58] Сорокин П. Социальная мобильность. М., 2005, с. 333-334.

[59] Yenə orada, səh.335.



görə, bizim zəmanəmizdə isə dəyişikliklərin tempi və dərinliyi xüsusilə böyük olduğundan, sosial həyatda daimi dövr amili iştirak edir".[60]

P.Sorokin nəinki müasir cəmiyyətin həyati proseslərinin nəbzini son dərəcədə hiss edən sosioloqdur. O, həmçinin sosial orqanizmin lap "anatomiyasına" nüfuz edir, istər fərdin və istərsə də mühitin, onların qarşılıqlı təsirlərindəki gündəlik həyatın vurnuxmaları arxasında gizlədilmiş imkanlarını üzə çıxarır. Bunla əlaqədar olaraq o, bu cür qarşılıqlı təsirlər barədə məntiqi nəticə çıxarır. Elə bununla əlaqədar fərdlərin adekvat olmayan sosial bölgüsü problemini P.Sorokinin necə anlaması böyük maraq doğurur. O yazır: "Keyfiyyət baxımından fərdlərin sosial bölgüsünün az qala daimi qüsuru insanların hər bir konkret zaman mərhələsində hər bir təbəqə üçün münasib olan tipi ilə fərdlərin sosial bölgüsü mexanizminin təsiri nəticəsində faktik olaraq seçilib götürülmüş olan tipi arasında uyğunsuzluqdan ibarətdir. Sosial həyatın daim dəyişməsi dəyişilmiş şəraitdə hər bir sinif üçün uyğun olan insanlar tipinin dəyişilməsini tələb edir. Hərb vaxtlarında cəmiyyətin mənafei bir tip liderləri, dinclik dövründə digər lider tipini tələb edir. Sosial qarmaqarışıqlıq dövrlərində anarxiyaların qarşısını almaq üçün Mussoliniyə bənzəyən insan tipi lazım ola bilər; həmin insan tipi sülh şəraitində normal cəmiyyətə uyğun gəlməz".[61] Lakin P. Sorokin cəmiyyətin sırf sosioloji problemləri ətrafında düşüncələrini davam etdirərək qeyd edir ki, cəmiyyətdə konkret situasiyaya uyğun olaraq vaxtında və çevik surətdə iş görə biləcək ideal mexanizm olmamışdır və yoxdur. Fərdlərin çevik sosial mexanizmi olmadığından faktik surətdə fərdlərin ziyanlı sosial bölgüsünün yenidən daimi istehsalı baş verir. Bu da bir

---

[60] Yenə orada, səh 336.

[61] Сорокин П. Социальная мобильность. М., 2005, с. 328.

çox cəmiyyətləri inqilabqabağı və inqilabi situasiyaya gətirib çıxarmışdır".[62]

P.Sorokin çox böyük miqdarda tarixi materialı bütövlükdə "İnqilabın sosiologiyası" əsərində ümumiləşdirmişdir.

## 2.3. "Orta sinif" anlayışı və postsovet cəmiyyətinin sosial stratifikasiyasında onun real hüdudları

Məlumdur ki, sosialist ictimai-iqtisadi sistemində sosial stratifikasiya makrososioloji səviyyədə qurulmuş, təhlil olunmuşdur və nəzəri olaraq marksist siniflər nəzəriyyəsinə əsaslanmışdır. Bütün postsovet məkanında bazar iqtisadiyyatına keçid dövründə, faktiki olaraq, tarixi situasiyanı (mürəkkəb və eynimənalı olmayan, bəzi vaxtlarda hətta dramatik situasiyanı) ifadə etmişdir. Bu situasiya isə sinfi parçalanmanın, makro səviyyədə (milli və dövlət səviyyəsində) aparıcı siniflərin "parçalanması"nın və cəmiyyətin sosial stratifikasiyasında yenidən bölgünün dinamikası ilə bağlı olan keyfiyyətcə yeni proseslərin əsasını qoymuşdur. Mahiyyət etibarilə keçid mərhələsi cəmiyyətində aktiv surətdə layların, təbəqələrin və alt siniflərin meydana gəlməsinə istiqamətlənmiş strukturlaşma prosesi başlanmışdır.

Məsələn, son illərin Rusiya sosiologiya ədəbiyyatında verilmiş sosioloji problematikaya diqqət yetirsək, görmək çətin deyildir ki, postsovet Rusiyasında iqtisadi və sosial stratifikasiya problemi bu gün ən aktual və Rusiya sosioloqlarını həyəcanlandıran problemlərdən biri olaraq qalmaqdadır. Xüsusilə, bir sıra müəlliflər hesab edirlər ki, XX əsrin 90-cı illərdə "dövlət mülkiyyətinin yenidən bölüşdürülməsi, xüsusi sektorun (bölmənin) yaranması, iqtisadiyyatın yenidən

[62] Yenə orada, səh.340-341.



strukturlaşması və işsizliyin meydana gəlməsi, sosial məqsədlərə yönəldilmiş dövlət müavinətlərinin ixtisarı, əmək haqqı miqdarının tənzimlənməsinin liberallaşması prosesi başlandı, bu da əhalinin maddi-əmlak diferensiasiyasının miqyaslı şəkildə artmasını şərtləndirdi".[63]

Keçid dövrü fəhlə sinfinin xüsusi mülkiyyətçilik kooperativ təsərrüfatlarına sürətli axınının əsasını qoydu. Bu təsərrüfatlarda fəhlə sinfi, demək olar ki, eyni şəkildə "əriyib qarışdı". Fəhlələrdən bəziləri qara fəhlə funksiyasını davam etdirdilər, yüksək ixtisaslı fəhlələr isə kiçik biznes yaratmaq imkanı əldə etdilər (çilingərlər, qaynaqçılar və s.), bununla da fəhlə sinfinin siyasi statusunun devalvasiyasının (qiymətdən düşməsinin) və onun iqtisadi strataya (təbəqəyə) doğru yerdəyişməsinin əsası qoyuldu. V.V.Truşkovla bunda razılaşmaq olar ki, onun hesab etdiyi kimi, bütün keçid dövrü ərzində "fəhlə sinfi tədqiqat obyekti olaraq diqqətdən kənarda qalmışdır. Fəhlə sinfi KİV-də yoxdur, elmi jurnallarda, demək olar ki, yoxdur, hakimiyyət dairələrində onun haqqında qayğıkeşlik sözləri söylənilmir, müxalifət ona o qədər də tez-tez müraciət etmir. Bəlkə o, qeyb olmuşdur, buxara çevrilmişdir, uçub getmişdir? Üstəlik də onun özündən də bir səs-

[63] Богомолова Т.Ю., Топлина В.С. Экономическая стратификация населения России в 90-е годы. В журн. Социологические исследования, 2001.

Müəlliflərin fikrincə, bazar iqtisadiyyatına doğru yerdəyişmə illərində iqtisadi stratifikasiya prosesi 10 stratanın formalaşması ilə nəticələnmişdir. Iqtisadi strataları fərqləndirən cədvəl əhalinin gəlirlərə görə bölgü strukturunun elementləri əsasında tərtib edilmişdir. Məsələn 1) bir yaşayış vahidinə yaşayış minimumunun 0,5-ə qədər ......???; 2)0,5 – до 1П.М.; 3) 1 – до 1,5 П.М.; 4) 1,5 – до 2,5 П.М.; 5) 2,5 – до 3,5 П.М.; 6) 3,5 – до 4,5 П.М.; 7) 4,5 – до 7 П.М.; 8) 7 - до 10,0 П.М.; 9)10 до – 15 П.М.; 10) более 15 П.М. на одну прожиточную единицу.

səmir yoxdur".[64] Fikirləşirəm ki, sosioloq tərəfindən məsələnin bu cür qoyuluşu tamamilə qanunauyğundur.

Azərbaycan, postsovet ölkəsi kimi, cəmiyyətin sinfi strukturunun makrososioloji modelindən mikrososioloji modelə - stratifikasiya strukturuna keçid dövrünü yaşayır. Keçid dövrü şəraitində sosial həyatın nisbətən kiçik bir müddətini yaşamışıq. Keçmişdə ən iri sinif olan fəhlə sinfinin bu gün siması nədir? Onun keyfiyyət və kəmiyyət tərkibi necədir? Ümumiyyətlə, özünün iqtisadi və sosial-siyasi statusunda kimdir? Yuxarıda sadalanan bütün bu suallar müstəqil tədqiqat tələb edir, elə buna görə də həmin məsələlərin təhlili monoqrafiyada nəzərdə tutulmayıb.

İqtisadiyyatın yenidən strukturlaşması, xüsusi strukturların yaranması və quruculuq templərinin artırılması postsovet məkanında sosioloqlar içərisində orta sinfin tədqiqini aktuallaşdırmışdır. Məsələn, Rusiyanın aparıcı sosioloqlarından olan Q.A.Zdravomıslovun fikrinə görə, "orta sinif" anlayışı və Rusiyanın keçid dövrünün həyat fəaliyyətində onun real hüdudları diskussiya predmetinə çevrilmişdir. Həmin diskussiya bu gün iki nöqteyi-nəzərə gətirib çıxarmışdır. Q.Zdravomıslovun fikrincə birinci qrupa aid olanlara görə orta sinif mövcud deyildir və hələlik onun barəsində bir anlayış kimi danışmaq olar. Digər cərəyanın nümayəndələri deyirlər ki, Rusiyada orta sinif artıq yaranmışdır, buna görə də onlar orta sinif barədə bir sıra təriflər irəli sürürlər. Məsələn, T.İ.Zaslavskaya hesab edir ki, orta sinfin yaranması üçün ilkin şərt cəmiyyətin son illərdə təşəkkül tapmış sabitliyidir. Öz müddəasını təsdiq etmək üçün T.Zaslavskaya Rusiya cəmiyyətinin strukturlaşmasının analitik sxemini təklif edir. Bunun əsasında da o, sonralar dörd təbəqə təklif

[64] Трушков В.В. Современный рабочий класс в России в зеркале статистики.



etmişdir. Yuxarı, orta (ortalıq), baza və aşağı təbəqələr. Q. Zdravomıslov T.Zaslavskayanın verdiyi nisbətdən bu nəticəyə gəlir ki, orta sinif Rusiya cəmiyyətinin orta təbəqəsidir. O da yekun cəmin 18%-ni əhatə edir və onu Q.Zdravomıslov protosinif (ilk sinif) adlandırır.[65]

T.M.Maleva orta sinifin müəyyənləşdirilməsinin meyarlarını nəzərdən keçirərək qeyd edir ki, "orta sinfin identifikasiyası problemlərinin maddi təminat, sosial-peşə statusu və subyektiv qiymətlər terminlərində bərabər dərinlik dərəcəsi ilə nəzərdən keçirilmiş ola biləcəyi tədqiqatlar, demək olar ki, yoxdur".[66] Faktik olaraq burada müəllif müasir tədqiqatların nöqsanını göstərir. Bu tədqiqatlar müəllifin nəzərincə, orta sinfin səciyyələndirilməsində birtərəfliliyi ilə özünü göstərir, yəni hələlik elə bir tərif yoxdur ki, orada iqtisadi-sosioloji xarakteristika sintetik cəhətdən bütöv formada təqdim oluna bilsin. T.Malevanın fikrinə görə "tədqiqatın əsasına qoyulmuş metodoloji yanaşmanın mahiyyəti aşağıdakı müddəalardan ibarətdir: orta sinfin öyrənilməsində bir inteqral meyar yoxdur, lakin bu sinif əlamətlərin zənciri ilə səciyyələnir. Bu əlamətlərə maddi gəlirlər, sosial-peşə statusu və orta sinfə mənsubluqda özünüduyma (özünüidentifikasiya) aiddir".[67] "Orta sinif" anlayışının daha dolğun və hərtərəfli izahının mühümlüyünü Rusiya sosioloqu V.V.Radayev də göstərir. O, yazır: "Bir sadə anlayışda çox güclü ehtiyatlar mövcud ola bilər. Siyasət üçün də, yeni ictimai ideologiya üçün də, yeni

[65] Здравомыслов Г.А. Российский средний класс – проблема границ и численности. В журн. Социологические исследования, с. 78 – 80.

[66] Малева Г.М. В поисках среднего класса: общие методологические подходы. В сб.: Средние классы в России. М., 2003, с. 30-31.

[67] Радаев В.В. О социологическом и идеологическом пониманиях среднего класса. В сб:. Средние классы в России. М., 2003, с. 25.

istiqamətlər axtarışında olan və itirilmiş həmrəylik hissini bərpa etmək istəyən çoxlu sayda insanlar üçün də".[68]

Son on ildə Azərbaycanda sahibkarlığın inkişaf dinamikasının statiskası göstərir ki, cəmiyyətin iqtisadi və sosial stratifikasiyasında baş vermiş köklü dəyişikliklər prosesi dönməz xarakter almışdır. Sinfi strukturdan makrososioloji səviyyədə cəmiyyətin stratifikasiyalı strukturunun mikrososioloji modelinə keçid, demək olar ki, başa çatmışdır.

Məsələn, 2003-cü ilə ümumi daxili məhsulda qeyri-dövlət bölümünün (sektorunun) payı 73,3% təşkil etmişdir.[69] Sənaye istehsalının 61,7%, kənd təsərrüfatı istehsalının 99,7%-i, əmtəə mübadiləsinin 98,5%-i, tikinti işlərinin 98,1%-i, göstərilən pullu xidmətlərin 75%-i, sərnişin daşınmalarının 86%-i, yük daşımalarının 58%-i və xarici ticarət dövriyyəsinin 59%-i xüsusi bölmənin payına düşür. Dövlət büdcəsi gəlirlərinin 41%-dən çoxu xüsusi bölmədən daxil olan gəlirlərin hesabına formalaşır.[70] Xüsusi bölmə sürətini artırmaqdadır. Təbii olaraq, sual meydana çıxır: Azərbaycanda orta sinfin təşəkkülünün reallığı nədən ibarətdir? İ.e.d., Azərbaycan tədqiqatçısı, əməkdar elm xadimi T.Quliyev yazır: "Sosial stratifikasiya nəinki maddi nemətlərlə, eyni zamanda şəxsiyyətin mülkiyyət münasibətləri ilə müəyyən olunan mənəvi durumu və sosial keyfiyyəti ilə şərtlənmişdir. Bu münasibətlər əmək fəaliyyətinin iqtisadi əxlaqının xarakterini müəyyən edir. Bu cəhətdən, fikrimizcə, "iqtisadi əxlaq" anlayışı "əmək əxlaqı" anlayışından xeyli genişdir. Beləliklə,

[68] Yenə orada, səh.31.

[69] По статистическим данным 2006 года процент негосударственного сектора составляет уже 81%.

[70] См.: Рзаева Ш. Новые формы организации предпринимательства в регионах. АМЕА Хябярляр. Иггисадиййат.Щуманитар вя Иътимаи Елмляр серийасы, №2, 2004, с. 92-93.



sosial stratifikasiyanın ölçülməsi yalnız pul vahidlərinə söykənməməlidir. Buna görə də, Qərb nəzəriyyələrində dəbdə olduğu kimi, peşə (professional) nüfuzu cədvəli müəyyən olunarkən həmçinin digər, həm də az əhəmiyyətli olmayan strat əmələgətirici əlamətlərdən və faktlardan çıxış etmək lazımdır".[71] Müəllif iqtisadi və sosial stratifikasiyanın mahiyyətini nəzərdən keçirərək belə hesab edir ki, orta sinfin fərqləndirici xüsusiyyətləri, göstəriciləri və xassələri haqqında düşüncələr (obyektiv və subyektiv tərəfləri) nisbi xarakter daşıyır. Müəllifin hesab etdiyi kimi, bu nisbilik özünü bir sıra istiqamətdə göstərir:

1) məsələn, əgər insan özünü hətta sırf formal olaraq orta sinfə aid edirsə də, özünün praktik gəlirinə görə o, müxtəlif status pilləkanında dura bilər;

2) kölgə iqtisadiyyatının nümayəndələrinin bir hissəsini uçota almağın həmişə çətinlikləri olar;

3) ilkin gəlirlərin (əmək haqqı, sahibkarlıqdan alınan mənfəət) uçota alınması ilə sosial transferlər arasında fərqlər;

4) dəyişikliklərin mobilliyi və dinamikliyi nəticəsində orta sinfin bəzi nümayəndələri öz gəlirlərinin səviyyəsinə və həyat standartına görə çox tez-tez bəzən yoxsul, bəzən isə varlılar kateqoriyasına meylli olurlar;

5) əhalinin gəlirlərinin və əmlakının dəqiq və təkmil uçotunun olmaması;

6) ümumi əhalidən orta sinfin seçilməsi göstəricilərinin şərti xarakteri;

7) gəlirlərin yenidən bölüşdürülməsi mexanizmlərində yer alan nöqsanlar (xətalar);

8) orta sinfə xas olan gəlirlər, xərclər və istehsal arasında uyğunsuzluq (varlıdan yoxsula və əksinə).[72]

[71] Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку, 2000, с. 313.

[72] См.:Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку, 2000.

Görməmək olmaz ki müəllif real fəaliyyət göstərən orta sinfin daha ciddi (obyektiv) göstəricilərinin müəyyənləşdirilməsində hər cür çətinlik yaradan şərtiliklərin aspektlərini kifayət qədər müfəssəl nəzərdən keçirir. Burada aşağıda göstərilən aspektlər nəzərdə tutulur:

1) Gəlirlərin həcmi;
2) Mülkiyyətin sahibi və əmlakın həcmi;
3) Uğurlu (müvəffəqiyyətli) inkişaf üçün siyasi azadlıq;
4) İnnavasiya fəaliyyətinin yaradılması üçün imkanlar;
5) Orta sinfin potensialına uyğun gələn sosial-iqtisadi dəyərlər.

Keçid dövründə professional yenidən oriyentasiya prosesləri üzərində aparılan müşahidələr bizə insanın baş vermiş situasiyada müraciət etdiyi axtarışların və ustanovkaların bəzi istiqamətlərini ümumiləşdirməyə imkan verdi (cədvəl-1).

**Cədvəl 1**

***Keçid dövründə şəxsiyyətin professional yenidən oriyentasiya olunması prosesində həll axtarışları***

| N/N | Peşələr | Yenidən peşə oriyentasiyası prosesində münasib fəaliyyət sferaları |
|---|---|---|
| 1. | İdarəetmə sferasının məmurları | a) İxtisas üzrə yeni iş axtarışlarında;<br>b) İxtisasını yenidən dəyişmə və istənilən sferada təsərrüfat fəaliyyətinə hazırlıq;<br>v) Biznes və menecerlik;<br>q) Kölgə iqtisadiyyatına çəkilmə. |
| 2 | Hökumət sferasının məmurları | a) Xidmət pillələrində irəliləmə;<br>b) Etik məhdudiyyətlərə məhəl qoymadan karyera yaradılmasına çalışma;<br>v) Biznesə getmək. |
| 3. | Partiya sferasının məmurları | a) Yeni idarəetmə strukturlarına keçmə;<br>b) Dövlət səviyyəli idarəetmə strukturlarına keçmə;<br>v) Kölgə iqtisadiyyatı ilə qovuşma;<br>q) Korrumpiya qrupları ilə qovuşma. |
| 4. | Mühədis-texniki işçilər | a) Peşəkar və qeyri-peşəkar fəaliyyətin uyğunlaşdırılması;<br>b) Yeni peşəyə keçilməsi;<br>v) Kiçik (xırda) biznes. |
| 5. | Elmi kadrlar | a) Elmi və pedaqoji fəaliyyətin uyğunlaşdırılması;<br>b) Öz peşəsinin imicinə böyük əhəmiyyət verir və həyat obrazında əxlaq normalarına əməl edir;<br>v) Elmi fəaliyyəti davam etdirir, lakin ictimai həyatdan tamamilə kənara çəkilir. |
| 6 | Həkimlər | a) Dövlət və xüsusi praktikanın uyğunlaşdırılması;<br>b) Məmur peşəsinin korrupsiya elementləri ilə yaxınlaşdırılması. |
| 7 | Pedaqoqlar | a) Dövlət və xüsusi praktikanın uyğunlaşdırılması;<br>b) İxtisasını yenidən dəyişmə və kiçik biznesə getmək ;<br>v) Evdə tərbiyə etmə fəaliyyəti;<br>q) Məişət xidməti sahəsinə çəkilmə. |
| 8 | Fəhlələr | a) Əsas və xüsusi işin uyğunlaşdırılması;<br>b) Yalnız əsas iş;<br>v) Məişət xidməti sahəsinə getmə;<br>q) Təsadüfi qazanc;<br>d) İşsizliyə görə müavinət. |

| | | |
|---|---|---|
| 9 | Yaradıcılıq peşələri | a) Yaradıcılıq və siyasi fəaliyyətin uyğunlaşdırılması;<br>b) Yaradıcılıq və kommersiya fəaliyyətinin uyğunlaşdırılması;<br>v) Yaradıcılıq fəaliyyətinin korrupsiyaya yaxınlaşdırılması. |
| 10 | Biznesmenlər | a) Korrupsiyaya uğramış məmurlarla yaxınlaşma;<br>b) Heç bir etik məhdudiyyəti qəbul etmir;<br>v) Özünün imicinə böyük əhəmiyyət verir;<br>q) Qəbul olunmuş ümumi əxlaq normalarına əməl etmir;<br>d) Maddi həvəsləndirmələrdən asılı deyil;<br>e) Öz fəaliyyətini ictimai mənafeyə həsr edir. |



# III Fəsil. Azərbaycanda orta sinfin təşəkkülü problemləri

## 3.1. Sosioloji tədqiqat hipotezi

Monoqrafiyada irəli sürülmüş hipotezin metodoloji bazasını funksionalizm məcrasında sosial dəyişikliklər nəzəriyyəsi təşkil edir. Funksionalizmdə "sosial fəaliyyətin bir növünün həmin fəaliyyətin sosial fəaliyyətin hər hansı digər bir növü, bütövlükdə institut və cəmiyyətlə bağlı onun nəticələrinin təhlili vasitəsilə izahı sistemin sabitliyinin təmin olunmasının şərti kimi çıxış edir".[73]

Müşahidələr göstərir ki, orta sinif cəmiyyətdə real hərəkətverici qüvvə kimi özünün təşəkkül və bazar iqtisadiyyatının əsas meyarlarını mənimsəməsi pilləsindədir.

Azərbaycanda orta sinfin istehsal sahəsində ən dinamik təbəqəsi kimi sahibkarlar təbəqəsinin təşəkkülü prosesi on ildə (1995-2005) hər şeydən əvvəl dünya iqtisadiyyatı çərçivəsində sahibkarlar təbəqəsi tərəfindən qazanılmış vərdişlərin və təcrübənin mənimsənilməsində ətalətlilik problemini üzə çıxardı. İlk nəzərdə gizli olan ətalətlilik Respublikada demokratiyanın mahiyyəti haqqında və cərəyan edən demokratik proseslər haqqında hələ də kifayət qədər zəif təsəvvürlərin mövcudluğu səbəbi ilə izah olunur. Konkret fəaliyyət sahəsində müvəffəqiyyətin şərti kimi "demokratik münasibətlər" və "demokratik təfəkkür üslubu" anlayışlarının mənası hələlik gündəlik praktik həyatda zərurət kimi də lazımi qaydada qavranılmır. Demokratiyanın mahiyyəti haqqında və respublikada baş verən demokratik proseslər haqqında təsəvvürlər əsas etibarı ilə səthi xarakter daşıyır.

[73] Аберкромби Н. и др. Социологический словарь. М., 1999, с.350.

Müvəffəqiyyətin şərti kimi "demokratik münasibətlər" və "demokratik təfəkkür üslubu" anlayışlarının mənası hələ ki, labüd norma kimi qavranılmır.

Şəhərdə orta sinif real hərəkətverici qüvvə kimi idarəetmə, istehsal və təhsil fəaliyyətinin öz məqsədləri və vəzifələri etibarı ilə müxtəlif xarakterli sahələrini əhatə edir. Şəhərdə orta sinfə xas olan peşə müxtəlifliyi şəhər mühitində orta sinfin rolunun spesifikasına da, bütövlükdə onun sosial, mədəni və siyasi həyatına öz möhürünü basır.

Rayon səviyyəli orta sinif. Burada bazar iqtisadiyyatında münasibətlərin demokratikləşməsi zərurətinin dərk edilməsi prosesi nəinki ayrı-ayrı fəaliyyət subyektlərində, eyni zamanda yerli əhəmiyyətli idarəetmə strukturlarında ləng gedir. Azad seçimə daxili hazırlığın olmaması, bir tərəfdən, yerlərdə idarəetmə strukturları tərəfindən məsuliyyətli münasibətin olmaması, digər tərəfdən rayon və kənd şəraitində orta sinfin təşəkkülü ilə bağlı olan islahat proseslərini ləngidir. Daha sonra, kənddə xüsusi sahibkarlıq üçün maddi-texniki bazanın çatışmaması həmçinin orta sinfin və hər şeydən əvvəl isə, onun sahibkarlıq təbəqəsinin təşəkkülünü ləngidən mühüm amillərdəndir.

Yaranmış vəziyyətdə həmçinin kənddə orta sinfin dirçəldilməsinin güclü stimulu kimi yerli istehsalının bilavasitə dirçəldilməsi amili də az əhəmiyyətli deyildir. Kəndin dirçəldilməsinə dövlət yardımı hələlik ilkin mərhələsindədir və fikirləşirik ki, perspektivdə belə kömək bazar iqtisadiyyatının möhkəmlənməsinə əsaslı şəkildə təsir göstərə bilərdi.

Fikrimizcə, bu gün maddi və mənəvi istehsalla məşğul olanların hamısını əsasən orta sinfə aid etmək olar. Bunlar o şəxslərdir ki, onlar hamıdan yaxşı, bəzilərindən isə pis yaşamırlar. Orta sinfin tələbatı daha çox sadədir, özünütəsdiq etməyə maraq isə vətəndaş yönümündən keçə bilər. Buna



görə də davranış vərdişləri, həyat tərzi və düşüncə tərzi, buna uyğun olaraq dinamik görünəcəkdir və sosial cəhətdən fəal olacaqdır. Bizim keçid dövrü reallığımızda sinfi özünüidentikləşdirmə prosesi həmçinin bununla mürəkkəbləşmişdir ki, peşələrin uyğunlaşdırılması adi hadisəyə çevrilir. Məsələn, deyək ki, pedaqoq bəzən işini həm də toxucu işi ilə uyğunlaşdırır. Bu cür təşəkkül tapmış sosial-iqtisadi situasiyada özünü hər hansı ayrıca bir siniflə identikləşdirmək, demək olar ki, qeyri-mümkün olar. Bu cür uyğunlaşdırmanın nəticəsində insanın sosial-status, özünüqiymətləndirməsinin ikiləşməsi baş verir. Bu, həm daxili, həm də xarici imkanların qeyri-müəyyənliyi şəraitində də insan istər iqtisadi və istərsə də sosial parametrlərə görə orta sinfə daxil edilir. Bu situasiyada fərd cəmiyyətin sosial strukturunda özünü "müvəqqəti", "nə isə orta" bir şey kimi hiss edir. Beləliklə, keçid dövrü cəmiyyətində o, hələ özünü cəmiyyətin, orta sinfin rifahı nöqteyi-nəzərindən ən mühüm və müəyyənedici olanın hissəsi olduğunu axıra qədər dərk etməmişdir.

Orta sinfin sosial tərkibi nədən ibarətdir? Bizim fikrimizcə, orta sinfə peşəkar fəhlələrin, həkimlərin, müəllimlərin, alimlərin, jurnalistlərin, mədəniyyət və incəsənət nümayəndələrinin, orta gəlirləri olan sahibkarların və fermerlərin bəzi təbəqələrini aid etmək olar. Başqa sözlə, orta sinfə qarışıq təbəqələr, özünün peşə fəaliyyəti ilə cəmiyyətin sosial əhəmiyyətli, yaradıcı fəal fonunu təşkil edənlər daxildir. Strukturuna görə orta sinif kifayət qədər rəngarəngdir. Əgər orta sinif haqqında texniki və ziyalı təbəqə kimi düşünsək, onda bu keyfiyyətdə orta sinif Sovet cəmiyyətində də mövcud olmuşdur. Bu məsələdə Rusiya sosioloqu A.S.Orlovla razılaşmamaq olmaz. O, sübut etməyə çalışır ki, orta sinif Rusiyada mövcud olmuşdur, lakin islahatların

gedişində yox olmuşdur. O, yazır: "İqtisadi materialistlər tərəfindən (yəni Qaydar-Çernomırdın hökuməti) sosial qanunauyğunluqlara etinasızlıq göstərilməsi orta sinfin sürətlə xaotik şəkildə aşılanmasına səbəb olmuşdur. V.V. Radayevin, O.İ.Şkaratanın qiymətləndirmələrinə görə, Sovet tipli "orta sinif" əhalinin 25%-ni təşkil etmişdir, lakin islahatlar orta sinfin əvvəlki təbəqələrini (qatlarını) məhv etmişdir və onlar gözlənilən yeni sinif üçün sosial baza yarada bilmədilər".[74] Lakin V.İ.Umovun da bu fikri az inandırıcı deyildir ki, Rusiyada bu peşə kateqoriyaları "həmişə bir-birindən qarşılıqlı surətdə, demək olar ki, təcrid olunmuşlar və öz xüsusi identikliyi olan birlik təşkil etməmişlər".[75]

Bütövlükdə, Qərb və Rusiya sosioloqlarının əsərləri ilə tanışlıq göstərir ki, "orta sinif" anlayışı ilə bağlı diskussiyalar hələ də davam etməkdədir; bu da, fikrimizcə, tədqiqatçı-sosioloqların istər Rusiyada, istərsə də bütün postsovet məkanında cərəyan edən son dərəcədə eynimənalı olmayan və çoxqütblü proseslərə təbii reaksiyasıdır. Belə fikirləşirik ki, orta sinif artıq öz adı ilə onu göstərir ki, bu təbəqə cəmiyyətin yuxarı və aşağı qatları arasında nə isə orta bir şeydir. Orta sinfin funksiyası onun bütün fəaliyyəti ilə cəmiyyətdə baş verən proseslərin balanslaşdırılmasının təşəkkülünə yönəldilmişdir.

Bazar sistemi şəraitində sahibkarlar və fermerlər orta sinfə birləşirlər. Orta sinif cəmiyyətdə maddi və mənəvi dəyərlərin təkrar istehsalı ilə məşğul olan birlikdir. Bazar iqtisadiyyatı şəraitində orta sinfin mobilliyi sosial və professional planda sürətlə artır. İxtisasın yenidən dəyişdirilməsi, peşələrin uyğunlaşdırılması, yeni iş yerlərinin axtarılması

[74] Радаев В.В., Шкаратан О.И. Социальная стратификация. М., 1996.
[75] Умов В.И. Российский средний класс: социальная реальность и политический фактор. Полис, 1993, № 4, с. 29.



məqsədilə baş verən miqrasiya prosesləri sosial mobillik sahəsində iqtisadi proseslərin liberallaşmasının nəticəsi kimi və müasir cəmiyyətin səciyyəvi xüsusiyyəti kimi çıxış edirlər. Əlbəttə, orta sinfin həyat tərzi, maraq dairəsi, həyat keyfiyyəti artıq başqa bir qiymətlər cədvəli üzrə sıralanır.

Azərbaycanın rayonlarında və Bakı şəhərində keçirdiyimiz pilot sorğusu ilkin olaraq yalnız konturlar şəklində orta sinfin həyat davamlılığı potensialını müəyyən etmək və bu potensialın hansı subyektiv şərtlərdən asılı olaraq formalaşdığını və artmasını aydınlaşdırmaq məqsədini güdmüşdür.

### 3.2. Sosioloji sorğu və onun ümumiləşdirilməsinin nəticələri

Bu gün insan "kapitalı" ilə və yaxud, başqa sözlə artıq bu fəaliyyətə qoşulmuşlarda formalaşmış sahibkarlıq və yaradıcılıq *vərdişlərinin potensialı ilə bilavasitə bağlı olan yeni* sosioloji məsələlər ortaya çıxır. Bununla əlaqədar olaraq AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Sosiologiya və sosial psixologiya" bölməsi Azərbaycanın bir sıra rayonlarında sahibkarlar və orta biznes nümayəndələri arasında* pilot sorğusu aparmışdır. Sualların birinci bloku sahibkarlıq fəaliyyətinə qoşulmuş insanın adaptasiya səviyyəsini müəyyən etmək məqsədini güdürdü. Bununla əlaqədar olaraq qarşımızda bu vəzifə dururdu: sosioloji sorğular vasitəsilə respondentlərin məlumatlılığının, onların daxili hazırlıq potensialının, rayon və kənd şəraitində onların xüsusi sahibkarlıq fəaliyyətinə girişməsinin obyektiv imkanlarının səviyyəsini müəyyən etmək. Monoqrafik tədqiqatın empirik hissəsində

* Cədvəldə cavab verməyənlərin faizi göstərilməmişdir.

biz konkret vəzifələr qoymuşuq: professional qruplar bu gün özlərini orta siniflə identikləşdirməyə nə dərəcədə qadirdirlər.

Sorğu vəsiqəsi-anket orta sinfi müəyyən etməyin əsasını təşkil edən iqtisadi, peşə, nüfuz-status parametrlərinin uçota alınması ilə tərtib olunmuşdur. Qarşıya qoyulmuş vəzifə müəyyənedici sualların 4 blokunu irəlicədən zəruri etmişdi. Hər bir blokda respondentlərin özlərinin peşə fəaliyyəti ilə eynilik təşkil etmələrinin dərəcəsi haqqında təsəvvürlərinin təxmini mənzərəsini verə biləcək 4-5 cavab variantı qoyulmuşdur.

Tədqiqatın empirik bazasını Azərbaycanın ayrı-ayrı kənd rayonları (Şamaxı, Göyçay, Bərdə, Xaçmaz, Hacıqabul) və Bakı şəhərinin bir sıra rayonları təşkil edir. Tədqiqatda biz belə bir gümanı əsas götürmüşdük ki, orta siniflər daha artıq dərəcədə vilayət mərkəzlərində və mərkəzi şəhərlərin ətraflarında yerləşmişlər. Bu səbəbdən də baza seçimi rayon mərkəzləri şəraitində yaşayış məskənlərinin və qismən kənd məskənlərinin tipi nəzərə alınmaqla tərtib olunmuşdur; ikinci qrupu şəhər infrastrukturu çərçivəsində ev təsərrüfatları təşkil edir. Sosial "dib" təbəqəsi (dilənçilər, bomjlar və kimsəsizlər) və yüksək sosial qat (elita və onların ev təsərrüfatları) müşahidələrdən kənarda qalmışdır. Bunlar, əlbəttə, xüsusi metodika üzrə öyrənilə bilər.*

Respondentlər ev təsərrüfatlarından təsadüfi seçilmiş 18 yaşında və ondan yuxarı şəxsdən ibarət idi. Tədqiqat instrumentarisi (aləti) ev təsərrüfatına və yaxud onun bütün üzvlərinə aid olan birtipli indikatordan ibarət idi.

* Ev təsərrüfatı dedikdə indiki halda qohumluq əlaqələrilə və qeyri-qohumluq münasibətləri ilə bir-biri ilə bağlı olan, lakin mütləq birlikdə yaşayan və birgə büdcəsi olan şəxslər qrupu nəzərdə tutulur.



İnformasiya toplamaq metodikası: anketin suallarına anonim və sərbəst şəkildə cavab vermək imkanı səmimi cavablar vermək əhval-ruhiyyəsi yaratmışdı.

Sorğunun alətləri. Sorğunun alətini anketlər təşkil edir (rayon üçün anket variantı, şəhər üçün anket variantı). Anketə əsas sualların dörd variantı daxil olur. Burada hər bir blok cavabların bir neçə variantı nəzərdə tutur.

Anketdə əks olunmuş əsas ideyaların mənası respondentlərin bir sıra əsas suallara dispozisiyalarının aşkara çıxarılmasına yönəldilmişdir. Bu suallar hər şeydən əvvəl, aşağıdakı problemlərlə bağlı idi: a) demokratikləşmə və hüquqi şüurun təşəkkül tapması; b)peşə mənsubiyyətinin sinfi özünü-identikləşdirmə ilə uyğunluq dərəcəsi; v) iqtisadi vəziyyət; q) sosial status (təhsil səviyyəsi və ailə vəziyyəti). Dörd blokdan hər biri, öz növbəsində, cavabların variantlarına malik olan bir sıra alt qrupları nəzərdə tutur. Azərbaycanın rayonlarında sosioloji sorğu anketləri əhalinin məşğulluğunun spesifikası nəzərə alınmaqla tərtib olunmuşdur. Əksəriyyət etibarı ilə bunlar sahibkarlığa, maldarlığa və torpaq mülkiyyətinə meylli olan ev təsərrüfatlarıdır. Burada sorğu 180 respondenti əhatə etmişdir.

Anketin əsas sualları dörd bloka ayrılmışdı və konkret məqsədlər daşımışdır: bir tərəfdən, sahibkarlıq fəaliyyətinə daxili hazırlıq potensialını aşkara çıxarmaq, digər tərəfdən isə, fəaliyyət subyektini xüsusi sahibkarlıq sferasına daxil etmək üçün mühitin obyektiv imkanlarını müəyyən etmək.

**I Blok** – mühitin demokratikləşməsi və hüquqi şüurun təşəkkülü (2-ci cədvəl).

*2-ci cədvəl*

***İqtisadiyyatdakı islahatlar sizin peşə taleyinizə necə təsir göstərmişdir? (%-lə).***

| Cavablar | Faizlər |
|---|---|
| Mənim peşəm bugün aktual deyil | 3,3 |
| Bu gün tələb olunan peşə əldə etmişəm | 2,8 |
| İqtisadi islahatlar insandan daha böyük məsuliyyət tələb edir | 3,3 |
| İqtisadi islahatlar daim özünü təkmilləşdirməyə yönəldilmiş daxili tələbati stimullaşdırır | 39,4 |
| Öz peşəmi dəyişmişəm | 14,4 |
| Bu suallara cavab verməkdə çətinlik çəkiblər | 6,1 |
| Bilmirəm | 30,7 |

Beləliklə də, birinci blokun birinci altqrupunun cavabları güman etməyə əsas verir ki, sorğu olunanların (1,3 və 1,4) əsas əksəriyyəti və ya 73%-i iqtisadi islahatları iqtisadi fəaliyyətə qoşulanların və təşəkkül tapmış situasiyanı öz işinə məsuliyyətli yanaşmaq zərurəti və özünütəkmilləşdirməyə səy göstərilməsinin labüdlüyü kimi dərk edənlərin hər birinin iqtisadi həyatında həyat mövqeyini yenidən düşünməyə "siqnal" kimi başa düşür. Bununla belə, təşəkkül tapmış situasiyadan gələn bir neçə impulslar hələ də aydınlaşdırılmamış qalır. Bu isə fəaliyyətə yönəliş kimi dərk olunur. Hələ aydınlaşdırılmamışdır ki, sorğulananların neçə faizi onlara şəxsən aid olan problem ətrafında düşüncələr səviyyəsində qalır və neçə faizi düşüncələrdən real fəaliyyətə keçmişdir, yəni elə bir fəaliyyətə ki, anlama onu subyektiv sərbəst fəaliyyət seçimi kimi hazırlayır. Sorğulananların 14%-dən çoxu öz peşəsini dəyişmişdir, lakin bu yerdəyişmənin onları nə dərəcədə təmin etməsi barədə sual açıq qalmışdır. Sorğulananların yalnız az bir faizi – 2,8%-i cavab verdi ki, bu



gün tələb olunan peşəni əldə etmişlər. Sorğulananların 6%-dən çoxu rayonun iqtisadi həyatında baş verənlərin mənasını çətinliklə başa düşür, 30%-dən çoxu isə, ümumiyyətlə, cavab verməmişlər (3-cü cədvəl).

*3-cü cədvəl*

***Siz fəaliyyətinizdə öz hüquqlarınızdan tam şəkildə istifadə edirsinizmi? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Müsbət cavab verdilər | 76,6 |
| Çox çətinliklə | 17,2 |
| Istifadə etmirəm, belə ki, bürokratik maneələrlə rastlaşıram | 6,1 |
| Cavab vermədilər | 0,1 |

Əgər burada sonuncu iki variantı (2,2 və 2,3) ümumiləşdirsək, aşkar olar ki, sorğulananların dörddə biri yerlərdəki bürokratik əngəllərə görə öz hüquqlarından imtina edirlər (3-cü cədvəl).

*4-cü cədvəl*

***Demokratik münasibətlərin mahiyyətini Siz necə başa düşürsünüz? ( % -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Demokratik olmaq, azad olmaq deməkdir | 38,3 |
| Qarşılıqlı demokratik münasibətlərin mahiyyəti qarşılıqlı məsuliyyəti nəzərdə tutur | 17,1 |
| Mənim azadlığım digərlərinin azadlığını nəzərdə tutur | 7,2 |
| Azad olmaq əxlaqi və hüquqi normalara baxmayaraq öz maraqlarını reallaşdırmaq imkanı deməkdir | 3,2 |
| Demokratik münasibətlərin mahiyyətini açmaqda çətinlik çəkdilər | 4,2 |

Beləliklə, demokratik münasibətlərin mahiyyətinin başa düşülməsində sorğulananların 40%-ə qədəri demokratik münasibətləri şəxsi azadlıqla eyniləşdirirlər, sorğulananların 7,1%-i şəxsi azadlığın mahiyyətini həmçinin başqalarının azadlığının nəzərə alınması kimi başa düşürlər. Bununla belə, sorğulananların yalnız 3,2%-i azadlığı özünün eqoistik maraqlarının fərqinə varmadan təmin olunması kimi başa düşürlər. Sorğulananlardan demokratik münasibətlərin mahiyyətini başa düşməkdə çətinlik çəkənlərin faizi – 34% narahatçılıq doğurur.

Birinci bloka aid ümumiləşdirmələr bütövlükdə rayon səviyyəsində islahat proseslərinə daxil olmanın və onlara adaptasiya dərəcəsinin "mənzərəsini" nisbi dəqiqliklə başa düşməyə əsas verir: iqtisadi islahatlar əsasən şəxsiyyət qarşısında onun peşəkarlığına qarşı yüksək tələblər irəli sürən aşkar və aşkar olmayan çağırış kimi, obyektiv labüdlük kimi qəbul olunur. Sorğu göstərir ki, demokratikləşmə prosesləri və hüquqi şüurun formalaşması hələlik təşəkkül tapma mərhələsindədir (4-cü cədvəl).

*5-ci cədvəl*

***Siz özünüzü cəmiyyətin hansı təbəqəsinə aid edirsiniz? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Cəmiyyətin orta təbəqəsinə | 62,3 |
| Cəmiyyətin ali-orta təbəqəsinə | 8,4 |
| Cəmiyyətin aşağı-orta təbəqəsinə | 6,8 |
| Özümü cəmiyyətin heç bir təbəqəsinə aid etmirəm | 22,5 |

Cədvəldən göründüyü kimi, kənddə özünüidentikləşdirmə sorğulananların kifayət qədər yüksək faizini əhatə edir, lakin eyni zamanda da onlar özlərini cəmiyyətin təbəqələrindən heç birinə aid etmirlər (20 %-dən çox) (5-ci cədvəl).

*6-cı cədvəl*

***Sizin təsərrüfatınız hansı təsərrüfat tipinə aiddir? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Xüsusi ailə təsərrüfatı | 74,4 |
| Kəndli fermeri | 1,7 |
| Digər fəaliyyət sahələri | 24 |

Göründüyü kimi, xüsusi ailə mülkiyyəti hələ də başlıca əksəriyyəti təşkil edir, halbuki kənddə fermerlik hələ də rüşeym halındadır. Burada qeyd etmək lazımdır ki, rayon şəraitində xüsusi sahibkarlığın təşəkkül tapması öz başlanğıcını 1996-cı ildən götürür və bu proses sürətlə 2000-ci illərə qədər davam edir; əgər 1996-cı ildə rayonlarda 9,8 % xüsusi ailə təsərrüfatı vardısa, 1999-cu ildə belə təsərrüfatlar artıq 93,65 % təşkil edirdi. Hazırkı vaxtda həmin rəqəm 98 %-dir (6-cı cədvəl).

*7-ci cədvəl*

***Mülkiyyəti olan əkinçilər (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 4 hektara qədər torpağı olan | 69 |
| 10 hektara qədər torpağı olan | 13,5 |
| 10 və daha çox hektar torpağı olan | 6,7 |
| Torpağı olmayanlar | 10,8 |

Bu rəqəmlər onu göstərir ki, bu gün kənddə xırda sahibkarlar ən yaxın gələcəkdə rayon şəraitində orta sinfin formalaşması üçün potensiala və mühüm bazaya malikdirlər (7-ci cədvəl).

*8-ci cədvəl*

***Daha çox torpaq satın almağa Sizin imkanınız varmı?***
*(% -lə)*

| Cavablar | Faizlər |
|---|---|
| Belə bir imkana sahib deyiləm | 66,7 |
| Bilmirəm | 13,3 |

Ümumilikdə götürdükdə kənddə sahibkarların 70 %-ə qədərinin yeni torpaq sahələri almaq üçün lazımi kapitalı yoxdur (8-ci cədvəl). Yerdə qalanlar isə qeyri- müəyyənlik vəziyyətindədirlər.

*9-cu cədvəl*

***Yeni torpaq sahəsinin satın alınmasını çətinləşdirən üç əsas səbəbi söyləyin (% -lə).***

| Cavablar | Faizlər |
|---|---|
| Torpağın alqı-satqısı ilə məşğul olan konkret təşkilatları tanımaması | 10 |
| Torpağın alqı-satqısı üzrə prosessual müddəaları bilmirlər | 15 |
| Müqavilənin bağlanması çox baha başa gəlir | 25 |
| Torpağı satın almaq üçün təsərrüfatın maliyyə imkanları yoxdur | 50 |

Sorğulanmış respondentlərin burada yarıdan çoxunun maddi çətinliklər üzündən yeni torpaq sahəsi əldə etmək imkanları yoxdur. Sorğulananların yarısı müqavilə prosedurasının özünün yüksək qiymətləri ucbatından çətinlik çəkirlər (9-cu cədvəl).



*10-cu cədvəl*

***Hansı səbəblər Sizi torpağı satmağa məcbur edə bilər?***
*(% -lə)*

| Cavablar | Faizlər |
|---|---|
| Satmaq fikrində deyiləm | 98,1 |
| Cavab vermədilər | 1,9 |

Beləliklə, torpağa bağlılıq güman etməyə əsas verir ki, 1) əgər bazar qanunları işləməyə başlayarsa, kənddə orta sinif inamla inkişaf edərək daha da möhkəmlənəcəkdir; 2) yoxsulluq probleminin həll olunması (sorğulananların həyat səviyyəsi kafi deyildir (10-cu cədvəl).

Bu həmçinin 3-cü blokun suallarına verilən cavablarda da təsdiq olunur.

**III Blok.**

*11-ci cədvəl*

***Sizin ailə xərcləriniz və Sizin şəxsi mülkiyyətiniz (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Ailə mülkiyyəti 400 manata qədər | 15,6 |
| Ailə mülkiyyəti 300 manata qədər | 27,1 |
| Ailə mülkiyyəti 200 manata qədər | 37 |
| Ailə mülkiyyəti 100 manata qədər | 19,2 |
| Ailə mülkiyyəti 50 manata qədər | 1,1 |

Beləliklə, kənddə bu gün yoxsulluq həddindən kənarda cüzi bir azlıq qalır (1,1 %), lakin ailə xərcləri ilə və ailənin mülkiyyəti ilə bağlı maddi vəziyyət, həmçinin ailənin zəruri minimumu o qədər də yaxşı deyildir (11-ci cədvəl).

*12-ci cədvəl*

***Sizin torpaq sahənizin orta ölçüsü ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 30 hektara qədər torpaq sahəsi | 1,1 |
| 20 hektara qədər torpaq sahəsi | 0,6 |
| 10 hektara qədər torpaq sahəsi | 4,8 |
| 5 hektardan 1 və 0,5 hektara qədər torpaq sahəsi | 95,5 |

Cavablardan göründüyü kimi, kənddə iri torpaq sahibkarlarının sayı sorğulananların 5 %-nə də çatmır. Böyük əksəriyyət (95,5 %) xırda mülkiyyətçilərdir. Bütövlükdə, müqayisəli təhlil göstərdi ki, şəxsi mülkiyyətində torpağı olanlardan yüksək orta sinif səviyyəsində özünü reallaşdırmaq imkanına 5%-ə qədəri malikdir. Əgər nəzərə alsaq ki, obyektiv səbəblər (bazar və hüquqi şüur qanunları zəif işləyir, həmçinin ilkin kapitalın zəif bazası) xırda sahibkar təsərrüfatlarının inkişafını hələ də ləngidir, onda belə xülasə vermək olar ki, ən yaxın gələcəkdə rayonlarda orta sinfin sıralarına keçmək üçün bazar imkanlarına sorğulananların 5%-ə qədəri malikdir (12-ci cədvəl).

Rayonlarda daha əlverişli vəziyyətdə maldarlıq sahəsində ixtisaslaşmış sahibkarlardır.

*13-cü cədvəl*

***İri və xırda buynuzlu malqaranın mövcud olması haqqında (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Bir başdan on başa qədər iri və xırda buynuzlu malqara | 66 |
| 10 başdan daha çox (bəzilərində 70-80 başa qədər) iri və xırda buynuzlu malqara | 34 |



Cədvəldən göründüyü kimi, əkinçi sahibkarlarla maldar sahibkarlar arasında aparılmış təhlil göstərdi ki, bu iki sferada orta sinif sıralarına keçmək imkanları heç də eyni deyildir.

imkanlar → əkinçi sahibkarlar arasında - 5%.
imkanlar → maldar sahibkarlar arasında – 50%.

Düşünürük ki, Azərbaycanın perspektiv inkişafı bu və ya digər regionun bazar imkanlarının nəzərə alınması ilə planlaşdırılacaqdır (13-cü cədvəl).

*14-cü cədvəl*

***Hazırda Sizin iş yeriniz ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Əvvəlki işimdə qalmışam | 52,8 |
| Əvvəlki işimi muzdlu işlə uyğunlaşdırıram | 10,2 |
| İxtisasımı dəyişmişəm | 16,5 |
| İkinci ixtisas qazanmışam | 5,6 |
| Cavab verməkdən yayındılar | 14,9 |

*15-ci cədvəl*

***Rayonda sorğulananların ümumi tərkibi ? ( % -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Kişilər | 99,4 |
| Ali təhsilli | 4,7 |
| Orta təhsilli | 33,3 |
| Mühasiblər, aqronomlar, baytarlar, biznesmenlər, ticarət işçiləri | 58 |

Burada demək olar ki, kənddə sahibkarlıq fəaliyyəti hələ də kişilərin inhisarındadır, lakin onların arasında yalnız 5%-ə qədəri ali təhsilli sahibkarlardır. Xüsusi texniki təhsilli olanlar sorğulananların 60%-ni təşkil etmişdir. Bununla yanaşı "Sizin kənd təsərrüfatı üzrə xüsusi təhsiliniz varmı" sualına 65,5 % cavab verdi ki, "yoxumdur".

Beləliklə, əgər özünü orta sinfə aid edənləri (63.2%) ixtisas təhsili olmadan (65,5 %) kənddə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların faiz nisbətilə müqayisə etsək, proqnozlaşdırmaq olar ki, yaranmış vəziyyətdə ən yaxın perspektivdə sahibkarlıq fəaliyyətində yüksək rentabellik gözləmək mümkün deyildir.

## Şəhər

Sosioloji sorğulara paralel olaraq Azərbaycanın rayonlarında olduğu kimi, biz Bakı şəhərində də pilot sorğusu keçirmişik (şəhər infrastrukturuna uyğun müəyyən düzəlişlərlə). Burada bizim tədqiqatlarımız üç blokda cəmləşdirilmişdir:

**I Blok** – Mühitin demokratikləşməsi və hüquqi şüurun təşəkkül tapması

*16-cı cədvəl*

***Siz Respublikada iqtisadi və sosial sahədə baş vermiş dəyişiklikləri nə dərəcədə hiss edirsiniz? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Kifayət dərəcədə | 23,1 |
| Müəyyən dərəcədə | 49 |
| Az dərəcədə | 21,2 |
| Hiss etməmişik | 8,7 |



Beləliklə, sorğulananların yarısına qədəri iqtisadi və sosial həyatda baş vermiş dəyişikliklər haqqında ehtiyatla fikir söyləyirlər. 30 %-ə qədəri bu dəyişiklikləri çox zəif hiss etmişlər və ya ümumiyyətlə, hiss etməmişlər, sorğulananların yalnız beşdə biri hesab edir ki, bu dəyişikliklər kifayət qədər aydın nəzərə çarpır (16-cı cədvəl)

*17-ci cədvəl*

***Siz bu dəyişiklikləri necə qiymətləndirirsiniz ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Müsbət | 26,9 |
| Demək olar ki, müsbət | 29,9 |
| Qənaətbəxş | 19,6 |
| Mənfi | 20,6 |
| Cavab verməyiblər | 3 |

Göründüyü kimi, baş vermiş dəyişikliklərin qiymətləndirilməsində sorğulananların 60 %-dən çoxu bu dəyişiklikləri müsbət və qənaətbəxş kimi qiymətləndirirlər və yalnız 10 %-i onlarda mənfi təsir görürlər. Lakin indiki halda sorğulananların, demək olar ki, dörddə birinin bu dəyişikliklər haqqında məlumatları yoxdur, deməli onlar bu dəyişiklikləri görmürlər (17-ci cədvəl).

*18-ci cədvəl*

***Baş vermiş dəyişikliklər Sizin peşə yönümünüzə nə dərəcədə təsir göstərmişdir ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| İşsiz olaraq qalıram, belə ki mənim ixtisasıma tələbat yoxdur | 7 |
| Ikinci peşəni əldə etmək qərarına gəlmişəm | 11,5 |
| Bugün işə daha məsuliyyətlə yanaşıram | 49 |
| Mən öz peşəmi sevirəm və yeni ixtisasda təkmilləşməyə çalışıram | 20,3 |

| | |
|---|---|
| Öz işimi ikinci ixtisasla uyğunlaşdırıram | 8,7 |
| İxtisasım üzrə iş tapa bilmədiyim üçün peşəmi dəyişdim | 4,8 |
| Heç bir dəyişiklik yoxdur | 1,7 |
| Heç bir təsiri yoxdur | 1 |
| Yox, vəziyyət daha da pisləşir | 1 |

Cavablardan aydın olur ki, peşə yönümü problemi müəyyən qrup şəhər əhalisinə kifayət qədər ciddi toxunmuşdur. Sorğulananların 20 %-dən çoxu öz peşəsini dəyişmək barədə düşünmür. Öz peşəsini dəyişmək fikrində olmayanlar ikinci ixtisası əldə etmək istəyirlər – 20 %. Sorğulananlar içərisində 11,5 %-i peşələrini dəyişmək qərarına gəlmişlər. Bu altqrupda sorğulananların ən böyük faizi, yəni 49 %-i cavab verdilər ki, "bugün işə daha məsuliyyətlə yanaşıram". Ümumi şəkildə ixtisasa tələbatın olmaması və yaxud "vəziyyət pisləşmişdir", "dəyişiklik yoxdur", "təsiri yoxdur" ümumi şəkildə 5 %-ə qədər təşkil edir (18-ci cədvəl).

*19-cu cədvəl*

***Siz fəaliyyətinizdə öz hüquqlarınızdan tam şəkildə istifadə edirsinizmi? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Bəli, tam şəkildə | 29,8 |
| Bəli, müəyyən dərəcədə | 37,5 |
| Böyük çətinliklərlə | 21,2 |
| Xeyir | 11,5 |

Göründüyü kimi, burada sorğulananların üçdə birinə qədəri – 29.8 %-i öz hüquqlarından istifadə edir, bu hüquqlarından sorğulananların artıq 37 %-dən çoxu qismən istifadə etmir. Sərhəd cavablarında (4,3 və 4,4) hüquqlardan



istifadə olunduqda müəyyən əngəllərlə rastlaşdıqda və yaxud istifadə etmədikdə, cəm halında təxminən 39 % təşkil edir (19-cu cədvəl).

*20-ci cədvəl*

***Əgər Siz öz hüquqlarınızdan lazımi dərəcədə istifadə edə bilmirsinizsə, əsas səbəbləri göstərin ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Öz hüquqlarım haqqında lazımi təsəvvürüm yoxdur | 35,8 |
| Bürokratik məhdudiyyətlər mane olur | 34,6 |
| Buna xüsusi marağım yoxdur | 14,4 |
| Bilmirəm | 11,7 |
| Digər səbəblər | 3,5 |

Bu altqrupda öz hüquqları haqqında təsəvvürlərin aşağı səviyyəsi ilə ən böyük faiz (35,8 %) bu hüquqlardan istifadə olunmasına mane olan andan az olmayan yüksək səviyyə (34,6 %) bürokratik əngəllərlə bağlıdır (20-ci cədvəl).

*21-ci cədvəl*

***Siz demokratik münasibətlərin mahiyyətini necə başa düşürsünüz? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Demokratik olmaq azad olmaq deməkdir | 25,2 |
| Mənim azadlığım əks tərəfin azadlığını da qəbul edir | 12,7 |
| Azad olmaq əgər hətta hüquqi və əxlaqi normalara zidd olsa da, öz maraqlarını realizə etmək deməkdir | 14,8 |
| Demokratik münasibətlər sosial ədalətə əməl etmək deməkdir | 37,3 |
| Demokratik münasibətlərin əsas şərti qarşılıqlı məsuliyyətdir | 9,5 |
| Cavab vermədilər | 0,5 |

Beləliklə, sorğu aşağıdakı nəticələri göstərdi:

Sorğulananların 40 %-ə qədəri hesab edir ki, demokratik münasibətlər ədalət üzərində qurulmuşdur, sorğulananların dörddə birindən çoxu isə hesab edir ki, başqalarına demokratik yanaşma başqalarına münasibətdə öz azadlığını ifadə etmək deməkdir; mənim azadlığım başqasının azadlığını nəzərə almalıdır (10 %-dən çox). Cavab belədir ki, öz maraqlarını realizə etmək lazımdır, hətta bu maraqlar hüquqi və əxlaqi normalara zidd getsə də. Bu da cavabların 15 %-ni təşkil edir (21-ci cədvəl).

**II Blok** – Suallar bilavasitə şəhərlinin orta sinfin mahiyyəti haqqında və onun özünü identikləşdirməsi haqqında təsəvvürlərinin müəyyənləşdirilməsi ilə bağlıdır.

*22-ci cədvəl*

***Siz əhalinin orta sinfinin əsas xüsusiyyətlərini necə təsəvvür edirsiniz ? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Maddi müstəqillik | 40,5 |
| Şəxsi mülkiyyətin mövcud olması | 27,1 |
| Maddi istehsalda iştirak | 16,5 |
| Mənəvi istehsalda iştirak | 11,5 |
| Idarəetmədə iştirak | 3,8 |
| Cavab vermədilər | 0,6 |
| Öz variantlarını verdilər: hesab edirlər ki, bizdə orta sinif mövcud deyildir | 1 |

Sorğu göstərdi ki, əsas çoxluq orta sinfi onun maddi cəhətdən müstəqil olması ilə və şəxsi mülkiyyətinin olması ilə səciyyələndirir. Sorğulananların bütövlükdə 60 %-dən çoxu maddi və mənəvi istehsalda iştiraka öz diqqətlərini yönəltmişlər (cavablar yarıbayarı bölünmüşdür); ümumi



hesabda bu, sorğulananların 25 %-ə qədərini təşkil edir. Onların yalnız cüzi bir hissəsi (3,8 %) hesab edir ki, orta sinfə idarəçi xüsusiyyət xasdır (22-ci cədvəl).

*23-cü cədvəl*

***Respublikada orta sinif formalaşıbmı? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Bəli, formalaşmışdır | 48,1 |
| Xeyir | 35,6 |
| Bilmirəm | 16,3 |

Burada sorğulanan şəhərlilərin yarısından çoxunda orta sinif haqqında natamam təsəvvür müşahidə edilir. Sorğulananların yarıdan azı hesab edir ki, orta sinif formalaşmışdır (23-cü cədvəl).

*24-cü cədvəl*

***Sizin fikrinizcə orta sinif cəmiyyətin hansı təbəqəsində daha artıq dərəcədə cəmləşmişdir? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Təhsil və mədəniyyət idarələrində işləyən insanlar | 34,6 |
| Tibb sahəsində | 9,7 |
| Qulluqçular sferasında | 6,7 |
| Dövlət məmurları sferasında və dövlət idarələrində | 26 |
| Mülkiyyətçilər və sahibkarlar sferasında | 23 |
| Heç bir sahədə orta sinif yoxdur | 2 |

Sorğulananların böyük hissəsi burada hesab edir ki, orta sinif təhsil, mədəniyyət və idarəetmə strukturlarında formalaşmışdır. Çox ehtimal ki, bu, sorğulananların o hissəsidir ki, onlar hesab edirlər ki, orta sinif mənəvi istehsalda və təkrar istehsalda iştirak edən təbəqədir. Faiz nisbətilə daha sonra dövlət idarələrindəki (26 %) və mülkiyyətçilər-

sahibkarlar sferasındakı (23%) qulluqçular və məmurlar gəlir. Sorğulananların yalnız 2 %-i hesab edir ki, heç bir sferada orta sinif yoxdur (24-cü cədvəl).

*25-ci cədvəl*

***Əgər orta sinif təşəkkül tapmışsa, bu gün o hansı təşəkkül mərhələsindədir? (% -lə).***

| Cavablar | Faizlər |
|---|---|
| Tam şəkildə formalaşmışdır | 4,8 |
| Müstəqil təbəqə kimi o hələ təşəkkül mərhələsindədir | 28,8 |
| Orta sinfin yaranması prosesi çox ləng gedir | 23,7 |
| Bu sinfin yaranması yalnız cəmiyyətin arzusudur | 14,4 |
| Çox çətin ki, Azərbaycanda orta sinif formalaşsın | 2 |

Cavabların oxşar (sərhəd) variantları (4,2 və 4,3) göründüyü kimi, sorğulananların yarıdan çoxunu təşkil edir, yəni onun yeni şərhində orta sinfin yaranması prosesi ləng gedir. Sorğulananların yalnız 5 %-ə qədəri hesab edir ki, orta sinif tam şəkildə formalaşmışdır, halbuki sorğulananların 14 %-dən çoxu hesab edir ki, orta sinfin yaranması cəmiyyətin yalnız arzusudur (25-ci cədvəl).

*26-cı cədvəl*

***Siz özünüzü hansı sosial təbəqəyə mənsub sayırsınız?(% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Yüksək təbəqəyə | 2,9 |
| Yüksək orta təbəqəyə | 5,8 |
| Orta təbəqəyə | 49 |
| Aşağı orta təbəqəyə | 29,8 |
| Aşağı təbəqəyə | 8,7 |
| Bilmirəm | 3,8 |



Özünüidentikləşdirmə ilə bağlı olan cavablar göstərir ki, sorğulananların hansı təbəqəyə aid olduqlarını bilməyən təxminən kiçik bir hissəsi (3,8 %) istisna təşkil etməklə əsas əksəriyyət tamamilə şüurlu surətdə özünü orta sinfə aid etmişlər (26-cı cədvəl).

*27-ci cədvəl*

***Təbəqələrlə özünü identikləşdirmə (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Yüksək təbəqəyə | 2,9 |
| Yüksək-orta təbəqəyə | 5,8 |
| Orta təbəqəyə | 49 |
| Aşağı-orta təbəqəyə | 29,8 |

Göründüyü kimi, faizlə götürdükdə orta sinif sorğulananlar içərisində lap böyük əksəriyyəti təşkil edir (27-ci cədvəl).

*28-ci cədvəl*

***İndi istədiyiniz sahədə Sizin xüsusi təhsiliniz varmı? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Bəli, əsaslı | 60,6 |
| Qismən | 25 |
| Xeyir | 8,7 |
| Cavab vermədilər | 5,8 |

*29-cu cədvəl*

***Baza təhsiliniz varmı? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Baza təhsilinə malikdirlər | 60,6 |
| Qismən baza təhsilinə malikdirlər | 25 |
| Baza təhsilləri yoxdur | 8,7 |
| Cavab vermədilər | 6 |

**III Blok** – Ailədə maddi rifahla bağlı suallarla əlaqəlidir.

*30-cu cədvəl*

***Sizin maddi vəziyyətiniz? (% -lə).***

| Cavablar | Faizlər |
|---|---|
| Tamamilə qənaətbəxşdir | 2,9 |
| Qənaətbəxşdir | 27,3 |
| Qənaətbəxş deyil | 21,1 |
| Nisbətən qənaətbəxşdir | 11,1 |
| Böhran vəziyyətindədir | 13,8 |
| Bilmirlər | 23,8 |

Burada ailədə maddi rifah üzrə son dərəcə bir-birinə əks situasiyaların faiz nisbətləri təxminən bir-birinə uyğundur. Məsələn, üç faizə qədər (2,9 %) qənaətbəxş, böhranlı isə 4%-dən aşağıdır (3,8 %). Qənaətbəxş və nisbətən qənaətbəxş isə təxminən 40 %-dir, qeyri-qənaətbəxş isə 12%-dən çoxdur. Göründüyü kimi, sorğulananlar içərisində maddi rifahı yaxşı olan əhalinin faizi maddi rifahı yaxşı olmayanların faizi ilə təxminən bərabərləşir (30-cu cədvəl).

*31-ci cədvəl*

***Sizin ailənizin bir ay müddətində təxmini xərcləri ? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 50 manat | 10,6 |
| 150 manat | 31,7 |
| 200 manat | 15,4 |
| 300 manat | 12,5 |
| 500 manat | 6,7 |
| 1000 və daha çox manat | 4,8 |
| Bilmirəm | 18,3 |

Ailənin 50 manatdan 150 manata qədər xərcləri ümumi cəmdə sorğulanan ailələrin 42%-dən çoxunu, yəni yaşayış minimumundan aşağı təşkil edir. Əgər ailə xərclərini 200-300



manat çərçivəsində cəmləşdirsək, onda bu, sorğulananların 35%-dən çoxunu təşkil edir və sorğulananların yalnız 11%-dən çoxu 500 manatdan 1000 manata qədər xərc edir. Sorğulananların 18%-dən çoxunun ailə xərcləri haqqında məlumatı yoxdur (31-ci cədvəl).

*32-ci cədvəl*

***Ümumi mənzil sahəsinin orta ölçüləri? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 20 kv.m | 13,5 |
| 30 kv. metrə qədər | 18,3 |
| 45 kv. metrə qədər | 39,4 |
| 68 kv. metrə qədər | 22,1 |
| Bilmirəm | 6,7 |

Güman etmək olar ki, sorğulanmış və sovet dövründən mülkiyyəti qalmış şəhərlilərin mənzil sahəsi əsasən 2 otaqdan ibarətdir (18,3%). Faiz nisbəti etibarı ilə yalnız 13,5 faizi bir otaqlı mənzildə yaşayır (32-ci cədvəl).

*33-cü cədvəl*

***Sizin torpaq sahənizin orta kvadratmetri? (%-lə).***

| Cavablar | Faizlər |
|---|---|
| 0,6 ha | 12,5 |
| 2 ha | 1,9 |
| 5 ha-dan 10 ha-ya qədər | 5,8 |
| 30 ha | 2,9 |
| Torpaq sahəsi yoxdur | 51,9 |
| Cavab vermədilər | 25 |

Sorğulanmış şəhərlilərin yarıdan çoxunun torpaq sahəsi yoxdur, lakin bununla belə, bu gün 0,6 ha olanların və hətta torpaq sahələri 5-10 ha (5,8 %) və 30 ha (2,9%) təşkil

edənlərin faizi az deyildir. Ehtimal etmək olar ki, bu torpaqların sahibkarlarının şəhərətrafı fermer təsərrüfatı var; sorğulananların 25%-i suala cavab verməyib (33-cü cədvəl).

*34-cü cədvəl*

***Torpaq sahəniz varmı, Siz ondan necə istifadə edirsiniz? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Bostan üçün | 2,9 |
| Bağ salmışıq | 13,5 |
| Həm bostanımız, həm də bağımız var | 6,7 |
| Mal-qaramız var | 1 |
| Kiçik market üçün istifadə edirik | 1 |
| Istehsal müəssisəsi kimi istifadə edirik | 3,8 |
| Müxtəlif məqsədlər üçün istifadə edirik | 1,9 |
| Istifadə etmirik | 1,9 |
| Icarəyə vermişəm | 1 |
| Yoxumuzdur | 67,3 |

Ümumi cəmdə sorğulananların 25%-ə qədəri öz torpaq sahəsindən bostan və bağçılıq üçün istifadə edirlər. 10%-dən çox isə bu sahələrdən xırda market üçün istifadə edir, icarəyə verir və müxtəlif məqsədlər üçün istifadə edirlər; sorğulananların yalnız 2%-ə qədəri torpaqdan istifadə etmir və 1% malqara təsərrüfatı yaratmışlar (34-cü cədvəl).

*35-ci cədvəl*

***Sizin ailənizin əmlakının dəyəri (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 2000 manat | 1,9 |
| 20 000 manat | 1,9 |
| 25 000 manat | 1 |
| 40 000 manat | 1 |
| 50 000 manat | 3,8 |
| 60 000 manat | 1 |
| 75 000 manat | 1,9 |
| 100 000 manat | 5,8 |
| 143 000 manat | 1 |
| 150 000 manat | 1 |
| 250 000 manat | 2,9 |
| Cavab vermədilər | 2,9 |



*36-cı cədvəl*

***Dəyəri 10000 manatdan 300000 manata qədər olan mənzilləri var (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 10000 manata qədər | 5,8 |
| 10000 manatdan 20000 manata qədər | 4 |
| 25000 manatdan 40000 manata qədər | 2 |
| 50000 manatdan 60000 manata qədər | 4,8 |
| Təxminən 75000 manatdan 100000 manata qədər | 7,7 |
| 140000 manatdan 150000 manata qədər | 2 |
| 250000 manatdan 300000 manata qədər | 2,9 |

Respondentlərin ümumi miqdarından yalnız 27 adam, yəni sorğulananların 26%-i öz mənzilini qiymətləndirməyi istədilər. Beləliklə, cavab verənlərin 26 %-i 10000 manatdan 300000 manata qədər dəyəri olan mənzillərə sahibdirlər. Təsərrüfatı olan və bu təsərrüfatı 50000 manatdan 75000 manata qədər olan hüdudlarda qiymətləndirilən sorğulananların sayı. Sorğulananlardan yalnız üç nəfər mövcud olan öz texnikalarını 5000 manatdan 50000 manata qədər qiymətləndirdilər.

Lakin bu hüdudlarda, bütün səviyyələrdə əmlakın dəyərinin faiz düzümü demək olar, olduqca aşağıdır. Bu,

əmlakının dəyərinin aşağı olduğu ailələrə, həmçinin əmlakının dəyərinin yüksək olduğu ailələrə aiddir (35-ci, 36-cı cədvəllər).

*37-ci cədvəl*

***Hazırda Sizin iş yeriniz? (% -lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Əvvəlki yerimdə işləyirəm | 77,9 |
| Öz əvvəlki işimi muzdlu əməklə uyğunlaşdırıram | 4,8 |
| Iş yerimi dəyişmişəm | 5,8 |
| İkinci ixtisas qazanmışam | 11,5 |

**Blok IV.**

*38-ci cədvəl*

***Cins (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Kişilər | 52,9 |
| Qadınlar | 47,1 |

Demək olar ki, şəhərlilər arasında sorğuda bərabərlik saxlanılmışdır (38-ci cədvəl).

*39-cu cədvəl*

***Yaş (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| 20-dən 25 yaşına qədər | 15,4 |
| 26-dan 30 yaşına qədər | 18,3 |
| 31-dən 35 yaşına qədər | 13,5 |
| 36-dan 40 yaşına qədər | 20,5 |
| 40 yaş və yuxarı | 47,7 |

Sorğulananlar içərisində 70%-ə qədər respondentlər yetkin və daha yuxarı yaşda idilər, yerdə qalan 30-32% gənc nəslin nümayəndələridir (20-30 yaş).



*40-cı cədvəl*

***Təhsil (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Ali təhsilli | 70,2 |
| Natamam ali | 9,6 |
| Xüsusi orta | 14,4 |
| Orta | 1 |
| Natamam orta | 1,9 |
| İbtidai | 1,9 |
| Təhsili yoxdur | 1 |

Sorğulananların 80%-ə qədərini ali və natamam ali təhsili olan respondentlər təşkil edir, xüsusi orta təhsili olanlar 14,4 %, qalanlar isə (orta, natamam orta, ibtidai) 5% təşkil edir (40-cı cədvəl).

*41-ci cədvəl*

***Sizin diplom üzrə ixtisasınız ? (%-lə)***

| Cavablar | Faizlər |
|---|---|
| Pedaqoq | 37,5 |
| Mühəndis | 8,7 |
| Incəsənət işçiləri | 16,3 |
| Tibb işçiləri | 1 |
| Menecer-mühəndis | 12,5 |
| Ticarət işçiləri | 3,8 |
| Fəhlələr (ixtisaslı) | 2,9 |
| Jurnalistlər | 2,9 |
| Hüquqşünaslar və elmi idarələrin nümayəndələri | 10,6 |
| Cavab vermədilər | 3,8 |

Faiz baxımından burada birinci yerdə pedaqoqlar durur (37,5); mühəndislər və menecer mühəndislər ümumi cəmdə 21% təşkil edir; incəsənət işçiləri 16,3 %; elmi əməkdaşlar 11%-dir. Cüzi azlıqlar sırasında jurnalistlər (2,9%); tibb işçiləri 1%; ticarət işçiləri 3,8%; fəhlələr 2,9 %-dir (41-ci cədvəl).

*42-ci cədvəl*

*Sizin ailə vəziyyətiniz? (%-lə)*

| Cavablar | Faizlər |
|---|---|
| Subaydırlar | 38,4 |
| Vətəndaş nikahı | 1,9 |
| Uşaqlı ailə | 51,9 |
| Uşaqsız ailə | 1 |
| Boşanılmış ailə | 3,9 |
| Dullar | 2,9 |

Bu məlumatlar onu göstərir ki, sorğu ilə böyük əksəriyyətlə uşaqlı ailələrin yarısından çoxu əhatə olunmuşdur, ikinci yerdə subaylar durur (42-ci cədvəl).

Rayonlarda və Bakı şəhərində alınmış cavabların müqayisəli təhlili:

İstər rayonlarda və istərsə də Bakı şəhərində müstəqil şəkildə apardığımız ümumiləşdirmələrdən əlavə, bir sıra ümumi suallara dair istər rayonların respodentləri və istərsə də Bakı şəhərinin respondentləri ilə bağlı ümumiləşdirmələr üzrə müqayisəli təhlil aparılmışdır (bax. 43, 44, 45-ci cədvəllər).



*43-cü cədvəl*

***İqtisadiyyatdakı islahatlar Sizin peşəkarlıq taleyinizə necə təsir göstərmişdir? (%-lə)***

| | Cavablar | Rayon | Şəhər |
|---|---|---|---|
| | Mənim peşəm bu gün aktual deyil | 3,3% | 1% |
| | Bu gün tələb olunan yeni peşə qazanmışam | 2,8% | 11,5% |
| | Iqtisadi islahatlar insandan daha çox məsuliyyət tələb edir | 3,3% | 49% |
| | Iqtisadi islahatlar daxili özünütəkmilləşdirmə tələbatını stimullaşdırır | 39,4% | 18,3% |
| | Öz ixtisasımı dəyişmişəm | 14,4% | 4,8% |

43-cü cədvəldən göründüyü kimi, yuxarıda qoyulmuş suala cavabların faiz nisbəti güman etməyə əsas verir ki, öz peşə fəaliyyətində ixtisasdəyişmə meyli daha qabarıq şəkildə şəhərdə özünü göstərir, nəinki Azərbaycanın rayonlarında. Faiz nisbətləri (40%-ə qarşı 3,3%) şəhərlə müqayisədə rayonda və həmçinin iqtisadi islahatların doğurduğu fərdi məsuliyyətin stimulyasiya edilməsində kəskin surətdə bir-birindən fərqlənir. Iqtisadi islahatlar şəraitində özünütəkmilləşdirmə stimuluna gəldikdə isə, burada tam bunun əksinə olan mənzərə yaranır. Rayon şəraitində bu suala 39,4% müsbət cavab verdilər, halbuki şəhərdə bu faiz 18,3 olmuşdur. Müqayisəli cədvəllərdən göründüyü kimi, rayonda şəhərə nisbətən 3 dəfə artıq respondent öz peşəsini dəyişmişdir. Eyni zamanda da yeni peşə əldə etmək imkanları rayona nisbətən şəhərdə dörd dəfə artıqdır.

*44-cü cədvəl*

***Öz fəaliyyətinizdə hüquqlarınızdan tam şəkildə istifadə edirsinizmi?***

| | Cavablar | Rayon | Şəhər |
|---|---|---|---|
| | Tam şəkildə | 76% | 29,8% |
| | Çox çətinliklə | 17% | 21% |
| | İstifadə etmirəm, belə ki bürokratik əngəllərlə rastlaşıram | 6,1% | 11,5% |
| | Müəyyən dərəcədə | - | 37,5% |

Üçüncü cədvəldə rayonun və şəhərin öz hüquqlarından gündəlik işində istifadə etmək üzrə obyektiv imkanlarla bağlı olan müqayisəli təhlil verilmişdir. Cədvəldən göründüyü kimi, rayonlarda sorğulananların 2/3-dən çoxu öz hüquqlarından tam şəkildə istifadə edirlər, halbuki şəhərdə sorğulananlardan öz hüquqlarından tam istifadə edənlərin sayı yalnız təxminən 30 %, yəni bütün sorğulananların yalnız üçdə birini təşkil edir.

*45-ci cədvəl*

***Siz demokratik münasibətlərin mahiyyətini necə başa düşürsünüz?***

| | Cavablar | Rayon | Şəhər |
|---|---|---|---|
| | Demokratik olmaq azad olmaq deməkdir | 48,3% | 21,2% |
| | Demokratiya qarşılıqlı məsuliyyət tələb edir | 17,2% | 8,7% |
| | Mənim azadlığım əxlaqi və hüquqi normalara baxmadan öz maraqlarımı reallaşdırmağı nəzərdə tutur | 3,3% | 4,8% |
| | Demokratik münasibətlər sosial ədalətə əməl etməyi tələb edir | 7,2% | 33,3% |



Beləliklə, əgər rayon səviyyəsində sorğulananlar arasında demokratiklik azad fəaliyyətlə identikləşdirilirsə (50%-ə qədər), şəhər şəraitində sorğulananlardan bu suala 21%-dən çoxu cavab vermişlər. Eyni zamanda da sualın demokratik münasibətlərin sosial ədalətə əməl edilməsilə əlaqələndirildiyi dördüncü variantına cavablarda şəhərlilər arasında sorğulananların 33%-dən çoxu müsbət cavab vermişlər, rayonlarda demokratik münasibətləri sosial ədalətlə sorğulananların yalnız 7,2%-i əlaqələndirir. Başqa sözlə, əgər rayon şəraitində sahibkar fərdi azadlığa üstünlük verirsə, şəhərli keçid dövründə əmələ gəlmiş situasiyada müvəffəqiyyətə nail olunmasında sosial əlaqələrin mövcudluğunu baza dəyəri olaraq qəbul edir. Beləliklə, müqayisəli təhlilin nəticələri istər ucqarlarda və istərsə də respublikanın mərkəzində orta sinfin təşəkkülündə baza dəyərlərinə münasibətin az əhəmiyyətli olmayan cəhətini aşkara çıxarmağa imkan vermişdir (45-ci cədvəl).

*46-cı cədvəl*

***Siz özünüzü hansı sosial təbəqəyə aid edirsiniz?***

| | Cavablar | Rayon | Şəhər |
|---|---|---|---|
| | Ən yüksək təbəqəyə | | 2,9% |
| | Yüksək-orta təbəqəyə | 9,4% | 5,8% |
| | Orta təbəqəyə | 63,3% | 49% |
| | Aşağı təbəqəyə | 7,8% | 29,8% |
| | Bilmirəm | 22,5% | 3,8% |

Cədvəldən göründüyü kimi, rayonda sorğulanan respondentlərdən 60%-dən çoxu orta siniflə özlərini identikləşdirirlər, halbuki şəhər şəraitində bu faiz 50%-dən az təşkil edir. Lakin təhlil göstərdi ki, rayonlarda sorğulananların beşdə birindən çoxu ümumiyyətlə bilmirlər ki, özlərini hansı

təbəqəyə aid etsinlər, halbuki şəhərdə bu faiz cüzi azlıq kimi nəzərə çarpır (46-cı cədvəl).

*47-ci cədvəl*

***Əgər Siz öz hüquqlarınızdan lazımi dərəcədə istifadə edə bilmirsinizsə bunun əsas səbəblərini göstərin?***

| | Cavablar | Rayon | Şəhər |
|---|---|---|---|
| | Mənim öz hüquqlarım haqqında lazımi təsəvvürüm yoxdur | 27,2% | 5,8% |
| | Bürokratik əngəllər mane olur | 27% | 34% |
| | Təsərrüfatın (təşkilatın) maliyyə imkanları yoxdur | 52% | |
| | Buna xüsusi şəxsi marağım yoxdur | | 14,4% |
| | Bilmirəm | | 6,7% |
| | Digər səbəblər | | 2,9% |

Indiki halda öz mahiyyəti ilə bir-birinə yaxın sualların müqayisəli təhlili bürokratik əngəllərlə bağlı olan çox mühüm problemi işıqlandırmağa imkan verir, iqtisadi və sosial islahatlar yolunda bunların əsas maneə olduğunu göstərir (47-ci cədvəl).



# NƏTİCƏ

İqtisadi və sosial-siyasi sferalarda cəmiyyətimizin yaşadığı transformasiya prosesləri, Ik növbədə, cəmiyyətin sosial-sinfi strukturuna ciddi surətdə təsir göstərmişdir. Qarşılıqlı sinfi münasibətlərin makrososial əlaqələrdən mikrososial əlaqələr səviyyəsinə "sürüşməsi"nin dinamikası zaman etibarı ilə sürətlə baş verdiyindən postsovet məkanının bəzi sosioloqlarına belə düşünməyə əsas vermişdir ki, fəhlə sinfi cəmiyyətin müstəqil və sosial cəhətdən daha fəal altsistemi olaraq yaşayış uğrunda gedən gündəlik kütləvi mübarizəsi təlaşında əriyib getmişdir və ənənəvi olaraq başa düşdüyümüz sinif "ölmuşdur". Fikirləşirik ki, öz reallıqlarımızda müşahidə etdiyimiz bir sıra faktlar əsasında, çox çətin ki, yuxarıda irəli sürülmüş fikirlərlə tam razılaşmaq mümkün olsun.

Bazar iqtisadiyyatına keçid dövrünün ilkin tarixçəsi, postsovet cəmiyyətində onun təşəkkülü sahəsində əldə edilmiş təcrübə aydın şəkildə göstərir ki, qarşılıqlı sinfi münasibətlər makrosinfi birliklərdən mikrosinfi birliklərə və altsistemlərə transformasiya olunmuşdur. Bu halda cəmiyyətin və ictimai həyatın bölgüsünün sinfi və stratifikasiyon səviyyəsinin aydın mənzərəsi yaranır. Fikrimizcə, "siniflər" və "stratlar" - bunlar yalnız bərabərsizliyin ümumi modelindən törənən olan və bütövlükdə, cəmiyyət həyatının sosial strukturunun dinamikasını əks etdirən müxtəlifliklərdir.

Müasir Azərbaycanın dönmədən bazar iqtisadiyyatı yoluna ayaq qoyduğu və demokratik münasibətlərin prinsiplərini sosial-siyasi və ictimai həyat praktikasına tətbiq etməyə başladığı bir şəraitdə cəmiyyətin istehsal və yaradıcı həyatında müəyyənedici vasitə kimi orta sinfin rolu durmadan artacaqdır. Şübhəsizdir ki, bu, Azərbaycanın sosioloqları

üzərinə böyük məsuliyyət qoyur: yeniləşmiş cəmiyyətin istər sosial və istərsə də stratifikasion strukturunun öyrənilməsi sahəsində gərgin iş gözlənilir. Bu gün artıq sübut etməyə ehtiyac yoxdur ki, idarəetmə strukturlarının işinin səmərəliliyi cəmiyyətdə fəaliyyət göstərən spesifik xüsusiyyətləri haqqında səhih, maksimum dərəcədə verifikasiya olunmuş, həyati cəhətdən mühüm biliklərdən birbaşa asılıdır. Stratların daxili inkişaf qanunlarının və stratlararası qarşılıqlı münasibətlərin (münaqişəli, antaqonist, həmrəylik münasibətlərinin) analitik ümumiləşdirilməsi sahəsində uzunmüddətli iş görmək lazım gəlir. Təəssüf ki, bütün bu məsələlər hələlik bir sıra obyektiv və subyektiv səbəblər üzündən hələ də Azərbaycan sosiologiyasının diqqətindən kənarda qalır. Müasir cəmiyyətin stratifikasion mənzərəsi, düşünürəm ki, maddi və mənəvi nemətlərin bölgüsü və yenidən bölgüsü üzrə əsas nöqtələrdə bir-biri ilə kəsişən və bu gün iqtisadi, sosial-mədəni və siyasi status prinsipi üzrə sıralanan mikrosistemlərin və altsistemlərin qarşılıqlı təsirinin və qarşılıqlı asılılığının bütün özünəməxsusluğunu əks etdirir.

Azərbaycan şəhər və rayonları şəraitində həyata keçirdiyimiz pilot sorğusu göstərdi ki, orta sinif yuxarı və aşağı stratlar arasında orta mövqe tutur. Inkişaf edən ölkədə bazar iqtisadiyyatının bazası inkişaf etmiş ölkələrdəkinə nisbətən o qədər də sabit deyildir. "Rasional-məqsədli" fəaliyyət təcrübəsinin toplanması (M.Veber) – keçid dövrü cəmiyyətində orta sinif qarşısında duran və öz növbəsində, bazar qanunları, demokratik təfəkkür tərzi, bazar məkanında və sosiomədəni sferada azad seçim qabiliyyəti haqqında biliklər potensialının artırılmasını nəzərdə tutur.

Tədqiqat, o cümlədən, pilot tədqiqatı göstərdi ki, orta sinif keçid dövrü cəmiyyətində real qüvvə olaraq istehsal münasibətlərinin (maddi və mənəvi münasibətlər) ümumi



zəncirində eyni vaxtda həm törəmə və həm də asılı halqadır. Bu siniflər bir tərəfdən, bütövlükdə, müstəqil yaradıcılıq fəaliyyəti olmadan təsəvvür edilməyən altsistemi təşkil edirlər, digər tərəfdən isə, bu siniflər digər sosial strukturlarla birbaşa bağlıdırlar; həmin strukturlar isə hazırkı situasiyada təkamül mərhələsindədirlər və hələ köhnənin "vərdişləri" ndən doğan çətinliklərdən əziyyət çəkirlər.

Azərbaycan çərçivəsində orta siniflərin tədqiqi perspektivdə çoxşaxəli araşdırma tələb edir. Hər şeydən əvvəl, buraya, orta sinfin maddi təminatı, maddi-mənəvi potensialı (imkanları), özünüidentikləşdirmə dərəcəsi, davranış modeli (fəallıq, həyat üslubu) əlamətləri məsələləri, həmçinin orta siniflərin ölkənin coğrafi və geosiyasi məkanında öyrənilməsi problemləri aiddir.

## ƏDƏBİYYAT


1. Аристотель. Политика. М., 2002.
2. Платон. Государство. Собр.соч. М., 1998, т. .
3. Tusi N. Əxlaqi-Nasiri. B., 1989.
4. Конт О. Дух позитивной философии. Санкт-Петербург., 1910.
5. Зиммель Г. Социальная дифференциация. 1898.
6. Зиммель Г. Конфликт современной культуры. Пт. 1925.
7. Маркс К., Энгельс Ф. Соч., т. 22.
8. Аберкромби Н., Хилл С., Тернер Б. Социологический словарь. М., 1999.
9. Азимова Р. Личность в процессе демократизации общества. Баку: Элм, 2002.
10. Аббасов А.Ф. Демократия: наличная и должная. Баку: Адильоглы, 2005.
11. Баткин Л.М. На пути к понятию личности. См.сб.: Культура возрождения и общество. М., 1986.
12. Бациева С.Историко-социологический трактат Ибн-Халдуна «Мукаддима». М., 1965.
13. Богомолов А.С. Философия жизни в Германии. М., 1990
14. Богомолова Т.Ю., Топлина В.С. Экономическая стратификация населения России в 90-е годы. Соц.исс., 2001.
15. Валлерстайн И. Социальное изменение: Вечно? Ничто, никогда не изменяется?, Социсс, 1997.
16. Валлерстайн И. Конец знакомого мира. Социология XXI, М., 2003.
17. Вебер М. Исследования по методологии науки. М., 1980, ч. 2.
18. Вебер М. Основные понятия стратификации. СоцИсс, 1994, № 5,
19. Гидденс Э. Социология. М., 2005.





20. Здравомыслов Г.А. Российский средний класс – проблема границ и численности. Соц\исс, 2001.
21. Eyvazov F. Dahi alim və filosof. B., 1981.
22. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку, 2000.
23. Малева Г.М. В поисках среднего класса: общие методологические подходы. См. сб.: Средние классы в России. М., 2003
24. Мамедзаде И. Гражданское общество и национальная идеология. Баку: Мцяллим, 1995
25. Мамедов З. Сираджатин Урмави. Баку: Элм, 1990.
26. Мамедова А. Мировоззрения Насреддина Туси. Баку: Элм, 2000.
27. Мендра А. Социология. М., 2000.
28. Радаев В.В. О социологическом и идеологическом пониманиях среднего класса. См.сб.: Средние классы в России. М., 2003.
29. Радаев В.В Классы после классиков. См. в монографии: Социальная стратификация. М., 2003.
30. Радаев В.В., Шкаратан О.И. Социальная стратификация. М., 1996.
31. Рзаева Ш. Новые формы организации предпринимательства в регионах. АМЕА Хябярляр. Игтисадиййат. Щуманитар вя Иътимаи Елмляр серийасы 2004, №2.
32. Смелзер Н. Социология. М., 1998.
33. Современная буржуазная философия. М., 1972.
34. Трушков В.В. Современный рабочий класс в России в зеркале статистики. М., 1985.
35. Умов В.И. Российский средний класс: социальная реальность и политический фактор. В журн.: Полис, 1993, № 4.

Nəşriyyatın direktoru: Şöhrət Səlimbəyli
Texniki redaktor: Mail Xəlilov

**Rəfiqə Əzimova**

**KEÇİD DÖVRÜ CƏMİYYƏTİNİN SOSİAL STRATİFİKASİYASINDA ORTA SİNİF**

Yığılmağa verilib:10.06.2014
Çapa imzalanıb:15.07.2014
Format:60x84 16/[1]
6,25 ş.ç.v
Tiraj:300

*«AVROPA»nəşriyyatı*